

# Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 279 (8872) CÜMƏ AXŞAMI, 23 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanın tarixi uğurlarındakı möhtəşəm imza

**Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan ötən əsrdə ikinci dəfə əldə etdiyi müstəqilliyinin ən şərəfli dövrünü yaşayır.**

**Bu yolun başlanğıcı çox mürəkkəb və keşməkeşli oldu: ölkəmiz siyasi, iqtisadi, sosial böhran keçirdi, vətəndaş müharibəsi təhlükəsi ilə üzləşdi, torpaqlarımız işğala məruz qaldı, yüz minlərlə soydaşımız öz dədə-baba yurdundan didərgin düşdü. Məhz bu ağır dönəmdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını şərəflə yerinə yetirərək müstəqil dövlətçiliyimizin yenidən itirilməsinin qarşısını aldı, milli inkişaf strategiyasını müəyyənləşdirdi və onu bütün istiqamətlər üzrə ardıcıllıqla reallaşdırmağa başladı.**

*Ardı 2-3-cü səh.*

## Zəfər və qüdrət zirvəsi



**Böyük qürur və fəxarət hissilə qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən tariximizin ən şanlı səhifələri qızıl hərflərlə yazılır.**

*Zaman Ümummilli Lider Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına tarixi müraciətində haqlı olduğunu bir daha təsdiqləyib: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

*Ardı 4-cü səh.*

## Möhtəşəm qələbələrin memarı

**Başa çatmaq üzrə olan 2021-ci ilin yekunlarının ictimai mənafe baxımından qiymətləndirilməsi pandemiya rejiminin hökm sürdüyü bir mərhələdə inkişafın dolğun mənzərəsini göz önündə canlandırır.**

Belə real mənzərə fonunda fəaliyyəti ilə ictimai etimadı doğruldan, xalqa layiqli xidməti daim önə çəkən hakimiyyət komandasının müəyyənləşdirdiyi hədəfləri gerçəkləşdirmək əzmi də bir daha üzə çıxır.

*Ardı 6-cı səh.*



## İlham Əliyevin şəhərləri

**1993-cü il! Yenicə müstəqilliyini qazanmış respublika dağılmaq, məhv olmaq təhlükəsi altındadır.**

Anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi ərəfəsi. Belə bir ərəfədə xalqın təkidli xahişi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Büdcədə pul yox, iqtisadiyyat çöküb, müharibə şəraiti, torpaqlarımız işğal altındadır.

*Ardı 6-cı səh.*



## Milli maraqlara söykənən liderlik missiyası

**Tarixi reallıqlar göstərir ki, ictimai inam idarəçilikdə hər zaman böyük nailiyyətlərə yol açaraq xalqın etimad göstərdiyi liderlə sarsılmaz mənəvi bağlılığını təmin edir. Bugünün özündə də hər bir hakimiyyət cəlbedici proqram və ideyalarla cəmiyyətdəki həlledici çoxluğun dəstəyini qazanmağa çalışır. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi kimi dəyərləndirən və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansı qazanırlar.**

Bu gerçəkliklər fonunda əminliklə demək olar ki, müstəqil Azərbaycan yeni minilliyin başlanğıcında Ulu Öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının ən layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi altında son 18 ildə uğurlu gələcəyinə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı ən müxtəlif maneələrə, çətinliklərə sinə gərir. 2003-cü ilin 15 oktyabrından ölkəyə inamla rəhbərlik edən cənab İlham Əliyev ötən müddətdə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu çoxşaxəli islahatları uğurla davam etdirmiş, respublikamız iqtisadi sahədə dinamik inkişaf yolu keçərək modernləşmə mərhələsinə qədəm qoymuşdur. Cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü lider olaraq ötən müddətdə xalq qarşısında verdiyi bütün vədləri yerinə yetirmişdir.

*Ardı 10-cu səh.*

## Azərbaycan sahibkarlığını zirvələrə yüksəldən LİDER

**Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıdışı ilə ölkəni ziddiyyətlər burulğanından xilas etdi və dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanlarından istifadə edərək Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu.**

Ümummilli Liderin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 18 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuşdur. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə qeydə alınmamışdır.

*Ardı 9-cu səh.*

## *Müxalifət partiyalarından Prezidentə tam dəstək:* "İlham Əliyev hamımızı bir bayraq altında, "Dəmir yumruq" kimi birləşdirdi"

**Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin uğurları yalnız respublikamızın siyasi, iqtisadi, sosial və digər sahələrdə yüksəlişi ilə ölçülmür.**

Bütün bunlarla yanaşı, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi, uzun illərdən sonra ərazi bütövlüyümüzün bərpası İlham Əliyevin dövlətimizə qazandırdığı nailiyyətlərin təntənəsidir.

*Ardı 11-ci səh.*



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Azərbaycanın tarixi uğurlarındakı

*Əvvəli 1-ci səh.*

Ölkədə ictimai-siyasi sabitlik və təhlükəsizlik təmin edildi, köklü islahatlar aparıldı, dövlət idarəçiliyinin möhkəm təməli yaradıldı. Həyat amalı bütün varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olan Ulu Öndər torpaqlarımızın işğaldan azad edilməsi uğrunda fədakar mübarizəsinin nəticəsini görə bilmədi. Axıra çatdıra bilmədiyi bu taleyüklü məsələni isə onun siyasi varisi İlham Əliyev həll edib, Ulu Öndərə və əziz xalqına övladlıq borcunu yerinə yetirdi, son iki yüz illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan qurtaran müzəffər dövlət başçısı, qalib sərkərdə kimi əbədi şöhrət qazandı... Ömrünün 60-cı ilində bu şöhrət də, xalqın tükənməz sevgisi də cənab İlham Əliyevin halal qisməti, çoxşaxəli ictimai-siyasi və dövlətçilik fəaliyyətinin nəticəsidir.



## Vətənin taleyinə bağlılıq

Öz xalqının böyük liderinin, müdrik rəhbərinin, dahi bir şəxsiyyətin, həmçinin dünya şöhrətli siyasətçinin övladı kimi İlham Əliyev daim məsuliyyət hissi ilə yaşayıb, atasının ali vəzifələrdə işlədiyi dövrdə də, keçmiş sovet imperiyasının və onun yerli əlaltılarının təqiblərinə məruz qaldığı vaxtda da xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra müstəqil dövlət quruculuğunun sınaqları ilə üzləşdiyi zamanlarda da Ulu Öndərin ən yaxın sirdaşı, məsləkdaşı, ideya-mənəvi dəstəkçisi olub, bütün situasiyalarda təmkin, iradə, cəsarət, dəyanət nümayiş etdirib. Bu, yəqin ki, ailəsinə - həyat yoldaşına və övladlarına sıx bağlılığı ilə milli əxlaqi dəyərlərimizə sədaqətini mənalı ömründə nümunəvi bir şəkildə sübuta yetirən qayğıkeş atanın öz arzusu idi: sovet hakimiyyəti dövründə çəkilmiş fotoşəkillərdə biz yeniyetmə İlham Əliyevi yüksək rütbəli hərbçilərlə, kosmos qəhrəmanları ilə görüşlərdə, Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında Ulu Öndərin yanında görürük. Heydər Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı nümayəndəliyinin qarşısına gəlib, sovet rəhbərliyinə etirazını bildirəndə də İlham Əliyev onunla birlikdə idi. Bu, sadəcə ata-oğul həmrəyliyi deyildi, xalqa, onun ideallarına, vətənin taleyinə bağlılığın aydın təzahürü idi. Cənab İlham Əliyev bu hadisəni yada salaraq deyib: "...O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı, əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir".

## "Əsrin müqaviləsi": etimadın doğrulması

Məhz xalqın alternativsiz lideri kimi 1993-cü ilin iyununda Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ulu Öndər müstəqil dövlət quruculuğuna başlayanda sovet hakimiyyəti illərində onun təşəbbüsü ilə respublikada yaradılmış iqtisadi potensialın böyük bir qismi dağıdılmış, əhalinin yaşayış səviyyəsi pisləşmiş, Ermənistanın deportasiya siyasəti və hərbi təcavüzü nəticəsində bir milyona yaxın soydaşımız qaçqınlığa və köçkünlüyə düçar olmuş, vəziyyət humanitar fəlakət həddinə çatmış, daxili çəkişmələr, separatizm meyilləri vətəndaş qarşıdurmasına qədər gəlib çıxmış, milli sərvət olan azadlıq və müstəqillik gözdən düşmüşdü. Mənəvi dəyərlərin itirilməsinə biganəlik, gələcəyə ümidsizlik hökm sürürdü. Geniş dünyagörüşü, xalq ruhuna bələdliyi və siyasi müdrikliyi Heydər Əliyevə qısa müddətdə ölkədəki vəziyyəti nəzarətə götürərək, əlindəki məhdud resurslarla dövlət müstəqilliyini qorumaq, dövlətçilik ənənələrini dirçəltmək, işlək idarəçilik mexanizmi yaratmaq, düzgün xarici siyasət yeritmək imkanı verdi.

Bu dövrdə Ulu Öndər yüksək intellektinə, praqmatik düşüncəsinə bələd olduğu İlham Əliyevə gələcək sosial-iqtisadi inkişafın təməli kimi müəyyənləşdirdiyi yeni neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmək vəzifəsi tapşırmışdı. Dövlət Neft Şirkətində əvvəlcə vitse-prezident, sonra birinci vitse-prezident vəzifələrində çalışarkən İlham Əliyev çox gənc yaşlarından əxz etdiyi diplomat keyfiyyətlərini, zəngin tarixi və iqtisadi biliklərini xalqımızın və ölkəmizin gələcək taleyi baxımından həlledici əhəmiyyət daşıyan "Əsrin müqaviləsi"nin hazırlanmasına, bu zaman milli-dövlətçilik maraqlarımızın tam təmin edilməsinə sərf etdi və göstərilən etimadı doğrultdu. O vaxtkı vəziyyətinə görə dünyada riskli ölkə kimi tanınan Azərbaycanın investisiya üçün əlverişli olduğuna dünyanın aparıcı neft şirkətlərini inandırmaq mümkünsüz görünürdü. Ulu Öndərlə birlikdə İlham Əliyev də ölkəmizə sərmayə qoymağın gələcəkdə böyük fayda verəcəyinə investorları inandırmaq üçün çox böyük səylər göstərdi. Nəticə həm investorlara, həm də Azərbaycana milyardlarla gəlir gətirdi. "Əsrin müqaviləsi" və ondan sonra imzalanan çoxsaylı neft sazişləri ölkəmizə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandıraraq, onun qlobal iqtisadi mühitə və beynəlxalq münasibətlər sisteminə inteqrasiyasını təmin etdi...

2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda imzalanan, Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında yenidən tərtib olunmuş saziş isə tarix səhifəsinə "Yeni əsrin müqaviləsi" kimi yazıldı. Beləliklə, "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadıldı. Bu gün ölkəmiz üç əsas ixrac boru kəməri - Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Novorossiysk və Bakı-Supsa vasitəsilə neftini, Cənubi Qafqaz boru kəməri, Trans Anadolu Qaz Boru Kəməri - TANAP, Trans Adriatik Boru Kəməri - TAP və digərləri ilə təbii qazını Avropaya ixrac edir.

## Millətin vəkili: Qaradağdan Avropayadək...

Azərbaycan Respublikasının Milli Məclisində 1995-ci və 2000-ci illərdəki deputatlıq fəaliyyəti İlham Əliyevi cəmiyyətə həm vətəndaşlarla birbaşa ünsiyyət qurmağa, onların arzu və istəklərindən şəxsən xəbərdar olmağa üstünlük verən, sosial baxımdan həssas əhali qruplarının problemlərini qısa müddətdə həll etməyə çalışan ictimai-siyasi xadim, həm də xalqımız və ölkəmizlə bağlı həqiqətləri beynəlxalq tribunalarda qətiyyətlə və cəsarətlə səsləndirən millət vəkili kimi tanıtdırdı. Parlamentdə təmsil etdiyi Qaradağ rayonunun sosial-iqtisadi inkişafına mühüm töhfələr verməklə yanaşı, İlham Əliyev ölkəmizin beynəlxalq əlaqələrinin qurulmasında və möhkəmləndirilməsində də çox böyük fəallıq göstərirdi. Mükəmməl xarici dil bilgisi ona Azərbaycan parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi Avropa Şurasının Parlament Assambleyasında (AŞ PA) cəsarətli və təsirli çıxışlar etmək imkanı verirdi. Həmin dövrdə ölkəmizin Avropa məkanında nüfuzunun daha da artmasında, indi keçmişdə qalan münaqişə, Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasəti barədə Qərb dünyasında doğru-dürüst rəy yaradılmasında, erməni terrorunun ifşa olunmasında İlham Əliyevin xidmətləri böyükdür. O, AŞ PA-da səmərəli və yorulmaz fəaliyyəti sayəsində böyük hörmət və nüfuz qazanaraq, hətta bu sanballı təşkilatın vitse-spikeri və Büro üzvü də seçilmişdi...

## Olimpiya hərəkatının önündə

Azərbaycanın dünya olimpiya hərəkatında müstəqil iştirakı dövlət müstəqilliyinin bərpasından sonra mümkün olub. Milli Olimpiya Komitəsi 1992-ci ildə yaradılsa da, onun fəaliyyətinin canlandırılması, ölkənin idman həyatına heç bir təsir göstərməyən, qrup mənafelərinə xidmət edən təşkilatdan gənc nəslin sağlam həyat tərzinə təşviqinə, bədən tərbiyəsinin kütləviliyinin artırılmasına, üçrəngli dövlət bayrağımızın ən mötəbər arenalarda yüksəldilməsinə və himnimizin qürurla səsləndirilməsinə nail olan sanballı, intizamlı bir quruma çevrilməsi İlham Əliyevin adı və onun Vətənimizdə idmanın inkişafı naminə çoşğun fəaliyyəti ilə birbaşa bağlıdır. Onun 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra paytaxtda və regionlarda idmanın güclü maddi-texniki bazası yaradılıb, indiyədək 40-dan çox olimpiya kompleksi tikilib istifadəyə verilib. İlham Əliyevin MOK-a rəhbərlik etdiyi dövrdə Azərbaycan altı Olimpiadanın iştirakçısı olub və onların hər birində idmançılarımız müxtəlif əyarlı medallar qazanıblar. Ən mühüm olan odur ki, məhz bu dövrdə Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb, qitə və dünya miqyaslı çoxsaylı idman yarışlarına evsahibliyi edib. Bu günlərdə keçirilən növbəti hesabat-seçki yığıncağında İlham Əliyev yenidən MOK-un prezidenti seçilib. Özünün qeyd etdiyi kimi, idman dövlətimizin başçısının həyatında çox mühüm rol oynayır. İdmana və idmançılara qayğı ölkəmizin idman şərəfini yüksəltməklə yanaşı, sağlam və güclü gənc nəsil yetişdirilməsində də mühüm rol oynayır. Bu məqsədyönlü idman və gənclər siyasətinin nəticəsini təkcə idman arenalarında deyil, həm də Vətənimizin müdafiəsinə hazır olan, xüsusən də erməni faşizmi üzərində qələbə qazanılması üçün misilsiz şücaətlər göstərən döyüşçülərimizin qəhrəmanlıq nümunələrində görürük.

## Ulu Öndərin inamı və ümidləri

Bu gün Prezident İlham Əliyev dünyanın ən təcrübəli dövlət başçılarındandır, xalqın sevimli rəhbəridir, Qarabağı işğaldan azad etmiş sərkərdə-xilaskardır, 30 illik münaqişəyə son qoymuş sülhpərvər siyasətçi və diplomatdır. Azərbaycan liderinin çoxşaxəli və möhtəşəm dövlətçilik fəaliyyətini istənilən qədər epitetlə səciyyələndirə bilərik. Ancaq onun haqqında ən sadə təqdimat və indiki mövqeyi üçün verilmiş ən obyektiv proqnoz Ulu Öndər Heydər Əliyevə məxsusdur. Müstəqil dövlətimizə 10 il rəhbərlik edən, bu dövləti quran və əbədi müstəqilliyi üçün möhkəm təməl yaradan dahi şəxsiyyət növbəti prezident seçkiləri ərəfəsində, 2003-cü il 1 oktyabr tarixli müraciətində əziz xalqını özünün siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırdı. Müraciətdəki bu sözlər Ulu Öndərin ideyalarına sadiq olan hər kəsin qəlbində rahatlıq və dərin razılıq hissi doğurdu: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Buna qədər Ulu Öndəri dəstəkləmək məqsədilə seçkilərdə namizədliyinin irəli sürülməsinə razılıq vermiş, bir müddət əvvəl isə Azərbaycanın Baş naziri vəzifəsində fəaliyyətə başlamış İlham Əliyev ata nəsihətini, Ümummilli Liderin tövsiyəsini qəbul etdi.

Müqəddəs dinimizə görə də öz mirasını övladına əmanət etmək atanın tanrı qarşısında borcudur: Heydər Əliyevin əbədi mövcudluğunu arzuladığı ən böyük mirası isə fədakarcasına qurduğu və ağır sınaqlardan keçirib qoruduğu Azərbaycan dövlətçiliyi idi. Xalqımız millət atasının çağırışına cavab olaraq İlham Əliyevi seçdi və ölkəmizdə hüquqi, dünyəvi, demokratik dövlət quruculuğunu davam etdirməsi üçün məhz ona etimad göstərdi. 2003-cü ilin 31 oktyabrında Vətənə, xalqa və dövlətə sədaqət andı içərkən Prezident İlham Əliyev bu böyük etimadı doğruldacağına, bu vəzifənin öhdəsindən layiqincə gələcəyinə, Heydər Əliyevin siyasətini davam etdirəcəyinə söz verdi. Bu andı sonralar daha üç dəfə - 2008, 2013, 2018-ci illərdə xalqın etimadı ilə bir daha təkrarladı, hər dəfə verdiyi vədi layiqincə yerinə yetirərək, dövlətçilik ənənələrimizin qorunub saxlanması və zənginləşdirilməsi üçün əsl liderlik nümunəsi göstərdi və bu gün də quruculuq missiyasını şərəflə davam etdirir. Onu da qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin prezidentliyinin ilk vaxtlarında olduğu kimi, cənab İlham Əliyevin də dövlət başçısı vəzifəsində fəaliyyətinin ilk illərində antimilli, xəyanətkar qüvvələr ölkədə çaxnaşma salmağa, xarici düşmənlərimizin fitvası ilə Azərbaycanın yeni rəhbərinin qətiyyətli idarəçiliyinə mane olmağa uğursuz cəhd göstərdilər. Dövrün ən gənc prezidenti, dövlət başçısı olmasına baxmayaraq, İlham Əliyev təmkin və cəsarət göstərərək, xalqın ona verdiyi hakimiyyətin möhkəmliyini təmin etdi, özünün liderlik keyfiyyətləri ilə qısa müddətdə cəmiyyətin konsolidasiyasına, xarici düşmənlərə və daxildəki səbatsızlara qarşı kəskin və qəti müqavimətinə nail oldu. Cənab Prezident and içmişdi ki, ölkədə sabitliyin pozulmasına kimsə can atarsa, buna imkan verməyəcək, xalqın rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcək. Bu gün hər bir vicdanlı vətəndaşımız bu vədin tam yerinə yetirildiyini əminliklə söyləyə bilər.

## Liderlik missiyası və məsuliyyəti

Özünü xalqın alternativsiz lideri, qüdrətli dövlət rəhbəri kimi təsdiq etməklə yanaşı, Prezident İlham Əliyev Azərbaycanın inkişaf potensialını sürətlə artırmağı və onu bölgənin lideri səviyyəsinə yüksəltməyi bacarıb. İlham Əliyevin liderlik missiyası yalnız 10 milyonluq bir ölkəni deyil, sayı bundan beş dəfə çox olan dünya azərbaycanlıları toplumunu əhatə edir. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyasının cəmiyyətdə aparıcı roluna xüsusi əhəmiyyət verən dövlətimizin başçısı hansı coğrafiyada yaşamasından asılı olmayaraq, bu yurdun vətən təəssübü çəkən hər bir övladı üçün əzizdir, dəyərlidir. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri kimi İlham Əliyev xaricdə yaşayan həmvətənlərimizin birliyi, həmrəyliyi, diaspor hərəkatının gücləndirilməsi istiqamətində də mühüm işlər görür, hər il 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə xüsusi müraciətlə çıxış edir. İndiyədək dörd qurultayı keçirilmiş dünya azərbaycanlıları bu gün qalib xalqa mənsub olmağın qürurunu yaşayırlar və buna görə Müzəffər Ali Baş Komandana təşəkkür edirlər.

Ulu Öndər Heydər Əliyevin yaratdığı, milli siyasi iradənin avanqardı olan Yeni Azərbaycan Partiyasına rəhbərlik İlham Əliyevin çoxşaxəli fəaliyyətinin daha bir mühüm istiqamətidir. Azərbaycanın ən ağır vəziyyətdə olduğu dövrdə tarixi zərurətdən yaranmış partiyanın gələn il otuz illik yubileyi qeyd ediləcək. Müstəqil dövlətçiliyimizin ideoloji təminatçısı olan YAP-ın Sədr müavini, Sədrin birinci müavini və 2005-ci ildən Sədri kimi İlham Əliyev Ulu Öndərin siyasi irsi əsasında onun fəaliyyətini daha da gücləndirib, ölkəmizin hərtərəfli inkişafı ilə bağlı vəzifələrin həllində səfərbəredici rolunu yüksəldib.

Prezident İlham Əliyevin liderlik fenomeni beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Dünyada onu müdrik, uzaqgörən, etibarlı, əməkdaşlığa açıq, dəqiq və qətiyyətli mövqeyi, böyük idarəçilik təcrübəsi, yüksək intellekti və diplomatik bacarığı olan lider kimi tanıyırlar. Bu amil ölkəmizin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Prezident İlham Əliyevin dünya miqyasında yüksək nüfuzu sayəsində 2011-ci ilin oktyabrında Azərbaycan gərgin mübarizə şəraitində keçən səsvermədə 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının iki illiyə (2012-2013) qeyri-daimi üzvü seçildi və bu qurumun iclaslarına sədrliyi dövründə cənab İlham Əliyev dünyanı düşündürən, narahat edən, təhlükəsizliyə təhdidlər törədən, yoxsulluğun aradan qaldırılması, zəif inkişaf etmiş ölkələrə dəstək göstərilməsi ilə bağlı məsələlərin müzakirəyə çıxarılmasına nail oldu, qlobal miqyaslı lider kimi BMT-nin özünü islahatlar aparmağa çağırdı. İlham Əliyevin diplomatik məharətinin və dünyadakı nüfuzunun nəticəsidir ki, Azərbaycan BMT-dən sonra ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatının üzvü, 2019-cu ildən isə sədridir və bu missiyanı gələn il də davam etdirəcəkdir. Azərbaycan 2020-ci ilin əvvəlində dünyanın COVID-19 pandemiyasına məruz qaldığı dövrdə hərəkatda sədrliyinə məsuliyyətlə yanaşaraq, pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərib, pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Elə bü günlərdə dövlət başçımızın təşəbbüsü ilə Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub.

Prezident İlham Əliyev türk dünyasının da nüfuzlu liderlərindən, Türk Dövlətləri Təşkilatının qurucularındandır. Azərbaycanın 3 il bu quruma sədrlik etməsi, onun sıralarının genişlənməsinə nail olması mühüm nailiyyətdir. Təşkilatın bu il keçirilən VIII Zirvə Görüşündə Azərbaycan Prezidentinin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi dövlətimizin başçısının türkdilli xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi sahəsindəki xidmətlərinə verilən yüksək qiymətdir.

Ötən ay Türkmənistanın paytaxtı Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Görüşündə Azərbaycanın regionda və dünyada artan rolunun təqdir edilməsi, ölkəmizin tarixi Zəfərinin yaratdığı reallıqların böyük perspektivlərinin dəyərləndirilməsi Prezident İlham Əliyevin müstəqil, qətiyyətli siyasətinin gələcəyə hesablandığını bir daha təsdiqlədi. İşğal olunmuş ərazilərin azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə Azərbaycana təbrikin də yer aldığı Aşqabad Bəyannaməsini Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı tərəfdaşlarından üçünün - Qazaxıstan, Qırğızıstan və Tacikistanın imzalaması öz haqlı mübarizəsinə postsovet məkanındakı ölkələrdən də dəstək alan Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsi idi.

Güclü dövləti müstəqil siyasətin mühüm şərti sayan İlham Əliyev xalqın ən böyük milli sərvəti olan müstəqilliyin möhkəmləndirilməsi üçün bütün müstəvilərdə əzmlə çalışır.

Qətiyyətli, cəsarətli dövlət başçısı kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən xalqın xeyrinə məharətlə istifadə etməyi bacaran, qlobal miqyaslı təşəbbüsləri, uğurlu siyasi-diplomatik gedişləri ilə nüfuzu gündən-günə daha da yüksələn Prezident İlham Əliyev həyata keçirdiyi tam müstəqil siyasətlə ölkəmizi daha böyük zəfərlərə doğru aparır. Məhz bu siyasət və onun nəticəsi olan vüsətli inkişaf Azərbaycanı siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal mərkəzə çevirib.



## Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# möhtəşəm imza

### İqtisadi müstəqillik dövlət maraqlarını təmin edir

Dövlət müstəqilliyi milli iqtisadiyyatın inkişafını şərtləndirdiyi kimi, iqtisadi müstəqillik də müstəqillik ideallarının gerçəkləşməsinə, dövlət maraqlarının və xalqın mənafeyinin təmin edilməsinə zəmin yaradır. 2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafda yeni mərhələyə keçidi ilə əlamətdar oldu. Həmin ilin noyabrında imzalanmış "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Prezident fərmanı ilə yeni iqtisadi strategiyanın əsas istiqamətləri müəyyənləşdirildi. Növbəti ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilən dövlət proqramları respublikamızın şəhər və rayonlarının simasını əsaslı şəkildə dəyişdi. Bu proqramlar regionlardakı mövcud əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun, emal sənayesinin inkişafına nail olmaq, aqrar sektorda islahatları sürətləndirmək, əlverişli investisiya şəraiti yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi vəzifəsini irəli sürərək, ilk növbədə, infrastruktur layihələrinin gerçəkləşdirilməsinə, inzibati-ərazi vahidlərinin bərabər səviyyəli, tarazlı və mütənasib inkişafının təmininə, şəhərlə kənd arasında fərqin azaldılmasına istiqamətlənib. Hazırda bu proqramlardan dördüncüsünün icrası davam etdirilir.

Beynəlxalq miqyaslı mühüm tədbirlərin keçirildiyi məkanlardan biri olan paytaxtımızın siması isə ilbəil dəyişir, Şərq və Qərb memarlıq ənənələrinin birgə təcəssümü ilə seçilən Bakı dünyanın ən gözəl və müasir şəhərlərinin sırasında öz yerini möhkəmləndirir. Burada son vaxtlar inşa edilən bir sıra tikililər - Heydər Əliyev Mərkəzi, "Alov qüllələri", "Bakı kristal zalı" paytaxtın yeni rəmzləri sayılırlar. Əvvəllər cəmi bir neçə kilometr ərazini əhatə edən Bakı bulvarı isə indi 16 kilometr uzunluğundadır və orada insanların istirahəti üçün dünya standartlarına uyğun şərait yaradılıb.

Ölkə iqtisadiyyatı dəqiq düşünülmüş proqramlar, dövlətimizin başçısının bu sahədə müəyyənləşdirdiyi islahatlar çərçivəsində uğurla inkişaf etdirilir. Sənayeləşmə sürətlə aparılır, ümumi daxili məhsul istehsalında qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması, idxal asılılığının azaldılması, ölkə üçün vacib olan strateji məhsulların istehsalı diqqət mərkəzindədir. Aqrar sektora dövlət dəstəyi ilə regionlarda aqropark və yerli fermer təsərrüfatlarının, eləcə də aqroservislərin və logistik mərkəzlərin yaradılması, yeni torpaqların dövriyyəyə cəlb edilməsinə, içməli və suvarma suyu ilə təchizatın daha da yaxşılaşması, qeyri-neft sektorunun, əlverişli biznes mühitinin, sahibkarlığın, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, yol-nəqliyyat və digər infrastruktur layihələrinin icrası, elektrik enerjisi sisteminin generasiya gücünün yüksəldilməsi, yerli məhsulların ixrac coğrafiyasının genişləndirilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması iqtisadiyyatın inkişafının mühüm istiqamətləridir. Azərbaycan bu gün özünün elektrik enerjisinə daxili tələbatını tam ödəməklə yanaşı, onu ixrac edən ölkəyə çevrilib.

Bir vaxtlar dünyadakı bəzi dairələrin gerçəkləşəcəyinə skeptik yanaşdığı, hətta müəyyən vasitələrlə mane olmağa cəhd göstərdiyi Bakı-Tbili-Qars dəmir yolunun tikilib istifadəyə verilməsi Prezident İlham Əliyevin özünəməxsus qətiyyətinin və təşəbbüsçüsü olduğu irimiqyaslı layihələrin gələcəyinə dərin inamının təcəssümüdür. Tarixi İpək yolunun bir hissəsi, dünyanın 100 böyük layihəsindən biri olan və iki qitəni ən qısa yolla birləşdirən bu beynəlxalq nəqliyyat infrastrukturundan indi Azərbaycan, Türkiyə və Gürcüstanla yanaşı, Çin, Qazaxıstan, Orta Asiya və Avropa ölkələri də böyük fayda götürürlər.

İqtisadi müstəqilliyin nailiyyətləri bütün sahələrə sirayət edir. Davamlı sosial islahatlar həyata keçirilir, mədəniyyətin, incəsənətin tərəqqisi təmin olunur, elmin, təhsilin, yeni texnologiyaların, İKT-nin və kosmik sənayenin inkişafına böyük diqqət yetirilir. İndi artıq ölkəmiz kosmik dövlətlər sırasında yer alır.

Ulu Öndərin mədəniyyət siyasətini uğurla davam etdirməklə milli-mənəvi sərvətlərimizin daha da zənginləşməsini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev ölkəmizin iqtisadi imkanlarının bu sahənin inkişafına dəstəyini daim artırır. Bu siyasət nəticəsində Azərbaycan mədəniyyəti dünyada yüksək səviyyədə təbliğ olunur, çoxəsrlik tarixi mədəni incilərimiz dünya mədəni irsində öz layiqli yerini tutur. Birinci vitse-prezident, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədə fəaliyyəti xüsusilə mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən qeyd edim ki, çoxşaxəli uğurlu fəaliyyəti ilə xalqımızın böyük rəğbət və sevgisini qazanmış Mehriban xanın Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunması onun ölkəmizin inkişafına dəyərli töhfələr vermək imkanlarını artırıb. Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə müəssisələrinin tikintisi və yenidən qurulması, eləcə də tarixi-mədəni abidələrin bərpası və qorunub saxlanılması sahəsində irimiqyaslı layihələr həyata keçirilir.

Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və onların sosial problemlərinin həlli sahəsində həyata keçirilən proqramlar çərçivəsində onlar üçün indiyədək 116 qəsəbə və ya yaşayış kompleksi inşa edilib, bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsi gücləndirilib.

Sırf Azərbaycan məhsulu və brendi olan, gündən-günə bütün ölkə üzrə öz xidmət dairəsini genişləndirən və dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsinə, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edən uğurlu model kimi dünya miqyasında öyrənilən "ASAN xidmət" əhalinin rahatlığının təmin edilməsi sahəsində dövlət siyasətini müvəffəqiyyətlə gerçəkləşdirir.

Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti nəticəsində makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın diversifikasiyası və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası təmin edilib, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi üçün mühüm işlər görülüb. Gələn ilin əvvəlindən reallaşdırılacaq sosial islahatlar vətəndaşların rifahının daha da yüksəldilməsinə imkan yaradacaqdır.

Bu gün ölkəmizin valyuta ehtiyatları artıq 53 milyard dolları ötüb. Bu, ölkəmizin iqtisadi və siyasi müstəqilliyinin təmin olunmasında mühüm amillərdəndir. Azərbaycan regionun iqtisadi güc mərkəzi kimi öz rolunu daha da gücləndirməkdədir.



### Möhtəşəm Zəfərin müəllifi

"Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq, düşməni torpaqlarımızdan qova bilməyəcəyik," - möhtərəm Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev bu il ilk dəfə qeyd etdiyimiz Zəfər Günündə Şuşada hərbçilər qarşısında çıxış edərkən belə deyib. Cənab Prezidentin sərkərdəlik istedadı və qətiyyəti sayəsində ən müasir silah-sursatla təchiz edilmiş, şəxsi heyəti vətən uğrunda canından keçməyə hazır olan və bunu əməli olaraq sübuta yetirən ordumuzun Ermənistanın işğalçı və təcavüzkar qüvvələri üzərində parlaq qələbəsi dövrümüzün ən mühüm tarixi hadisəsi oldu.

Bu möhtəşəm Zəfərin müəllifi olan Prezident İlham Əliyevin "nəyi nə vaxt və necə etmək" intuisiyası onun xalqın arzu və istəklərinə, milli ideallara və potensiala, həmçinin müasir dünya siyasətinin trendlərinə dəqiq bələd olmasından, ətrafda baş verənləri özünün fenomenal analitik təfəkkürünün qüdrəti ilə dəqiq proqnozlaşdıraraq, ən düzgün qərar qəbul etməsindən irəli gəlir. Ötən il sentyabrın 27-də Ermənistanın işğalçı qüvvələri hərbçilərimizə və mülki əhaliyə qarşı növbəti təxribata əl atanda Ali Baş Komandan düşmənə əks-hücumla cavab vermək və ərazilərimizi işğaldan azad etmək barədə qəhrəman Azərbaycan Ordusuna qəti əmr verərək, döyüş əməliyyatlarına rəhbərliyi şəxsən öz üzərinə götürdü. Xalqımız və bütün dünyadakı azərbaycanlılar 44 gün Ali Baş Komandandan qələbə xəbərləri gözlədilər və bu xəbərləri sevinclə, qürurla qarşıladılar. Lider-xalq, xalq-ordu birliyi Zəfərə gedən yolun möhkəm zəmini oldu. Bu birlik Prezident İlham Əliyevə ümumxalq etimadın, onun qəbul etdiyi qərarlara inamın növbəti təzahürü idi.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi tarixi ədalətin bərpası - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi oldu. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək torpaqlarımızı işğaldan qurtardı. Azərbaycan xalqının apardığı 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələndi.

Azərbaycanın işğal olunmuş torpaqlarından erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxmasını tələb edən, ikili standartlar üzündən illərdən bəri kağız üzərində qalan BMT qətnamələrini Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu yerinə yetirdi. Bu Zəfər regionumuzda yeni reallıqlar yaratdı, həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcı oldu.

Qələbəni yaxınlaşdıran və mümkün edən amillər çoxdur: ilk növbədə, Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğundakı nailiyyətlərini, sosial-iqtisadi islahatlarını, neft strategiyasını, güclü ordu yaratmaq istiqamətində fəaliyyətini və təbii ki, tamamlaya bilmədiyi işləri başa çatdırmağa qadir lider yetişdirməsini və onun siyasi hakimiyyətə gəlişinə dəstək verməsini qeyd etmək lazımdır. Bu təməl üzərində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çoxşaxəli fəaliyyətinin nəticəsi olaraq Azərbaycanın bütün sahələrdə, xüsusən də iqtisadi, hərbi və beynəlxalq müstəvilərdə əldə etdiyi üstünlüklər Ermənistanın məğlubiyyətini qaçılmaz etdi. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun qələbəsi və 2019-cu ilin mayında uğurlu Naxçıvan əməliyyatı böyük zəfərə doğru yolda uğurlu hərbi əməliyyatların məşqləri idi. "XXI əsrin müharibəsi" - ən yeni və müasir hərbi texnologiyaların geniş tətbiqi ilə ordumuzun apardığı 44 günlük hərbi əməliyyatı belə səciyyələndirən dünyanın aparıcı dövlətləri Azərbaycanın Zəfər təcrübəsini öyrənməyə böyük maraq göstərirlər.

Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti ilə daim zənginləşən iqtisadi potensialın yönəldildiyi istiqamətlərdən biri də ölkənin müdafiə qüdrətinin artırılmasıdır. Onu da vurğulamaq lazımdır ki, Azərbaycanda müasir tələblərə cavab verən müdafiə və hərbi sənaye kompleksinin yaradılması təşəbbüsü də cənab İlham Əliyevə məxsusdur. Bu sahədə qazanılan nailiyyətlər 44 günlük Vətən müharibəsində ordumuzun silah-sursat sarıdan ən yüksək səviyyədə təchiz olunmasında əhəmiyyətli rol oynayıb. Azərbaycan hazırda özünün əsas ehtiyaclarını ödəyən və 30-dan çox ölkəyə məhsullarını ixrac edən hərbi sənaye kompleksinin davamlı inkişafına nail olub. Əgər 2003-2004-cü illərdə müdafiə xərclərinə dövlət büdcəsindən cəmi 0,9 milyard manat ayrılırdısa, 2020-ci ildə bu göstərici 3,9 milyard manata çatdırıldı. Gələn ilin dövlət büdcəsindən isə müdafiə və milli təhlükəsizlik məqsədlərinə 4,5 milyard manatdan çox vəsait yönəldiləcəkdir. Beynəlxalq reytinqlərə görə Azərbaycan Ordusu dünyanın 40 ən qüdrətli və döyüş qabiliyyətli ordusu sırasına daxildir.

ATƏT-in artıq fəaliyyətinə ehtiyac qalmayan Minsk qrupunun vasitəçiliyi ilə aparılan səmərəsiz danışıqlar prosesinin gedişində Prezident İlham Əliyev daim bütün dünyaya bəyan edirdi ki, xalqımız işğal faktı ilə qətiyyən barışmayacaq və biz nəyin bahasına olursa-olsun torpaqlarımızı işğaldan qurtaracağıq. Sözü də imzası qədər keçərli olan dövlət başçımız Vətən müharibəsi dövründə təkcə döyüş əməliyyatlarına rəhbərlik etmir, həm də informasiya cəbhəsində əsas yükü öz çiynində daşıyırdı. Həmin dövrdə dünyanın 30-a yaxın media qurumunun bəzi hallarda açıq ermənipərəst mövqe nümayiş etdirən əməkdaşlarının bütün suallarını özünəməxsus təmkin və əminliklə cavablandıran cənab Prezident bu gün də həmin missiyanı yerinə yetirir, müxtəlif mötəbər beynəlxalq tədbirlərin və görüşlərin iştirakçısı olarkən jurnalistlərə müsahibələr verir.

### Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev qətiyyətlə bəyan etdiyi "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" həqiqətini reallığa çevirdi, nəinki işğalçıların "bufer zona" kimi qələmə verdikləri yeddi rayon, özü də onların üçü bir güllə atılmadan işğaldan azad olundu, Hadrut və Şuşa da ətraf əraziləri ilə birlikdə düşməndən təmizləndi. Bu gün Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altındakı ərazilərdə yaşayan ermənilər isə gec-tez öz gələcək talelərini müəyyənləşdirməli olacaqlar.

Hazırda isə dövlətimizin başçısının və onun rəhbərliyi ilə hökumətimizin diqqəti işğaldan azad olunmuş ərazilərin dirçəldilməsinə, bərpa-quruculuq işlərinin sürətlə aparılmasına yönəlsə də, sosial-iqtisadi inkişaf tədbirləri, ümumiyyətlə, respublikanın hər yerində eyni templə davam etdirilir. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli Prezident fərmanı tarixi Zəfərdən sonra ölkəmizin həyatında başlayan yeni mərhələdə şəhər və rayonlarımızın davamlı və tarazlı inkişafını nəzərdə tutur. İqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən irimiqyaslı proqramların mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə icrasına, bölgənin çevik idarəetmə, yeni məskunlaşma və şəhərsalma strategiyasına uyğun inkişafına xidmət edir. Bu bölgü eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun inkişaf strategiyasını digər iqtisadi rayonlar ilə qarşılıqlı şəkildə uzlaşdırır.

Bu tarixi fərman özünün iqtisadi mənası ilə bərabər, böyük siyasi əhəmiyyətə də malikdir. Belə ki, hazırda ermənilərin yaşadıqları ərazilərin bilavasitə Azərbaycanın iqtisadi rayonları tərkibində təsbit edilməsi bədnam "status" nisgili ilə yaşayanlara siyasi-hüquqi cəhətdən sərt və qətiyyətli cavabdırsa, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması Azərbaycanın tarixi, əzəli torpağı olan Zəngəzur bölgəsinin vaxtilə Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsinə, böyük türk dünyasının coğrafi baxımdan parçalanmasına son qoymaq, tarixi ədaləti bərpa etmək addımı, "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də" deyən Prezident İlham Əliyevin yenilməz iradəsinin və qətiyyətinin ifadəsidir.

Təəssüf ki, Ermənistanın uzun müddət mina sahələrinin xəritəsini bizə verməkdən imtina etməsi, sonradan təqdim etdiklərinin isə dəqiqlik göstəricisinin 25 faiz həddində, bəzən ondan da az olması Qarabağda və Şərqi Zəngəzurda bərpa işlərini xeyli ləngidir. Bununla belə cənab Prezidentin təşəbbüsü və rəhbərliyi ilə həmin iqtisadi rayonlarda iri infrastruktur layihələrinin icrası davam etdirilir, ilk növbədə, yol-nəqliyyət, enerji, su təchizatı şəbəkələri qurulur, ekoloji terrorun nəticələri aradan qaldırılır, "Böyük qayıdış"ın reallaşdırılmasına hazırlıq görülür. Belə ki, bu ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, müasir infrastrukturların yaradılması məqsədilə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb, gələn ilin büdcəsində də həmin həcmdə vəsait nəzərdə tutulub.

Bu gün Azərbaycan təcrübəsində ərazilərin tammiqyaslı bərpasının nadir nümunəsi həyata keçirilir və bütün işlər Strateji Fəaliyyət Planına uyğun olaraq, vahid konsepsiya əsasında aparılır. Qardaş Türkiyə və digər dost dövlətlər Azərbaycana bərpa-quruculuq işlərində böyük dəstək verirlər. "Biz Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik" - cənab Prezidentin bəyan etdiyi məqsəd belədir. O, 1994-cü ilin "Əsrin müqaviləsi"ndən başlanan neft strategiyasının baş icraçısı olduğu kimi, bu gün də Qarabağ və Şərqi Zəngəzur torpaqlarında 2021-ci ildən başlanan "Əsrin tikintisi"nin baş icraçısıdır. Prezident İlham Əliyevin birinci xanım Mehriban xanımla və övladları ilə tez-tez Qarabağa, Şərqi Zəngəzura səfər edib, bərpa-quruculuq işləri ilə yerində tanış olması bu torpaqlara daimi sakinlərin, yurd həsrətinə son qoyulmuş həmvətənlərimizin tezliklə qayıdacaqlarını rəmzləşdirir.

Azərbaycan Prezidentinin bölgəmizdə dayanıqlı sülhün bərqərar edilməsi uğrunda apardığı gərgin mübarizə də dünyada rəğbətlə qarşılanır. Hərçənd hələ də Ermənistanda revanş arzusunda olanlar, xam xəyallarla yaşayanlar var. Dövlətimizin başçısının bu günlərdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammiti çərçivəsində Belçika Krallığının paytaxtı Brüsseldə keçirdiyi görüşlər onun sülh təşəbbüslərinin Avropa məkanında qəbul edildiyini, üstəlik, ermənilərin inzibati mövcudluğunu çoxdan itirmiş ərazinin "statusu" barədə ümidlərinin tamamilə puça çıxdığını bir daha təsdiqlədi.

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ömrünün ən gözəl çağında, möhtəşəm dövlətçilik fəaliyyətinin məhsuldar dövründədir. Xalqın qəhrəmanı olmaq və ata vəsiyyətini yerinə yetirmək, otuz ildən sonra Qarabağın, Şərqi Zəngəzurun günbəgün dirçəldiyini görmək onun taleyinə yazılmış çox böyük xoşbəxtlikdir. Dövlətimizin qüdrətli rəhbərinin, xalqımızın qəhrəman liderinin bundan sonra da Azərbaycanı yeni-yeni zəfərlərə çatdıracağına əminik.*

**Əli ƏSƏDOV,**
***Azərbaycan Respublikasının Baş naziri***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Zəfər və qüdrət zirvəsi

## Prezident İlham Əliyevin müdrik uzaqgörənliklə əsasını qoyduğu, daim ali diqqət və qayğısını göstərdiyi Fövqəladə Hallar Nazirliyinin dünyada ən yaxşı modellərindən biri məhz Azərbaycanda yaradılıb

Əvvəli 1-ci səh.

Ötən 18 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə əsrə bərabər inkişaf yolu keçən Azərbaycan dünyaya yeni inkişaf modelini təqdim edib. Qətiyyətlə həyata keçirilən uğurlu islahatlar, qlobal proqramlar ölkəmizin iqtisadi yüksəlişində, beynəlxalq müstəvidə siyasi dayaqlarımızın daha da möhkəmlənməsində, respublikamızın güclü, sabit, müasir, demokratik və multikultural bir dövlətə çevrilməsində əsaslı rol oynayıb. Sözlə əməlin vəhdətinə əsaslanan, yerləşdiyi bölgədə baş verən proseslərin gedişinə təsir göstərməyə qadir olan Azərbaycanın öz gücünə söykənən müstəqil siyasəti, siyasi və iqtisadi qüdrəti, strateji mövqeyi beynəlxalq şəraitdən asılı olmayaraq ölkəmizi sürətlə irəli aparır, dinamik və hərtərəfli inkişaf templəri qorunur.

Dünya müstəqil Azərbaycanın gücünü, qüdrətini Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin mahir sərkərdəlik bacarığı, qətiyyəti ilə müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan rəşadətli Ordumuzun 44 gün ərzində işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsində aydın gördü. Azərbaycanın böyük zəfəri ilə başa çatan Vətən müharibəsi misli görünməmiş, əzəmətli bir qəhrəmanlıq dastanı, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun təntənəsi oldu. "Qarabağ Azərbaycandır və nida" ifadəsi "Dəmir yumruq" əməliyyatında Böyük Qələbəmizin rəmzinə çevrildi. Azərbaycan dövləti uzun illər ərzində kağız üzərində qalan BMT-nin məlum 4 qətnaməsinin döyüş meydanında hərbi-siyasi yolla həllinə nail oldu, 44 gün ərzində əks-hücum əməliyyatları ilə Ermənistanı diz çökdürdü, təcavüzkar ölkə tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi.

Bu gün Azərbaycan həm də işğaldan azad edilmiş ərazilərdə sürətli bərpa, yenidənqurma və quruculuq işləri ilə dünyanı heyrətləndirir. Vətən müharibəsində hərbi gücünü dünyaya göstərən Azərbaycan bu gün işğaldan azad olunmuş ərazilərdə görülən möhtəşəm işlərlə iqtisadi qüdrətini nümayiş etdirir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birlikdə işğaldan azad edilmiş rayonlarımıza ardıcıl səfərləri Qarabağın dirçəlişini daha da sürətləndirib. Dövlət başçısının rəhbərliyi ilə düşməndən təmizlənmiş ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir, tarixinə, mədəni irsinə, ənənələrinə, dini mirasına qovuşur, bu torpaqlara həyat geri dönür.

Qeyd edilməlidir ki, yaradılmasından 16 il ötən Fövqəladə Hallar Nazirliyi geridə qalan illər ərzində nazirliyin formalaşdırılaraq fəaliyyətinin müasir standartlar səviyyəsində təşkili, strukturunun zamanın tələbinə uyğun təkmilləşdirilməsi, kadr hazırlığı və maddi-texniki bazasının daim möhkəmləndirilməsi istiqamətində hər zaman Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu çərçivədə əhalinin mülki müdafiəsinin, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin, xilasetmə və qəza-xilasetmə işlərinin təşkili, nüvə və radioloji fəaliyyətin tənzimlənməsi, ölkə ərazisində radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə və tikintidə təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələri yerinə yetirən bir neçə dövlət qurumunun Fövqəladə Hallar Nazirliyinin tabeliyində birləşdirilməsi əhalinin və ərazilərin fövqəladə hallardan daha etibarlı müdafiəsinin təmin olunması sahəsində mühüm rol oynadı. Nazirlik tərəfindən ötən dövr ərzində fəlakətlərin sistemli qaydada mərkəzləşdirilmiş idarə olunmasını təmin etmək üçün zəruri normativ hüquqi və maddi-texniki bazanın formalaşdırılması, müxtəlif funksiyaları həyata keçirən və əvvəllər kortəbii və əlaqəsiz fəaliyyət göstərmiş qurumlar arasında əlaqəli fəaliyyətin təşkil edilməsi istiqamətində zəruri işlər görüldü. Nazirliyin qurumlarının istifadəsi üçün yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir edildi, yeniləri tikilib istifadəyə verildi. Nazirliyin fəaliyyətində operativliyin artırılması məqsədilə zamanın çağırış və təhdidləri nəzərə alınaraq müvafiq struktur dəyişiklikləri edildi, regional mərkəzlərin fəaliyyəti təmin olundu. Bir sözlə, ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində Fövqəladə Hallar Nazirliyi maddi-texniki cəhətdən qısa bir müddətdə hərtərəfli şəkildə təmin edilmiş və qarşısına qoyulmuş məsuliyyətli vəzifələrin öhdəsindən uğurla gəlmək iqtidarında olan mobil bir quruma çevrildi.

Ölkədə fövqəladə hal riskinin daim nəzarətdə saxlanılması, bu riskin vaxtında qarşısının alınması istiqamətində nazirliyin aidiyyəti struktur bölmələri tərəfindən ölkə ərazisi üçün xarakterik olan təbii və texnogen mənşəli fövqəladə halların mütəmadi monitorinqi aparılır, mümkün fövqəladə hal riski mütəxəssislərimiz tərəfindən qiymətləndirilir və bunun nəticəsindən asılı olaraq zəruri qabaqlayıcı tədbirlər görülür. Yanğın təhlükəsizliyinə, tikintidə, sənayedə və dağ-mədən işlərində, nüvə və radioloji fəaliyyət sahələrində təhlükəsizliyə nəzarət kimi mühüm istiqamətlər üzrə dövlət başçısı tərəfindən qəbul olunmuş müdrik qərarların, imzalanmış fərman və sərəncamların icrası daim nəzarətdə saxlanılır, göstərilən sahələrdə aşkar edilən problem və çatışmazlıqların vaxtında, insan həyatı və sağlamlığına, əmlaka ziyan vurmadan aradan qaldırılması ilə bağlı mühüm qabaqlayıcı tədbirlər görülür.



Ötən illər ərzində nazirliyin fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cavabdeh olan qurumlarının fəaliyyətinin təkmilləşdirilməsinə, hadisələrə çevik və effektli reaksiya vermək imkanlarının artırılmasına xüsusi diqqət yetirilib. Bu məqsədlə yanğın-xilasetmə qurumlarının texnika parkı dünyanın aparıcı ölkələrinin istehsalı olan ən müasir texnika və avadanlıqlarla təchiz edilib, kadrların peşəkar hazırlıq səviyyəsinin daim yüksəldilməsi üçün onların təlim-tədrisinə, eləcə də mütəmadi olaraq təlimlərin təşkilinə geniş yer verilib. Məhz bunun nəticəsidir ki, nazirliyin geridə qoyduğumuz illər ərzində baş vermiş müxtəlif mürəkkəblik dərəcəsinə malik fövqəladə hallarla mübarizədən uğurla çıxdığını əminliklə deyə bilərik. Azərbaycan vətəndaşlarının təhlükəsiz həyat və fəaliyyətinin təmin olunmasını ali məqsədi hesab edən Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti dəfələrlə çətin sınaqların öhdəsindən layiqincə gəlib. Ötən illər ərzində yaşayış, sənaye və ictimai-iaşə sektorunda, o cümlədən iri ticarət mərkəzlərində, meşə və açıq sahələrdə baş vermiş yanğınlar, sel və daşqınlar, uçqun, dağıntı və sürüşmə hadisələri, müxtəlif vaxtlarda baş vermiş zəlzələlər, çoxsaylı qəza və digər fövqəladə hadisələr zamanı operativ və effektli müdaxilə tədbirləri ilə nazirliyin qəza-xilasetmə qurumları öz peşəkarlıqlarını nümayiş etdiriblər. Bunlardan xüsusilə Mingəçevir Su Elektrik Stansiyasının ərazisində baş vermiş torpaq sürüşməsi zamanı yaranmış təhlükənin operativ şəkildə aradan qaldırılması, Azərbaycan İstilik Elektrik Stansiyasının açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış zamanı yaranmış təhlükənin operativ şəkildə aradan qaldırılması, Bakı şəhərindəki Naxçıvani və Murtuza Muxtarov küçələrinin kəsişməsində tikilən 16 mərtəbəli yaşayış binasının uçması nəticəsində əmələ gəlmiş dağıntılar altından insanların xilas edilməsi, Neft Emalı Zavodunda yanğının söndürülməsi, Xəzər dənizində yerləşən "Bulla-dəniz" yatağında baş vermiş qəzanın aradan qaldırılması, Binəqədi rayonunda yerləşən çoxmərtəbəli yaşayış binasında, "Sədərək", "Diqlas", "EuroHome" ticarət mərkəzlərində, "Sobsan" boya fabrikində baş vermiş yanğınların söndürülməsi, "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş vermiş qəzanın və "Azneft" İstehsalat Birliyinin Neft yığım məntəqəsində baş vermiş hadisənin nəticələrinin aradan qaldırılması, meşə sahələrinin və zəmilərin yanğından qorunması, çoxsaylı digər belə əməliyyatlar zamanı Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələri uğurlu nəticələr ortaya qoyublar.

Bu çərçivədə Kür və Araz çaylarında 2010-cu ilin yaz aylarında yaşanmış daşqınlarla əlaqədar görülmüş işləri xüsusi qeyd etmək istəyirəm. Həmin günlərdə yaranmış təbii fəlakətin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq Fövqəladə Hallar Nazirliyinin bütün aidiyyəti qüvvələri səfərbər olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyev məhz belə ağır məqamda daim xalqla bir yerdə olduğunu, onun dərd-sərinin, problemlərinin həllini həmişə diqqətdə saxladığını bir daha təsdiq etdi. Həmin il mayın 7-də cənab Prezident keçirdiyi müşavirədə təbii fəlakətin qarşısının alınması, əhalinin təhlükəsiz yerlərə köçürülməsi, çayların kənarlarında bəndvurma işlərinin sürətləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verdi. Mayın 11-də hadisə rayonuna gələn dövlətimizin başçısı Şirvan şəhərində səyyar müşavirə keçirdi. Təbii fəlakətdən zərər çəkmiş insanlar üçün yaradılmış çadır düşərgəsində sakinlərlə görüşən dövlət başçısı tezliklə daşqının törətdiyi fəsadların aradan qaldırılması üçün mümkün tədbirlərin görüləcəyini, daşqından əziyyət çəkmiş əhaliyə dəyən ziyanın ödəniləcəyini və kompensasiyaların veriləcəyini bildirdi. Məhz cənab Prezident İlham Əliyevin hadisələri daim nəzarət altında saxlaması və müvafiq qurumlara verdiyi ciddi tapşırıqlar sayəsində təbii fəlakətin daha böyük miqyas almasının qarşısı alındı, ən əsası, insan itkisinə yol verilmədi. Belə ki, o günlərdə nazirliyin fəlakət zonasında olan 4000 nəfərlik şəxsi heyəti, 160 ədəd xüsusi texnikası, həmçinin 4 helikopteri, xeyli sayda xilasetmə qayığı fasiləsiz olaraq xilasetmə, bəndbərkitmə əməliyyatlarını uğurla yerinə yetirdi. Dövlət başçısının əlaqədar qurumlara qış gələnə qədər daşqına məruz qalmış rayonlarda yeni qəsəbələrin salınması, evlərini itirən insanların yeni mənzillərlə təmin olunması kimi mühüm tapşırığına çox qısa zamanda əməl olunması da qüdrətli Azərbaycan dövlətinin vətəndaşlara hərtərəfli münasibətinin bariz nümunəsidir. Daşqınlar həm də sadə bir həqiqəti ortaya çıxardı. Azərbaycan vətəndaşları bir daha gördü ki, heç bir bəlanın və fəlakətin qarşısında tək deyil. Fəlakət qarşısında vaxtında kömək əli uzadan dövləti var. Bu, 2003-cü ildə cənab İlham Əliyevin Prezident seçilərkən dediyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" sözünə sadiqliyinin daha bir nümunəsi idi.

2012-ci ilin may ayında Zaqatala, Balakən və Qax rayonlarında, 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələ nəticəsində adı çəkilən rayonlarda yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə ciddi ziyan dəysə də, xoşbəxtlikdən insan tələfatı və ya ciddi xəsarət alanlar olmadı. Baş vermiş zəlzələlərin fəsadlarının qısa müddətdə aradan qaldırılması üçün Prezident İlham Əliyevin müvafiq tapşırıqları ilə hadisə bölgəsinə səfərbər edilmiş nazirliyin qüvvələri tərəfindən hər cür təhlükəsizlik tədbirləri görüldü, rayonlara çoxlu sayda texnika və avadanlıq, ilkin həyat fəaliyyətinin təmin edilməsi məqsədilə çadırlar, ərzaq məhsulları və s., böyük miqdarda tikinti materialları çatdırıldı. Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi nəzarəti altında nazirlik tərəfindən zəlzələlərin ziyan vurduğu rayonlarda ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının, sosial təyinatlı və infrastruktur obyeklərinin tikintisi həyata keçirildi, əhali yeni, müasir evlərlə təmin edildi.

Bütün dünya ölkələrinin yeni növ koronavirus (COVID-19) pandemiyası ilə üzləşdiyi bir vaxtda Azərbaycanın bu bəlaya qarşı mübarizədə nümayiş etdirdiyi strateji mövqe, Prezident İlham Əliyevin liderlik əzmkarlığı dünyada ən yaxşı nümunələrdən biri kimi qəbul edilir. Vaxtında atılan cəsarətli və müdrik addımlar sayəsində Azərbaycan koronavirusa qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən ölkələr sırasında ön cərgədə qərar tutub. Bu çərçivədə Prezident İlham Əliyev tərəfindən ölkəmizdə koronavirus infeksiyasının yayılma təhlükəsinin qarşısının alınması ilə bağlı ilk günlərdən qarşımızda müvafiq tapşırıqlar qoyuldu. Bu tapşırıqlara uyğun olaraq, ilk növbədə, Fövqəladə Hallar Nazirliyi tərəfindən İran İslam Respublikası, Rusiya Federasiyası və Gürcüstanla sərhəd-keçid məntəqələrinin yaxınlığında qəbul-çeşidləmə məntəqələri yaradıldı, hər cür müasir tibbi avadanlıqlarla təchiz edilmiş FHN-in peşəkar tibbi briqadaları həmin məntəqələrdə fasiləsiz rejimdə fəaliyyət göstərərək ölkəyə daxil olan vətəndaşların müvafiq tibbi baxışdan keçirilməsini və şübhə aşkar olunduğu halda təcrid olunması üzrə zəruri tədbirlərin görülməsini təmin etdilər. Bundan başqa, karantin rejimi tədbirlərinin həyata keçirildiyi dövr üçün vətəndaşlarımıza təcili psixoloji yardımın göstərilməsi, əhali arasında maarifləndirmə işləri təşkil olundu, müvafiq obyektlərdə dezinfeksiya işlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanıldı.

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətəndaşların sağlamlığının qorunmasına və ölkənin səhiyyə sisteminin inkişafına göstərdiyi xüsusi diqqətin bir nümunəsi də qısa vaxtda ölkəmizdə modul tipli xəstəxanaların fəaliyyətə başlaması oldu. Bu cəhətdən Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının qısa müddətdə inşa edilərək xəstələrin ixtiyarına verilməsi dünyada COVID-19 infeksiyasının sürətlə yayılması fonunda bu xəstəliklə mübarizədə Azərbaycan dövlətinin qətiyyətini ortaya qoydu.

Dövlət başçısının yürütdüyü siyasi kursa uyğun olaraq, Fövqəladə Hallar Nazirliyi ötən illər ərzində müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını uğurla yerinə yetirib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2010-cu ildə Rusiya Federasiyasında, 2010-cu və 2016-cı illərdə İsrail Dövlətində, 2017-ci ildə Gürcüstanda baş vermiş meşə yanğınları, 2010-cu ildə Pakistan İslam Respublikasındakı daşqınlar, 2011-ci ildə Türkiyə Respublikasının Van vilayətində zəlzələ, 2012-ci ildə Rusiya Federasiyasının Krasnodar diyarında və Dağıstan Respublikasındakı daşqınlar, həmin il İran İslam Respublikasında baş vermiş zəlzələ, 2014-cü ildə Əfqanıstan İslam Respublikasının şimalında baş vermiş leysan yağışlarının törətdiyi fəsadların, həmçinin Serbiya Respublikası və Bosniya və Hersoqovinada daşqınların nəticələrinin aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən müvafiq kömək göstərilib. Həmçinin Azərbaycan Respublikasının Hökuməti səviyyəsində 2010-cu ildə Haitidə baş vermiş zəlzələnin, 2013-cü ildə Filippində baş vermiş qasırğanın fəsadlarının aradan qaldırılması məqsədilə və Somalidə aclıqdan əziyyət çəkən insanlar üçün maddi yardımlar edilib. Eyni zamanda 2013-cü ildə Misirdəki iğtişaşlarla əlaqədar burada yaşayan azərbaycanlıların, 2015-ci ildə Nepalda baş vermiş dağıdıcı zəlzələ nəticəsində fəlakət zonasında olan soydaşlarımızın və xarici ölkə vətəndaşlarının Fövqəladə Hallar Nazirliyinə məxsus təyyarə ilə təcili təxliyəsi həyata keçirilib. 2017-ci ildə Azərbaycan hökuməti adından Cibuti Respublikasına, həmçinin Myanmada Rohingya müsəlmanlarına qarşı davam edən kütləvi zorakılıq zəminində əziyyət çəkən insanlara kömək göstərmək məqsədilə humanitar yardımlar çatdırılıb, bu ilin iyul-avqust aylarında qardaş Türkiyə Respublikasında baş vermiş meşə yanğınlarının söndürülməsi məqsədilə nazirliyin müvafiq yanğın-xilasetmə qüvvələri səfərbər olunub.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistanla apardığı 44 günlük şanlı Vətən müharibəsi zamanı Fövqəladə Hallar Nazirliyinin qüvvə və vasitələri də digər aidiyyəti dövlət orqanları ilə birgə səfərbər olundu. Nazirliyin müvafiq qüvvələri tərəfindən əhalinin mülki müdafiəsinin təmin olunması istiqamətində zəruri tədbirlərin görülməsi, o cümlədən təcavüzkar Ermənistanın dinc sakinləri hədəfə almaqda davam etdiyi günlərdə əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanmış müxtəlif məzmunlu maarifləndirici çap materialları cəbhəyanı ərazilərdə və düşmənin hədəfinə çevrilmiş digər yaşayış məntəqələrinin əhalisi arasında paylanılaraq müvafiq maarifləndirmə işləri aparıldı. Nazirliyin yanğın-xilasetmə qüvvələri Ermənistan tərəfindən mülki obyektlərə, o cümlədən insanların sıx yaşadığı yaşayış məntəqələrimizə endirilən mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların çevik aradan qaldırılmasını, zərərçəkmişlərin xilas edilməsi və təxliyəsini həyata keçirdi. Nazirliyin təyyarə və helikopterləri vasitəsilə yaralı əsgər və zabitlərimizin təxliyəsi, bilavasitə döyüş bölgəsinə yaxın ərazilərdə insanların gündəlik təminatı həyata keçirildi. Bundan əlavə, həm müharibə günlərində, həm də müharibədən sonrakı dövrdə psixoloji dəstəyə ehtiyacı olan vətəndaşlarımıza yardım işi təşkil olundu. Bu məqsədlə Türkiyədən dəvət olunmuş psixoloqlarla birlikdə Vətən müharibəsi iştirakçılarına və onların ailə üzvlərinə psixoloji dəstək göstərildi, onların reabilitasiya prosesi təşkil olundu.

Şanlı Zəfərdən sonra cənab Prezidentin tapşırıqlarına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyin aidiyyəti üzrə təmin edilməsi, mümkün fövqəladə halların vaxtında xəbərdar edilməsi və nəticələrinin çevik aradan qaldırılması işinin təmin edilməsi məqsədilə nazirliyin müvafiq strukturlarının həmin ərazilərdə fəaliyyətinin təşkilinə başlanıldı. Qeyd edilməlidir ki, işğaldan azad edilən ərazilərimizdə FHN-in müvafiq qurumlarının qısa müddətdə fəaliyyətə başlaması fövqəladə halların effektli idarə edilməsi istiqamətində əhəmiyyətli rol oynayıb. Bu çərçivədə işğaldan azad olunmuş ərazilərdə böyük sürətlə icra olunan layihələr üzrə işlərdə aidiyyəti üzrə təhlükəsizliyin, o cümlədən yanğın təhlükəsizliyinin, tikintidə, sənaye və dağ-mədən işlərində təhlükəsizliyin təmin olunması istiqamətində müvafiq qurumlarımız tərəfindən intensiv iş aparılır.

Bundan əlavə, yerli strukturların fəaliyyətə başlaması həm də baş verən fövqəladə halların, o cümlədən açıq sahələrdə baş verən yanğınların qısa müddətdə qarşısının alınmasına imkan yaradıb. Məhz işin vaxtında və düzgün planlaşdırılması, qüvvə və vasitələrin effektli və çevik tətbiq edilməsi sayəsində baş verən yanğınların geniş əraziyə yayılmasına imkan verilməyib, qısa müddətdə söndürülməsi təmin olunub. Nəzərə alsaq ki, həmin ərazilərdə Ermənistan tərəfindən külli miqdarda minalar basdırılıb, bu işin nə qədər mürəkkəb və riskli olduğu tam aydın olar. Məhz mina təhlükəsi nəzərə alınaraq, yay aylarında açıq ərazilərdə baş vermiş yanğınlarla mübarizə tədbirlərinə helikopterlər fəal şəkildə cəlb edildi.

Bu ilin yanvar ayından başlayaraq, FHN-in müvafiq qüvvələri işğaldan azad olunmuş torpaqlarımızda minatəmizləmə əməliyyatlarında fəal iştirak edirlər. Bu işin sürətləndirilməsi məqsədilə nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin dislokasiya məntəqəsi Bərdə şəhərində olmaqla xüsusi təyinatlı mexanikləşdirilmiş alayı yaradılıb. Hazırda alayın ən müasir texnika və avandanlıqlarla komplektləşdirilməsi işləri sürətlə davam etdirilir.

Yola salınan illəri nəzərdən keçirəndə görmək çətin deyil ki, zaman etibarilə qısa müddətdə Azərbaycanda cəmiyyətin müxtəlif təhlükələrdən qorunma səviyyəsi nəzərəçarpacaq dərəcədə artıb. Çoxşaxəli fəaliyyət sahəsinə malik, insanların həyat təhlükəsizliyi və dövlətçilik baxımından kifayət qədər əhəmiyyətli sahələri əhatə edən Fövqəladə Hallar Nazirliyinin səlahiyyətinə aid edilən istiqamətlərdə beynəlxalq normalara uyğun iş prinsipinin təşkili, dünya dövlətlərinin uyğun qurumları və beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmləndirilməsi, kadr hazırlığı, müasir texnika və texnologiyaların tətbiqi sahəsində nail olduğumuz bütün uğurlar dövlətimizin başçısının müdrik rəhbərliyi altında Azərbaycanda yürüdülən təhlükəsizlik və mülki müdafiə siyasətinin təntənəsi, ölkə vətəndaşlarının təhlükəsiz yaşayışının, iş və istirahətinin təmin olunması deməkdir. Təsadüfi deyildir ki, cənab Prezident İlham Əliyevin müdrik uzaqgörənliklə əsasını qoyduğu, daim ali diqqət və qayğısını göstərdiyi Fövqəladə Hallar Nazirliyinin dünyada ən yaxşı modellərindən biri məhz Azərbaycanda yaradılıb.

*Zaman baxımından heç də böyük olmayan ötən 16 il ərzində qazandığımız hər bir uğurun, əldə etdiyimiz hər bir sevindirici nəticənin əsasında Azəbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin şəxsi heyətinə göstərdiyi xüsusi diqqət və qayğı dayanıb. Fövqəladə Hallar Nazirliyinin kollektivi bu yüksək qayğıdan ruhlanaraq əhalinin və ərazilərin, eləcə də respublikamızın yeraltı və yerüstü sərvətlərinin təbii və texnogen xarakterli fövqəladə hallardan etibarlı qorumağa hər an hazırdır. Bütün bunlar isə fövqəladə hallara qarşı hazırolmanın və çevik reaksiya verilməsinin nəticəsi, sistemin qısa müddətdə formalaşdırılması kimi qiymətləndirilə bilər.*

**Kəmaləddin HEYDƏROV,**
***Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# Daim xalqla birlikdə

**Dövlətlərin və xalqların tarixinin yazılmasından başlamış dünya birliyində özünə layiqli yer tutmasının və tanınmasının zamanın süzgəcindən keçərək özünü doğruldan aydın şərtləri var.**

Tarix həmin şərtləri dönə-dönə sübut edərək göstərir ki, dövlətlərin və xalqların inkişafı, yüksəlişi üçün onun malik olduğu maddi və mənəvi zənginliklər vacib olsa da, yetərli sayıla bilməz. Bu baxımdan onların taleyində lider amilinin bütün şərtlərin fövqündə dayanması ən mühüm siyasi reallıqdır.

## Azərbaycan cəmiyyətinin böyük rəğbət və etimad göstərdiyi lider

Böyük şəxsiyyətlərin, müdrik rəhbərlərin dövlətlərin taleyindəki rolu barədə tarixdən çox misallar gətirmək olar. İstənilən dövlətin tarixinə nəzər salsaq, onun həm yaranmasında və formalaşmasında, həm də inkişafında lider amilinin nə qədər böyük rol oynadığını görərik. Çox tarixi ənginliklərə getmədən Türkiyədə Atatürkün, Böyük Britaniyada Uinston Çörçilin, Fransada Şarl de Qollun fəaliyyəti göstərir ki, dövlətin dövlət olması, dünya səhnəsinə çıxması, müasir sivilizasiyanın parametrlərinə cavab verə bilməsi dövlət idarəçiliyini yüksək bacarıq və təşkilatçılıq qabiliyyəti ilə tənzimləyən fenomen şəxsiyyətlərdən asılıdır. XX əsr Azərbaycan tarixi isə Heydər Əliyevin timsalında hələ ötən əsrin 70-80-ci illərindən lider amilinin dövlətin və xalqın tarixində, onun gələcəyinin formalaşmasında, inkişafında, beynəlxalq aləmdə özünü təsdiq etməsində ən vacib faktor olduğunu təsdiq edir. Heydər Əliyev kimi dahilər öz mübarizələri ilə dövlətin qürurdoğuran tarixinin möhkəm təməlini yaratmaqla bərabər, həm də inkişaf salnaməsinin müəllifinə çevrilirlər.

Ulu Öndər Heydər Əliyev yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməyib, bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirib. Ölkəmzin strateji inkişaf kursunu yeni dövrün tələblərinə uyğun şəkildə, yüksək dinamizmlə həyata keçirən Prezident İlham Əliyev fəaliyyəti və verdiyi vədləri əməli işi ilə doğrultmaqla Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi davamçısı olduğunu sübuta yetirib, milli ideyalara sadiqliyin mükəmməl nümunəsini yaradıb.

2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab İlham Əliyev ötən 18 ildə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən 18 ilin reallıqları Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir. Geridə qoyduğumuz hər bir ilin yekunları təsdiq edir ki, Prezident İlham Əliyev Ulu Öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.

Bir məsələni də xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin ən layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən İlham Əliyev qısa bir zaman ərzində geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən liderə çevrilib. Fəaliyyət göstərdiyi bütün sahələrdə qazanılmış nailiyyətlər onun siyasi prioritetinə yeni ştrixlər əlavə edib. Təsadüfi deyil ki, bu gün İlham Əliyevin adı dünyanın aparıcı dövlətlərinin rəhbərləri ilə bir sırada çəkilir. Dünyanın siyasi xəritəsində və beynəlxalq münasibətlər sistemində yeri olan aparıcı dövlətlərin rəhbərləri Azərbaycana və onun Prezidentinə dərin rəğbət və böyük ehtiramla yanaşırlar.

## Tariximizə qızıl hərflərlə yazılan uğurların müəllifi

Yüksək beynəlxalq imic, kosmik klubun üzvü, regionun lideri, beynəlxalq miqyasda dünyada söz sahibi və dayanıqlı inkişaf... Bütün bunlar müasir müstəqil Azərbaycan dövlətini xarakterizə edən nailiyyətlərin yalnız bir qismidir. Ötən ilin Vətən müharibəsində isə titulların sırasına biri də əlavə olundu: qalib dövlət. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin müəyyən etdiyi və ötən 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə getdiyimiz yol, qazandığımız hər bir nailiyyət təsdiq edir ki, bu siyasətin alternativi yoxdur.

18 il bir dövlətin tarixi baxımından uzun zaman kəsiyi sayıla bilməz. Lakin bu dövrdə Azərbaycanın yüksəlişi, əldə olunan möhtəşəm iqtisadi nailiyyətlər, ölkənin beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi hər birimizi dərindən qürurlandırır. Bunların hamısı ilk növbədə onu təsdiq edir ki, müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

Cəmi iki ay əvvəl müstəqilliyinin bərpasının üçüncü onilliyini geridə qoyan respublikamızın qısa zaman kəsiyində böyük tərəqqi yolu keçməsi ən böyük uğurlarımızdan biridir. Bir vaxtlar burulğanlardan keçən, hətta müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan Azərbaycan indi siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf etməkdə olan, bölgənin əsas iqtisadi potensialına sahib qüdrətli dövləti məhz Azərbaycandır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev isə çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifinə çevrilib.

Cənab İlham Əliyevin rəhbərliyi ilə bu illər ərzində qazanılan uğurların bir qisminə nəzər salaq: 18 ildə Azərbaycan iqtisadiyyatı təxminən 3, sənaye məhsulları istehsalı 2,7, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə artıb, valyuta ehtiyatlarımız 50 milyard dolları ötüb. Bu illər ərzində hazırda Azərbaycanın iqtisadi inkişafına əvəzsiz töhfələr verən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib, Bakı-Tbilisi-Qars dəmir yolu inşa olunub, "Cənub qaz dəhlizi" reallığa çevrilib, Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanı fəaliyyətə başlayıb. Bu dövrdə respublikamızda 6-sı beynəlxalq olmaqla 7 aeroport tikilib, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib, orbitə 3 peyk çıxarılıb, yeni elektrik stansiyalarının inşası nəticəsində 3 min meqavatdan artıq yeni generasiya gücü yaradılıb, ölkə üzrə qazlaşdırmanın səviyyəsi 96,3 faizə çatıb, 17 min kilometrə yaxın avtomobil yolu tikilib və ya yenidən qurulub.

Azərbaycan üçün xarakterik olan beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamasıdır. Bunun da əsas səbəblərindən biri dövlət proqramlarının icrası nəticəsində yaradılmış iqtisadi potensialdır. Beynəlxalq iqtisadi geriləmənin yaşandığı və sınaq dövrü olan illərdə də Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

## Şəffaf idarəçilik, xalqa verilən hesabatlar

Əlbəttə, hər bir uğur Prezident İlham Əliyvevin siyasi kursunun təntənəsi olmaqla yanaşı, həm də dövlətimizin başçısının liderlik keyfiyyətlərinin nəticəsi kimi nəzərdən keçirilir. Eyni zamanda Azərbaycanın yüksəlişi, xüsusən iqtisadi inkişafı barədə danışarkən əsasən ənənəvi amillərə üstünlük verilir. Bunlar ölkə rəhbərliyinin yürütdüyü düşünülmüş və elmi əsaslara söykənən inkişaf strategiyası, həyata keçirilən islahatların uğurlu nəticə verməsi, dövrün çağırış və tələblərindən irəli gələrək islahatların davamlı olması, iqtisadi potensialın hərəkətə gətirilməsi, regionların tarazlı inkişafının təmin edilməsi, sənayeləşmə siyasəti, neft gəlirlərindən səmərəli istifadə olunması, xüsusən bu gəlirlərin qeyri-neft sektoruna və insan kapitalına yönəldilməsi və s.-dir.

Bu yerdə inkişafın daha bir ciddi amilinə xüsusi diqqət yetirməliyik. Bu, Azərbaycan cəmiyyətindəki bərqərar olunan konsensus və həmrəylik, ölkə ictimaiyyətinin Prezident İlham Əliyevin ətrafında sıx həmrəyliyidir. Bütün bunların təmin olunmasında isə Prezident İlham Əliyevin vətəndaşlarla ünsiyyətləri, ictimaiyyət nümayəndələri ilə ünsiyyəti, keçirdiyi görüşlər əvəzsiz rol oynayır.

Məlum həqiqətdir ki, politoloji nəzəriyyələrə əsasən siyasi uğur və nailiyyətləri şərtləndirən mühüm amillərdən biri sosial məsuliyyət prinsipidir. Hakimiyyət cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirəndə xalqa layiqli xidmət məramını əsas tutmaqda, ölkənin bütün resurslarını strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edə bilir. Bu baxımdan səmərəli və şəffaf idarəçiliyi hökumətin mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik konsepsiyasında da bu prinsip daim önə çəkilir.

Hələ 2003-cü ildə hökumətin Prezident kimi keçirdiyi ilk iclasında çıxışı zamanı "Biz xalqın xidmətçisiyik" deyən cənab İlham Əliyev ötən 18 ildən artıq müddətdə ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər və həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır. Bu cür hesabatlar, hər rüb və il üzrə əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması həmin problemlərin həlli yollarının tapılması baxımından səmərəli vasitəyə çevrilmişdir. Səmərəli, məqsədyönlü və praqmatik idarəetmənin bariz təcəssümü kimi Prezident İlham Əliyev xalq qarşısına daim yeni uğurlarla, inkişafı stimullaşdıran perspektivli layihələrlə çıxır. Dövrün tələblərinə uyğun formalaşdırılmış bu idarəetmə sistemi respublikanın tərəqqisinə, sabitliyə, vətəndaş sülhünə yönəlmiş mühüm qərarlara, habelə bu qərarların icrasına xalqla birgə nəzarət formuluna əsaslanır.

Bu baxımdan İlham Əliyevin fəaliyyətində diqqətəlayiq ən üstün cəhətlərdən biri onun siyasi hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirməsi, hökumətin fəaliyyəti ilə bağlı cəmiyyətə müntəzəm hesabatların verilməsini idarəçilikdə demokratik ənənələrdən biri kimi formalaşdırmasıdır. Bu cür hesabatlar həm də konkret dövr ərzində qazanılmış nailiyyətlərin qiymətləndirilməsi, əldə edilmiş uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, gündəmdəki məsələlər və problemlər ətrafında müzakirələrin aparılması və onların həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilib.

## Vətəndaşlarla ünsiyyət inkişafın əsas şərtlərindən biri kimi özünü göstərir

Əlbəttə ki, inkişafın təməlində dayanan əsas şərtlərdin biri cəmiyyətimizdəki konsensusdur. Bu konsensusun təmin olunmasında isə siyasi-iqtisadi amillərlə yanaşı, Prezident İlham Əliyevin vətəndaşlarla görüşləri və vətəndaş müraciətlərinə çevik reaksiyası əsas rolu oynayır. Müxtəlif tədbirlər çərçivəsində, bayramlarda, rayonlara səfərlər zamanı əhali ilə birbaşa təmasda olan Prezident cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirərək qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görür. Məsələyə bu prizmadan yanaşsaq görərik ki, dövlət başçısının fəaliyyətinin ən mühüm tərəflərindən biri vətəndaşlarla təmaslara, ünsiyyətlərə, söhbətlərə vaxt ayırması, belə görüşləri fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevirməsidir.

Ümumiyyətlə, ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, doğulduğumuz gündən etibarən daim ünsiyyətdəyik. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühitin oynadığı rol olduqca böyükdür. Ünsiyyətsiz cəmiyyət mövcud olmadığı kimi, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək mümkün deyil. Ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, doğulduğumuz gündən etibarən daim ünsiyyətdəyik. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühitin oynadığı rol olduqca böyükdür. Ünsiyyətsiz cəmiyyət mövcud olmadığı kimi, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək qeyri-mümkündür.

Xatırladım ki, Ümummilli Lider Heydər Əliyevin hələ sovet dövründə idarəçilikdə təməlini qoyduğu mütərəqqi ənənələrdən biri də məhz xalq arasına çıxmaqla, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənmək olmuşdu. Heydər Əliyev hələ o dövrdən insanlarla ünsiyyətdə olmağı, onların üzləşdiyi çətinlikləri yerindəcə öyrənib təxirəsalınmaz tədbirlər həyata keçirməyi idarəçilikdə müsbət ənənə kimi yaratmışdı.

Hazırda bu xətti cənab İlham Əliyev öz fəaliyyətində layiqincə və uğurla tətbiq edir. Prezident İlham Əliyevin fəaliyyətində - istər vətəndaşlarla görüşlərində, istər ölkənin regionlarına səfər proqramlarında əsas yeri məhz sakinlərlə görüşlər təşkil edir. Bu səfərlər zamanı müxtəlif obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak etməklə yanaşı, dövlət başçısının ictimaiyyət nümayəndələri ilə ünsiyyəti, onlarla görüşdə göstərdiyi səmimiyyət diqqətdən kənarda qala bilməz. Rəsmiyyətçilik baryerlərini aşaraq son dərəcə səmimiyyət fonunda keçən bu görüşlər cənab Prezidentin vətəndaşlara olan həssas münasibətini nümayiş etdirib.

Azərbaycanda sosial-iqtisadi məsələlərlə bağlı həyata keçirilən dövlət siyasətinin ayrı-ayrı istiqamətləri də məhz Prezident İlham Əliyevin regionlara səfərləri və burada vətəndaşlarla görüşləri zamanı formalaşıb. Bu görüşlər dövlət siyasətinin daha da təkmilləşməsi üçün yeni imkanlar açıb. Məsələn, Prezident İlham Əliyev bölgələrə ardıcıl səfərləri və hər səfərindən, vətəndaşlarla ünsiyyətindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə yeni tədbirlər planını təsdiqləyir, Prezidentin Ehtiyat Fondundan bu məqsədlə əlavə vəsaitlər ayrılır. Bu isə öz növbəsində həm ölkənin hərtərəfli inkişafına, həm də cəmiyyətimizdəki konsensusun daha da möhkəmləndirilməsini təmin edən vacib amil kimi özünü göstərir.

Prezident İlham Əliyevin regionlara səfərləri şəhər və rayonlarda təkcə sosial-iqtisadi inkişafın yeni mərhələsinin başlanğıcı olmayıb, eyni zamanda sadə insanların həyatında dərin və silinməz iz buraxır. Cənab İlham Əliyevin kütlələrlə ən qısa ünsiyyəti belə onun əksər siyasi keyfiyyətlərini parlaqlığı ilə əks etdirir. Danışıq tərzi, nitqindəki rəvanlıq, məntiqi ardıcıllıq, soyuqqanlı reaksiya, təmkin, psixoloji sabitlik Azərbaycan Prezidentinin siyasi portretinin aydın cizgiləridir.

Vətəndaşların dövlət strukturlarına olan müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulması da olduqca vacibdir. Xüsusən söhbət sosial dövlətdən və ədalətli cəmiyyətdən gedirsə, burada vətəndaş müraciətlərinə diqqətlə yanaşılmalıdır. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır. Prezidentin tapşırığı ilə 2013-cü ilin aprel ayından başlayaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşların qəbullarının həyata keçirilməsi işi də insanları narahat edən məsələlərin aradan qaldırılmasına mühüm töhfə olmaqla bərabər, vətəndaşlarla ünsiyyətin bir formasıdır. Şübhəsiz, Prezidentin daim xalqla bir yerdə olması, xalqın maraqlarını ifadə etməsi, verilən tapşırıqların icrası ilə yerində maraqlanması, ölkə rəhbərinin tapşırığı ilə mərkəzi hakimiyyət qurumları başçılarının regionlarda mütəmadi keçirdikləri görüşlər xalqın dövlət institutlarına etimadını daha da yüksəldir. Odur ki, xalq-iqtidar birliyi bizim inkişafımızı getdikcə sürətləndirir, vətənimizin iqtisadi qüdrətinin artması, sosial rifahımızın daha da yüksəlməsi üçün ciddi əsaslar yaradır.

## Prezident problemləri vətəndaşların öz dilindən eşitməyə üstünlük verir

Hər bir cəmiyyətin inkişafına və həm də sosial həmrəyliyinə yol açan əsas şərtlərdən biri insanların qayğılarına, onları narahat edən məsələlərə diqqətlə yanaşılmasıdır. Bu baxımdan Prezident İlham Əliyevin fəaliyyətində diqqəti çəkən məqamlardan biri də mövcud problemləri birbaşa vətəndaşların öz dilindən eşitməyə və onların arzu və istəkləri əsasında həll etməyə üstünlük verməsidir. Dövlət başçısı müxtəlif tədbirlər çərçivəsində vətəndaşlarla görüşlər zamanı onların qayğıları ilə də maraqlanır və onların həlli istiqamətində çevik qərarlar qəbul edir. Bu, ilk növbədə, xalqa olan hörmətin sübutudur. Cənab İlham Əliyevin ictimaiyyət arasına çıxaraq, birbaşa onların qayğıları ilə maraqlanması həm də sarsılmaz xalq-Prezident münasibətlərinin təcəssümüdür.

Elə buna görə də Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin simasında özlərinin ən yaxın hamilərini, güvənc yerlərini görür və bununla da fəxr edirlər. Özünəməxsus təmkin və sadəliklə onların problemlərini dinləyən və həlli üçün qəti tapşırıqlar verən dövlət başçısının bu addımları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və bu, xalqın öz Prezidentinə olan inamını, etimadını daha da artırıb.

Müxtəlif yerli və xarici təşkilatlar tərəfindən keçirilən sosioloji sorğularda Prezident İlham Əliyevin reytinqinin artmasının səbəblərindən biri də budur. Prezidentin rayon ictimaiyyəti ilə mehriban görüşlərinin, səmimi söhbətlərinin ictimaiyyət tərəfindən necə rəğbətlə, yüksək əhvali-ruhiyyə ilə qarşılandığı sakinlərin fikirlərindən də aydın görünür. Bu səmimiyyət bir daha belə bir reallığa işıq salır ki, İlham Əliyev hər kəsin Prezidentidir, xalqa xidmət missiyasını yüksək səviyyədə, layiqincə yerinə yetirməklə daim çıxışlarında qarşıya qoyduğu bu tapşırığın - *"Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir"* - real həyatda ifadəsidir.

Prezident İlham Əliyev həssas əhali təbəqəsinə, şəhid ailələrinə davamlı qayğını bütün cəmiyyətin işinə çevirib. Prezident şəhid ailələrinə mənzillərin, maşınların açarlarını şəxsən özü təqdim edir, bu qayğını özünə təkcə vəzifə borcu yox, həm də şərəf sayır. Bu ünsiyyət insanları sevindirir, ürəkləndirir, sabaha inamını artırır və həm də düşündürür. Çünki bu münasibət son dərəcə səmimidir və ürəkdən gəlir. Məsələn, dövlət başçısı öz ad günlərində hər zaman xalqın arasında olur. "Mən demək istəyirəm ki, adətən öz ad günlərimi qeyd etmirəm. Ancaq bu il belə qərara gəldim ki, öz ailəmlə bunu qeyd edim və bu gün mən öz ailəmlə birlikdəyəm, mənim ailəm sizsiniz", - deyə Prezident İlham Əliyev 2011-ci ildə Ağcabədidə məcburi köçkünlərlə görüşdə bildirmişdi.

2016-cı ilin aprelində Ermənistan cəbhə xəttində təxribat törədəndə və nəticədə insanlar ev-eşiklərindən olanda yenə də onların harayına ilk çatan Prezident İlham Əliyev oldu. Onun dərhal təmas xəttinə gəlişi düşmənlə üzüzə dəyanətlə dayanan insanlara inanılmaz ruh vermişdi. Bu həm də xalqın liderinin qətiyyət və mərdliyinin, xalqla bir olmasının gözəl örnəyi idi.

İnsan amilinin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində dayanmasını kifayət qədər faktlarla göstərmək olar. Bu sırada xüsusən əvvəldən proqnozlaşdırılması mümkün olmayan təbiət hadisələri zamanı və digər ekstremal situasiyalarda dövlətin çevik reaksiyası xüsusilə qeyd olunmalıdır. 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə bağlı ilk gündən həyata keçirilən təxirəsalınmaz tədbirlər də göstərdi ki, insan amili hər zaman prioritetdir.

*(Ardı var)*

**Ziyad SƏMƏDZADƏ,**
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

# Dünyanın ehtiram göstərdiyi lider

Təcrübə göstərir ki, hər bir siyasi və iqtisadi prosesin uğurlu nəticəsi ilk növbədə dövlətə rəhbərlik edən şəxsin qətiyyəti, iradəsi və mövqeyi ilə təmin olunur. Tarixin sınaqlarından çıxmış bu formul hazırda Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın nail olduğu tarixi və möhtəşəm uğurların timsalında öz təsdiqini tapmaqdadır.

Cənab Prezident İlham Əliyev o liderlərdəndir ki, öz müdrikliyi, atdığı addımlar və tarixi proseslərin gedişatını milli mənafelər üçün nizamlamağı bacarmaqla dövlətinin və xalqının şərəf salnaməsinin müəllifinə çevrilir. Bu baxımdan Ulu Öndər Heydər Əliyev yolunun ən layiqli siyasi davamçısı kimi Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi ötən 18 ildə Azərbaycanın nail olduğu hər bir uğur və hər bir inkişaf nümunəsi müasir müstəqillik tariximizin möhtəşəm hadisələridir. Ötən 18 ildə Azərbaycan olduqca böyük və tarixi keyfiyyət dəyişiklikləri yaşayıb. Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafına nail olmaqla Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan nailiyyətlərin banisinə çevrilib. 18 ildə bütün Azərbaycan yenidən qurulub və bunu Milli Məclisdə təmsil etdiyim İsmayıllı rayonunun timsalında da aydın görmək mümkündür.

Azərbaycanın hər bir uğuru ölkə vətəndaşlarının öz rəhbərinə olan inamını daha da gücləndirib.Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə əlamətdar olub. İnkişaf proseslərinin davamlı olmasını arzulayan vətəndaşlar hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu, Azərbaycanda cəmiyyətin mövcud siyasi kursa rəğbətinin və inamının real təsdiqi olmaqla bərabər, milyonların arzusunu, istəyini özündə ehtiva edib.

Fəxarət doğuran digər məqam isə Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə də Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır. Bir neçə gün əvvəl Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və NATO-nun Baş katibi Yens Stoltenberq tərəfindən yüksək ehtiramla qarşılanması da bir daha bunları təsdiq etdi. Brüsseldə keçirdiyi görüşlərin hər biri Prezident İlham Əliyevin qlobal miqyasda yüksək imicə malik siyasi lider, Azərbaycanın isə uğurları qlobal miqyasda qəbul edilən ölkə olduğunu növbəti dəfə nümayiş etdirdi.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin zirvə nöqtəsi isə əlbəttə ki, ötən ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi oldu. Xalqımızın intizarında olduğu bu tarixi reallığın müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Cənab İlham Əliyevin həyata keçirdiyi kompleks inkişaf siyasəti, respublikamızın yüksəlişi torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasını və Ermənistan üzərində hərbi qələbəni təmin etdi. Torpaqlarımızın azad edilməsi ilə cənab İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm və tarixi vəzifəni şərəflə yerinə yetirdi.

Bu ilin noyabrında Soçidə, dekabrında isə Brüsseldə keçirilən görüşlər göstərdi ki, cənab İlham Əliyev Vətən müharibəsində qazanılan qələbəni indi siyasi-diplomatik sferada qətiyyətlə davam etdirir. Bu görüşlərin heç birində "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə edilmədi, Minsk qrupunun adı belə çəkilmədi. Bu da bir daha təsdiq edir ki, həm Rusiya, həm Avropa İttifaqı Prezident İlham Əliyevin yaratdığı yeni reallıqları tam bölüşür.

Məramında humanizm, xeyriyyəçilik və insanlara kömək etmək kimi ülvi prinsiplər dayanan və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ölkəmizdə yeganə təmsilçisi olan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də yüksəlişi, respublikamızın aparıcı qeyri-hökumət təşkilatlarından birinə çevrilməsi Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. Xüsusilə qeyd etmək istərdim ki, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda verdiyi qərarlardan biri "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 31 yanvar 2004-cü il tarixli sərəncam olub.

2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanunun qəbulundan sonra AzQAC həm də Azərbaycanda xüsusi statuslu təşkilata çevrilib. Bu qanunun qəbulu da məhz Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində mümkün oldu. Hazırda bu qanun dünyada nümunə kimi istifadə edilir. Cənab İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən isə hər il martın 10-u Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunur. Cəmiyyətin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, üzvlərinin orden və "Tərəqqi" medalı ilə təltif olunması fəaliyyətimizə verilən ali dəyər olmaqla bizlərə humanizm və xeyriyyəçilik kimi müqqəddəs missiyamızı daha inamla həyata keçirməyimizə yüksək stimul verib.

Bütövlükdə, 2004-cü ildən bəri Azərbaycan Prezidenti AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı 12 sərəncam imzalayıb ki, bu da fəaliyyətimizə diqqət və qayğının yüksək göstəricisi olmaqla, bizi işimizdə daha məsuliyyətli olmağa, ölkəmizə layiqincə xidmət göstərməyə sövq edir. "Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir" deyən Prezident İlham Əliyevin AzQAC-ın fəxri üzvü olması bu qurumun dəyərini, xüsusi çəkisini artırıb.

Onu da qeyd edim ki, Prezident İlham Əliyevin dövlətimizə layiqli və uğurlu rəhbərliyi yaradıcı fəaliyyətimdə də öz əksini tapır. Bu günlərdə deputat həmkarım Eldar Quliyevin sözlərinə bəstələdiyim mahnı əsasında hazırlanan musiqi layihəsi də bu qəbildəndir. İnanıram ki, bu mahnı xalqımız tərəfindən rəğbətlə qarşılanacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nailiyyətləri dövlətin və xalqın taleyində əsl liderlərin müstəsna rolunu aydın təsəvvür etməyə imkan verir. Qarşıda İlham Əliyevin rəhbərliyi ilə dövlətimizi daha böyük nailiyyətlər və möhtəşəm inkişaf nümunələri gözləyir. Bu yolda cənab İlham Əliyevə uğurlar arzu edirik və hər birimiz əminik ki, müdrik, qətiyyətli və uzaqgörən siyasət dövlətimizin sürətli yüksəlişini bundan sonra da layiqincə təmin edəcək.

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Möhtəşəm qələbələrin memarı

*Əvvəli 1-ci səh.*

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının ən layiqli davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev ötən il qazandığımız tarixi Zəfərdən sonra da yeni dünya nizamının çağırışlarına cavab verən daxili və xarici siyasət yürüdərək respublikamızın beynəlxalq arenada siyasi nüfuz və iqtisadi gücünün artmasına nail olmuşdur.

Müasir dövrdə dövlət hakimiyyətinin möhkəmliyi həm də iqtidarın cəmiyyətin müxtəlif təbəqələrinin mənafelərini müdafiə etmək, ictimai qüvvələrin tarazlığını qoruyub saxlamaq, cəmiyyətə xas mülki, demokratik, özünüidarə meyillərinin mütərəqqi inkişafını təmin etmək qabiliyyəti ilə müəyyən olunur. Bu mənada, iqtisadi liberallaşma və biznes mühitinin yaxşılaşdırılmasına xidmət edən davamlı islahatlarla yanaşı, ölkədə demokratik təsisatların rolunun yüksəldilməsi, insan hüquqlarının müdafiəsi sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar beynəlxalq səviyyədə yüksək qiymət alır.

Azərbaycan Prezidenti İlham Əliyev ötən 18 ildə hökumətin fəaliyyətini özünəməxsus tələbkarlıqla saat mexanizmi kimi qurmuş və cilalamışdır. İdarəçilik sistemində özünü göstərən cüzi qüsurların belə aradan qaldırılması üçün ardıcıl kadr və struktur islahatları həyata keçirmiş, xalqa layiqli xidmət məramını vəzifədə irəli çəkdiyi kadrlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırmışdır. İdarəçiliyin təkmilləşdirilməsi prosesini diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin yaradılmasını vacib sanmışdır. 2018-cü ilin 11 aprelində keçirilmiş prezident seçkilərindən sonra Nazirlər Kabinetinin formalaşdırılmış yeni tərkibi fonunda bunu əminliklə söyləmək mümkündür.

Dövlət başçısının iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində korrupsiya və digər neqativ hallarla mübarizədə siyasi iradə nümayiş etdirməsi, dövlət məmurları qarşısında sərt tələblər müəyyənləşdirməsi həm də praktik addımlarla müşayiət olunur. Dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin genişləndirilməsi, vətəndaş məmnunluğu ideyasını praktik surətdə rellaşdıraraq Azərbaycan brendinə çevrilmiş "ASAN xidmət", "ASAN Kommunal", "DOST" kimi mərkəzlərin uğurlu fəaliyyəti cəmiyyətdə şəffaflıq və hesabatlılığı gücləndirməklə yanaşı, ümumilikdə ictimai şüurda inqilabi dəyişikliklərə yol açmışdır.

Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə zəruri infrastrukturun yaradılması indi ən müxtəlif istiqamətləri əhatə edir. Bu yerlər üçün hazırlanan və artıq bəzilərinin, konkret halda Ağdamın təqdimatı olan baş planından belə bəlli olur ki, azad olunmuş ərazilərdə ən müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzində saxlanılır.

Azərbaycanda modern idman infrastrukturunun yaradılması istiqamətində çoxsaylı vacib layihələr həyata keçirilib və hazırda bu proses böyük bir vüsətlə davam edir. Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvlərindən olan Azərbaycanda onlarca olimpiya-idman kompleksləri inşa olunub, digər idman obyektlərində əsaslı yenidənqurma işləri aparılıb. Bunun nəticəsidir ki, Azərbaycanın idman infrastrukturu ölkəmizə çoxsaylı beynəlxalq yarışlara evsahibliyi etmək imkanı qazandırır. İndi yeni olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin tikintisinin əsas məkanlarından biri məhz işğaldan azad edilən ərazilər olacaq.

Prezident İlham Əliyevin birbaşa diqqəti nəticəsində bu ərazilərdə də idmanın inkişafına yeni təkan verən maddi-texniki bazanın yaradılması və möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına imkan verən infrastrukturun qurulması ölkə idmanının inkişafına mühüm təkan olacaq. Güləşdən tutmuş cüdoya, şahmatdan tutmuş müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növündə Azərbaycanı layiqincə təmsil edəcək idmançılar nəsli artıq azad olunmuş ərazilərdə də yetişəcək. Bu, Azərbaycanın idman ölkəsi kimi bütün dünyada layiqli yerini daha da möhkəmləndirəcək, onun nüfuzunu daha da yüksəldəcək, üçrəngli bayrağını yeni zirvələrə ucaldacaq.

Son 18 ilə nəzər yetirdikdə digər sahələrdə olduğu kimi Azərbaycan idmanının tarixində də şanlı səhifələr yazıldığının şahidi oluruq. Ötən dövr ərzində ölkəmizdə idman və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. İdman strukturunun yenidən qurulması, yeni-yeni idman obyektlərinin, olimpiya idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb. Ölkəmizin bütün bölgələrində müasir səviyyəli idman infrastrukturu formalaşdırılıb. Bundan başqa, idmançıların dövlət tərəfindən daim qayğı ilə əhatə olunması, onların bütün problemlərinin həll edilməsi, yüksəksəviyyəli təlim-məşq toplanışlarının keçirilməsi onların beynəlxalq turnirlərdə yüksək nəticələr əldə etməsini təmin edir.

Artıq 2021-ci ilə də yekun vururuq. Hər ilin sonunda ilin idman uğurları təntənəli şəkildə qeyd olunur. Cari ilin ən böyük idman hadisələri sözsüz ki, Tokioda keçirilən Yay Olimpiya və Paralimpiya Oyunları idi. Əlbəttə, Olimpiya Oyunlarına gedən hər bir idmançı yalnız qələbə barədə düşünür. Bu fonda dördilliyin zirvə yarışına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb. Paralimpiyaçılarımız isə 19 medalla tarixi rekorda imza atdılar. Olimpiadada yarışan və qalib gələn idmançılar alqışla qarşılanır, qarşıdakı turnirlərə daha məsuliyyətlə yanaşırlar. Hər birimiz istərdik ki, Azərbaycan idmançıları da ən azından Rio Olimpiadasında qazanılan 18 medallıq nəticədən çox da geridə qalmasınlar. Lakin dünyanı ağuşuna alan koronavirus pandemiyası dövründə yaşanan hadisələr idmançılarımızdan da yan keçmədi. Azərbaycanda bir sıra obyektlərin, o cümlədən idman zallarının fəaliyyətinə məcburən qadağa qoyuldu, idmançılarımız olimpiadaya normal şəkildə hazırlaşa bilmədilər.

Fəxarət hissi keçirirəm ki, bu gün cənab İlham Əliyevin rəhbəri olduğu dövlətdə idman mütəxəssisi kimi çalışıram. Hakimlik fəaliyyətimlə bağlı mütəmadi olaraq beynəlxalq yarışlarda, çempionatlarda iştirak edirəm. Xarici həmkarlarımla, həmçinin beynəlxalq idman qurumlarının rəhbərləri və təmsilçiləri ilə söhbətlərdə xüsusilə vurğulanır ki, Azərbaycan həm öz idmançılarının yüksək potensialına, idman uğurlarına, həm də beynəlxalq idman hərəkatına böyük töhfələrinə görə qabaqcıl idman ölkəsi sayılır. Müsbət cəhətlərdən biri də Azərbaycanda beynəlxalq idman yarışlarının ən yüksək səviyyədə keçirilməsidir. Artıq dünyada idman yarışlarının təşkilində mükəmməl Azərbaycan modeli var və bu, birmənalı etiraf olunur.

Ömrümün 40 ilini idmana həsr etmişəm. 20 ildən artıqdır ki, beynəlxalq səviyyədə hakimlik fəaliyyəti göstərirəm. Üç olimpiada, dəfələrlə ən ali idman yarışlarını idarə etmişəm. Söylədiklərim rəsmi, nüfuzlu xarici idman mütəxəssislərinin rəyləri, mülahizələridir. Bu uğurlar bizi çox sevindirir. Şübhəsiz ki, bu nailiyyətlərlə yalnız biz idmançılar deyil, elə bütün vətəndaşlarımız qürur duyur. Hər dəfə Azərbaycan bayrağı qaldırılanda, himnimiz səsləndə, yeni dostlar, yeni təəssübkeşlər, ən əsası isə yeni azarkeşlər qazanırıq. Bu uğurlara görə, əlbəttə ki, möhtərəm Prezident İlham Əliyevə minnətdarıq, borcluyuq.

Bir məqamı da vurğulamaq istərdim. Təəssüf ki, Azərbaycan idmanında son vaxtlar həm problemlərlə üzləşirdik, həm də lazımsız arxayınçılıq yaranmışdı. Bunun nəticəsini də son illərdə idman yarışlarının medal göstəricilərində aydın görürdük. Xeyli müddətdir ki, bu problemlərlə bağlı möhtərəm Prezidentimiz iradlarını bildirir, problemləri göstərirdi. Açıq danışmaq istəyirəm, Prezident həyəcan təbili çalırdı. Biz bu vəziyyəti Milli Olimpiya Komitəsi çərçivəsində, idman federasiyaları daxilində mütəxəssislərlə müzakirə edirdik. Nəhayət, Prezidentin qərarı ilə Azərbaycan idmanının inkişafının yeni mərhələsi başladı. Hörmətli Fərid Qayıbov gənclər və idman naziri vəzifəsinə təyin olunarkən cənab Prezidentin onun qarşısında qoyduğu konkret vəzifələr mənim fikrimcə, bu sahədə islahatların konkret hədəfləridir. Yəni Prezident hansı sahədə nə problemlər var, onları açıq söylədi. Həm də onları necə həll etməyin yollarını həmişəki kimi böyük müdrikliklə bəyan etdi. Artıq proses başlayıb və ilkin təəssüratım çox müsbətdir.

Federasiyaların rəhbər, məşqçi heyətlərinin yenidən təşkili sürətlə gedir. Özü də olduqca düzgün seçimlər aparılır. Öz sahələrində səmərəli fəaliyyət göstərən şəxslər inanırıq ki, federasiyalardakı ətaləti, ləngimələri tezliklə aradan qaldıracaqlar.

Milli Olimpiya Komitəsinin sonuncu hesabat seçki konfransı da idman islahatlarına təşkilati dəstək baxımından mühüm hadisə oldu. Problemlərdən danışıldı, yeni istiqamətlər müəyyənləşdirildi, yeni tərkib seçildi. Tərkib peşəkarlardan ibarətdir və qısa müddətdə bu sahədə köklü dəyişiklik yaratmaq gücündədir. Mən də MOK-un Təftiş Komissyasına üzv, sonra isə sədri seçildim. Bu etimada görə MOK-un prezidenti zatialiləri cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm.

*Son 18 il ərzində yüz minlərlə insan hörmətli Prezidentin qayğısını, himayədarlığını, diqqətini görüb. Milyonlarla həmvətənimizə müstəqil dövlət, yüksək rifah, inkişaf etmiş cəmiyyət, qalib ölkənin vətəndaşı adını bəxş edən İlham Əliyevin həm də on minlərlə azərbaycanlının həyatında birbaşa mərhəmət payı var. O, əsl xalq adamı, əsl lider, əsl qalib baş sərkərdədir!*

**Hicran ŞƏRİFOV,**
***MOK-un Təftiş Komissiyasının sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi, beynəlxalq dərəcəli hakim***

## Müdrik rəhbər, qalib sərkərdə

Qalib dövlət, Cənubi Qafqazın lideri, qlobal məsələlərdə söz sahibi, regionun tranzit qovşağı və s… Bunlar hazırda müasir Azərbaycanı xarakterizə edən və onu tarixinin ən qüdrətli dövlətinə çevrilməsini şərtləndirən gerçəkliklərin yalnız bir qismidir. Bəli, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yüksəliş strategiyasının Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti, xarizması, yüksək siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə alması bütün bu nailiyyətlərimizi layiqincə təmin etməkdədir.

Ulu Öndərin qoruduğu, xilas etdiyi və inkişaf yoluna çıxardığı vətənimiz məhz İlham Əliyev fenomeninin fitri idarəçilik və liderlik keyfiyyətləri sayəsində hazırda özünün parlaq yüksəliş dövrünü yaşayır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərlik etdiyi ötən 18 ildə Azərbaycan olduqca qürurdoğuran uğurlara imza atıb, öz dövlətçilik tarixinin ən güclü inkişaf mərhələsinə qədəm qoyub. Bu dövrdə həyata keçirilmiş genişmiqyaslı tədbirlər, sistemli, ardıcıl və dərin islahatlar nəticəsində hazırda Azərbaycan makroiqtisadi baxımdan sabit, təhlükəsiz və sürətlə inkişaf etməkdə olan ölkə, həmçinin regionun siyasi, iqtisadi və mədəni mərkəzidir. Respublikamız irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, şimaldan cənuba, şərqdən qərbə və əksinə gedən beynəlxalq nəqliyyat dəhlizlərinin əsas qovşağıdır. Azərbaycana regionun aparıcı dövləti statusu, qlobal miqyasda isə yüksək nüfuz qazandıran bütün bu nailiyyətlərimiz beynəlxalq ictimaiyyətin də qəbul etdiyi tarixi reallıqlardır.

Əlbəttə, Azərbaycanın nailiyyətlərinin əsas səbəbi Prezident İlham Əliyevin qətiyyətli və prinsipial rəhbər olmasıdır. Dövlətimizin başçısı öz fəaliyyətində milli maraqlar naminə cəsarətli qərarlar qəbul etmək bacarığını daim nümayiş etdirib, istənilən beynəlxalq məsələdə Azərbaycanın mənafelərini qətiyyətlə və layiqincə təmin edib. Kənar təzyiqləri inamla dəf edən, müstəqil siyasət yürüdən dövlətimiz bu müddətdə qarşıya qoyduğu hədəflərə inamla yetişib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə dinamik inkişaf dövrünə qədəm qoyub. Bu dövrdə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş gənclər siyasəti də uğurla həyata keçirilib, müvafiq dövlət proqramlarının və qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəlib. Bu isə dövlətimizin hər bir vətəndaş üçün yaratdığı imkanlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına şərait yaradıb. Bunun nəticəsidir ki, gənc nəslin nümayəndələri üzərlərinə düşən milli və mənəvi borclarını layiqincə yerinə yetirir, respublikamızın siyasi, ictimai, mədəni və iqtisadi həyatında aktiv iştirak edirlər. Ötən ilin Vətən müharibəsində on minlərlə gəncin torpaqlarımızın azadlığı uğrunda silaha sarılmaq üçün müraicət etməsi də respublikamızda həyata keçirilən gənclər siyasətinin təntənəsi idi. Həmin gənclər heç vaxt Qarabağı, Şuşanı görməmişdilər, lakin hər birinin qəlbində Qarabağ sevgisi var idi. Məhz möhtərəm İlham Əliyevin mütərəqqi gənclər siyasəti onların hər birinin layiqli və vətənpərvər gənclər kimi formalaşmasında mühüm rol oynamışdı. O cümlədən Naxçıvandan olan gənclərimiz də bu savaşda qəhrəmanlıq dastanları yazmışdılar.

Ötən 18 ildə Azərbaycanın yüksəlişinin əsas göstəricilərindən biri regionların sürətli inkişaf yoluna çıxarılması, şəhər və rayonlarımızın, kənd və qəsəbələrimizin abadlaşdırılmasıdır. Bütün bunları respublikamızın dilbər guşələrindən olan Naxçıvan Muxtar Respublikasının timsalında daha aydın görmək mümkündür. Bu illər ərzində cənab Prezidentin xüsusi diqqət və qayğısı, dövlət proqramlarında qarşıya qoyulan məqsəd və vəzifələrin ən yüksək səviyyədə icra olunması nəticəsində Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edib.

İndiyədək dövlət başçısının Naxçıvana 15 dəfə səfər etməsi cənab İlham Əliyevin muxtar respublikaya olan yüksək diqqətinin təcəssümüdür. Prezident İlham Əliyevin bu ilin may ayında etdiyi 15-ci səfər muxtar respublikanın həyatında əlamətdar hadisəyə çevrildi. Respublikamızda möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə gedilən inkişaf yolu Naxçıvan Muxtar Respublikasının timsalında xüsusilə aydın görünür. Naxçıvanda bütün sahələr üzrə əldə olunan göstəricilər ən gözəl nümunə kimi diqqət çəkir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi illər çoxsaylı uğurlarla zəngindir. 2020-ci ilin Vətən müharibəsində Azərbaycanın hərbi zəfəri isə möhtərəm İlham Əliyevin respublikamıza rəhbərliyinin ən böyük tarixi hadisəsidir. Bu qələbənin memarı, müəllifi olan Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı azad etməklə bir lider olaraq tarixi missiyanı yerinə yetirdi. Cənab İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi və Ordumuzun gücü nəticəsində qazanılan bu qələbə indi bizi bütün dünyaya müzəffər xalq, qalib dövlət kimi tanıdır. Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə işğaldan azad olunmuş ərazilərimizin ən müasir səviyyədə bərpa edilməsi isə qələbəmizin növbəti təntənəsi olacaq.

Cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlər müasir müstəqillik tariximizin ən əlamətdar hadisələridir. Tarixinin ən qüdrətli dövrünü yaşayan dövlətimizin uğurları bundan sonra da davamlı olacaq.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Azərbaycan sahibkarlığını zirvələrə yüksəldən LİDER



Əvvəli 1-ci səh.

Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyev son 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk dövlət başçısıdır. Bir il öncə "Qarabağ Azərbaycandır və nida işarəsi"ni bəyan edən Ali Baş Komandanın taktiki strategiyası, müdrik qərarları, müzəffər Ordusu sayəsində hazırda "Qarabağ Azərbaycandır!" bəyanatı dəyişməz həqiqətdir.

Azərbaycanın böyük Qarabağ zəfərinə nail olmasında əsas komponentlərdən biri ölkə iqtisadiyyatının inkişafıdır ki, bu konsepsiyanın da əsasını Ümummilli Lider Heydər Əliyev qoymuşdur. "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir" deyən Azərbaycanın dahi rəhbəri güclü ölkənin bünövrəsini qoyacaq iqtisadi islahatlara başlamış və böyük dövlətlərin Azərbaycanda iqtisadi maraqlarını balanslaşdıran "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Bununla Azərbaycan Avropanın, Qərbin enerji təhlükəsizliyində söz sahibinə çevrilmiş və iqtisadi inkişafın, dövlət müstəqilliyinin möhkəm təminatının bünövrəsi qoyulmuşdur. Azərbaycanın bu uğurlarını davam etdirən İlham Əliyev peşəkar siyasətçi, diplomat kimi - Ulu Öndər Heydər Əliyevin Qarabağı işğaldan azad etmək vəsiyyətini gerçəkləşdirmək üçün böyük daxili islahatlar aparmış, ölkəmizin strateji müttəfiqi olan Türkiyə ilə bütün sahələrdə əlaqələri daha yüksəklərə daşımışdır.

Azərbaycanın iqtisadi qüdrətinin davamı olaraq ölkənin hərbi büdcəsi də artmışdır. Azərbaycan Ordusunun müasir silahlarla təchiz olunması, şəxsi heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması, təhsilinə xüsusi diqqət yetirilməsi, xaricdə təhsil alan zabit heyətinin formalaşdırılması, birgə təlimlərin keçirilməsi Silahlı Qüvvələrimizin güclənməsinə səbəb olmuşdur. Nəticədə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanmış və beşinci nəsil silah arsenalına malik ordu formalaşmışdır.

Digər səbəb uğurlu xarici siyasət amilidir. Azərbaycanın xarici siyasəti güclü iqtisadiyyat və qüdrətli Ordunun formalaşmasından sonra qarşıya qoyulan ali məqsədlərə çatmaq üçün çox mühüm əhəmiyyət daşıyırdı. Burada biz təməli Ulu Öndər tərəfindən qoyulan balanslaşdırılmış xarici siyasətin uğurla davam etdirilməsini qeyd edə bilərik. Biz yaxın qonşularımız Rusiya, İran ilə münasibətləri qoruyub saxlayaraq Türkiyə ilə münasibətlərimizi artıq strateji müttəfiqlik, qardaşlıq səviyyəsinə qaldırdıq. Təsadüfi deyil ki, "Can Azərbaycan" kəlməsi ilə Azərbaycan xalqına müraciət edən Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına "Dostum, qardaşım, şəxsinə böyük hörmətim olan İlham Əliyev" deyə xitab edir. Bu, əlbəttə, Türkiyə-Azərbaycan münasibətlərində ən yüksək mərhələdir. Eyni zamanda İlham Əliyev Avropa İttifaqı ilə güclü ticari əlaqələrimizin qurulmasında, xüsusilə Avropanın Şərq ölkələri ilə münasibətlərinin daha möhkəm olmasına böyük töhfələr vermiş, nəticədə Qərbin enerji təhlükəsizliyində Azərbaycan müstəsna yer tutmuşdur. Xatırladaq ki, həmin dövlətlərin bir çoxu Avropa İttifaqının, NATO-nun üzvüdür və bu qurumlarda tərəfdaşların olması Azərbaycana əlavə siyasi manevr imkanları yaradır. Diqqət yetirsəniz, Azərbaycan Qoşulmama Hərəkatından başqa, heç bir regional, hərbi birliklərə üzv olmur və öz baxışlarında daha çox ikitərəfli münasibətlərin qurulmasına tərəfdardır.

Vətən müharibəsi dövründə dünyanın böyük gücləri, həmçinin türkdilli dövlətlər, eyni zamanda Ukrayna, İsrail, Pakistan kimi müttəfiqlər, eləcə də digər Şərqi Avropa ölkələri məhz uğurlu iqtisadi-siyasi münasibətlər nəticəsində bizə Qarabağın azad olunmasında siyasi və mənəvi dəstək vermişlər.

Azərbaycan xalqı öz liderinin ətrafında bir yumruq kimi sıx birləşərək, Qarabağımızın azad olunması uğrunda bütün səylərini ortaya qoydu və öz qəhrəmanlığı ilə dünyanı yaxşı mənada təəccübləndirdi. Nəticədə Qarabağ məsələsində Azərbaycan xalqı siyasi, həlledici, qərarverici bir səviyyəyə yüksəldi. Cənab Prezidentin özünün də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan xalqının bu birliyinin təcəssümü olan "Dəmir yumruq" düşmənin başına endirildi, 30 ilə yaxın müddətdə torpaqlarımızın 20 faizini işğalda saxlayan Ermənistan ordusu darmadağın edildi. Vətənpərvər, rəşadətli Azərbaycan Silahlı Qüvvələri bir-birinin ardınca şəhər və kəndlərimizi, eyni zamanda noyabrın 8-də Qarabağın ürəyi olan Şuşanı düşmən tapdağından qurtardı. Keçən il noyabrın 10-da düşmənin imzaladığı kapitulyasiya bəyanatına əsasən ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı təmin edildi, bununla da doğma torpaqlarımızdan didərgin düşən məcburi köçkünlərimizin, ümumiyyətlə, bütövlükdə Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyuldu.

Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm Qələbəsinə həsr olunmuş, ötən il dekabrın 10-da təşkil edilən Zəfər paradının keçirilməsindən təxminən bir il ötür. Çox qısa zamanda təşkil olunan parada hazırlıq işlərinə Ermənistanın kapitulyasiya aktı imzalamasından dərhal sonra başlanılmışdı. Şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış müharibənin bitməsindən cəmi bir ay sonra keçirilən parad əvvəlkilərdən tam fərqli idi. Çünki bu parad Qələbə paradı idi. Bu paradda Azərbaycan işğalçı Ermənistan üzərində qazandığı qələbəni, torpaqlarımızın ərazi bütövlüyünün öz gücümüz hesabına təmin edildiyini dünyaya nümayiş etdirirdi.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadiyyatın ön plana çəkilməsidir. Dövlət proqramlarının, Prezidentin fərman və sərəncamlarının icrası ölkənin iqtisadi inkişafının sürətləndirilməsini uğurla təmin edir, bu prosesdə özəl sektorun payını və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan verir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülüb.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin etmişdir. Əhalinin həyat səviyyəsi yüksəlmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların tarazlı inkişafına nail olunmuş, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılmışdır.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilir.

Ötən ay Bakıda dünyanın 40-dan çox ölkəsindən ali və yüksəksəviyyəli nümayəndələrin, sabiq dövlət və hökumət başçılarının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçilərinin, eləcə də digər nüfuzlu qonaqların iştirak etdiyi 8-ci Qlobal Bakı Forumunda Azərbaycan reallıqları ilə bağlı səslənən fikirlər İlham Əliyevin yürütdüyü siyasətə verilən yüksək qiymətin təzahürü idi.

Noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 8-ci Zirvə Görüşündə Azərbaycan Prezidenti haqqında səslənən fikirlər, həmçinin İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi, dövlətimizin başçısının dediyi kimi, Azərbaycan xalqına verilmiş ən böyük dəyər idi.

Ordeni təqdim edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözlərinə diqqət edək: "Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa bir müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur. Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb". Bu, dostcasına səslənən səmimi fikirlər idi.

Noyabrın 26-da Soçidə Prezident İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Dövlətimizin başçısına yüksək münasibət onun qarşılanmasından başladı. Vladimir Putinlə İlham Əliyevin görüşü əsl dost görüşü idi. İkitərəfli görüş hər iki dövlətin regiondakı sülhə 10 noyabr və 11 yanvar bəyanatlarına tam bağlılığını ortaya qoydu. İlham Əliyevin uzaqgörən siyasətinin təntənəsi məhz Soçidə bir daha özünü göstərdi. Görüşün ən önəmli tərəflərindən biri Kremlin rəsmi Bakı ilə, demək olar ki, bütün məsələlərdə ortaq fikri daşıması oldu. İlham Əliyev Soçidə regionun söz sahibi, lideri kimi qarşılandı və Kreml Azərbaycanın mövqeyini birmənalı şəkildə qəbul və təsdiq etdi.

İki gün sonra, noyabrın 28-də cənab İlham Əliyev Türkmənistanda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Görüşünə qatıldı. Azərbaycanın xilaskar lideri həm toplantıdakı çıxışında, həm də üzv dövlətlərin liderləri ilə təkbətək görüşündə bir daha regionda yaranmış yeni reallıqları qiymətləndirdi və dost-qardaş ölkələri Qarabağa, Şərqi Zəngəzura investisiya yatırmağa, birgə işbirliyinə dəvət etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Zəngəzur dəhlizi artıq reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsinə çevriləcək. İlham Əliyev əmin olduğunu bildirdi ki, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

Postmüharibə dövrü yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradılır. Təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, Prezidentin söylədiyi kimi, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran və Ermənistanın deyil, digər ölkələrin də maraqlarına cavab verən bu proseslə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Bir il ərzində icra olunan layihələrə diqqət yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzur tezliklə Azərbaycanın deyil, regionun ən gözəl guşələrindən biri olacaq. Çünki bu yerlərin təbiəti çox səfalıdır. Həm də ona görə ki, burada bərpa-quruculuq işləri müasir dünya standartlarına uyğun icra edilir. Məsələn, "ağıllı" kənd və şəhər layihələri insanların ətraf mühitə ziyan vurmadan yaşamasına hesablanıb.

Bölgənin bərpa-quruculuq işlərinə infrastruktur layihələrindən başlanılıb və bu, təsadüfi deyil. Çünki mükəmməl infrastruktur yaratmadan iqtisadiyyatın bərpası və insanların məskunlaşması mümkün deyil. Odur ki, indiyədək yüz kilometrlərlə avtomobil yolunun çəkilməsi istiqamətində xeyli iş görülüb. Tarixi "Zəfər yolu"nun çəkilməsi təkcə infrastruktur layihəsi deyil, şanlı qələbəmizə qoyulan abidədir. İndi işğaldan azad olunan ərazilərdə dəmir yolu çəkilir, Zəngilan Hava Limanında tikinti işləri aparılır. Bütün bunlarla Prezident İlham Əliyev regionda yaranmış yeni reallıqlara uyğun əməkdaşlıq təkliflərinə hər zaman açıq lider olduğunu bir daha təsdiqləyir.

Azərbaycan sahibkarları əmindirlər ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağımızı yenidən dirçəldəcək, insanların öz doğma yurdlarına dönməsinə nail olunacaqdır. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən sahibkarların təkliflərini toplamaq məqsədilə işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi təkliflər hökumətə təqdim edilmişdir. Bununla bağlı artıq bir çox layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağıllı kənd", "Yeni iqtisadiyyat" və digər layihələrdir.

Qeyd olunanlar nəzərə alınaraq, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə Prezidentin müvafiq fərmanları ilə "YAŞAT" Fondu və "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. Ölkə ictimaiyyətinin böyük rəğbətlə qarşıladığı bu fərmanlardan sonra həmin fondlara ianələrin köçürülməsində Azərbaycan sahibkarları fəallıq göstərirlər.

Azərbaycan Ordusuna və xalqına arxalanan İlham Əliyev Azərbaycanın dövlət sərhədlərini bərpa edən, 30 illik işğala son qoyan, Qarabağa azadlıq, sülh, rifah gətirən Ali Baş Komandandır. Bu yolda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın da əməyi böyükdür.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır.

Mehriban xanım Əliyeva Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən dövlət xadimi olmaqla yanaşı, milli dəyərlərə böyük sevgisi, humanizmi, nəcib xanımlığı ilə xalqımızın qəlbində dərin ehtiram qazanıb.

İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Heydər Əliyev irsinin uğurla davam etdirilməsində, qələbələr qazanmasında Mehriban xanım Əliyevanın da böyük fədakarlığı, layiqli xidmətləri vardır. Mehriban Əliyevanın dahi şəxsiyyətin adını daşıyan fondun rəhbəri kimi ölkə və dünya miqyasında həyata keçirdiyi mərhəmət aksiyaları, sosial layihələr Heydər Əliyevin əbədiyaşar ruhuna ən böyük ehtiram nümunələridir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış Mehriban xanım, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

2021-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə ilk sıralarda yer almışdır. Dünyanın ən böyük beyin mərkəzlərindən olan İrs Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycan 6 pillə irəliləyərək 172 ölkə arasında 38-ci yerdə qərarlaşmış, dünya üzrə orta göstəricidən yuxarı və Avropa ölkələri səviyyəsində nəticə göstərmişdir. Belə ki, Azərbaycan iqtisadi azadlıq üzrə mümkün 100 baldan 70,1 bal toplayaraq, Avropa regionunda 45 ölkə arasında 23-cü yerdə qərarlaşmış, onun ümumi balı regional orta göstəriciyə bərabər və dünya üzrə orta göstəricidən yüksək olmuşdur. Bu yüksəlişə isə əsas etibarilə bank, əmlak, monetar, vergi, fiskal və digər istiqamətlərdə qeydə alınan inkişaf trendləri ilə nail olunub.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirmişdir. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Məlum olduğu kimi, iki ildir bütün bəşəriyyət görünməz bir düşmənlə - koronavirusla mübarizə aparır. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır. Təsadüfi deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda ölkəmiz qlobal böhranın təsirindən maksimum qorunmuş, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etmişdir. Belə ki, keçən dövr ərzində dövlət fondları və digər maliyyə resursları səfərbər edilmiş, ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur.

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışlara sahibkarlar da qoşularaq cəmiyyətdə yüksək həmrəylik nümayiş etdirmişlər. Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə güzəştlər tətbiq etməyə başlamışdır. Qanun layihəsinə əsasən, pandemiyadan zərər çəkən sahibkarlıq subyektləri 2020-ci ilin əmlak və torpaq vergisindən azad edilmişlər.

Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır. Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin artımı ilə müşayiət olunur. Belə ki, 2021-ci ilin 6 ayında aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 3,9 faiz artaraq 640,4 min, ƏDV ödəyicilərinin sayı 8,9 faiz artaraq 31,7 min, qeydiyyatdan keçmiş obyektlərin sayı isə 5,8 faiz artaraq 176,8 min təşkil etmişdir ki, bu da sahibkarlıq subyektlərinin sayının artımının real təsdiqidir.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Azərbaycanda 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

2021-ci ilin 10 ayı ərzində ölkədə 71,6 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox ümumi daxili məhsul istehsal olunması, iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyərin 5,9 faiz artması qeyri-neft sektorunda sahibkarlığın inkişafının real göstəricisidir. Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi davam edir. Qeyd olunmalıdır ki, bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlər hesabına təmin edilir.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2021-ci ilin 6 ayında 774 investisiya layihəsinin maliyyələşdirilməsinə 43 milyon manat güzəştli kredit verilmişdir ki, bu da 1160 yeni iş yerinin açılmasına şərait yaratmışdır.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Təşkilatımız hazırda qeyri-neft sektorunun inkişafı üzrə ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq, vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparılır. Əvəzində sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurur, ixrac bazarları üçün daha çox rəqabətqabiliyyətli məhsullar istehsal edir, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırırlar.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Azərbaycan hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır. Xatırladaq ki, Nazirlər Kabineti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Cari ildə beynəlxalq və regional təşkilatlarla birgə keçirilən 30-dan çox tədbirdə, xarici ölkələrin diplomatik nümayəndəlikləri və donor təşkilatları ilə keçirilən 21 görüşün əsas mövzularından biri də Qarabağın iqtisadi imkanları və inkişafı potensialı olmuşdur.

Sentyabr ayında Türk Şurası, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə keçirilən Türk Şurasına üzv dövlətlərin iqtisadiyyat nazirlərinin 10-cu görüşü çərçivəsində Azərbaycanın azad edilmiş ərazilərinin bərpası və inkişafına həsr olunmuş Türk Biznes Forumu təşkil olunmuş, forum çərçivəsində ASK ilə Qazaxıstan Respublikasının "QazTrade" Ticarət Siyasətinin İnkişafı Mərkəzi arasında Anlaşma Memorandumu imzalanmışdır.

Həmin dövrdə İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Baş katibi cənab Yusif Həsən Xələvinin ölkəmizə səfəri Sahibkarlar Konfederasiyası tərəfindən təşkil olunmuş və 2022-ci ilin may ayında Azərbaycanda keçirilməsi planlaşdırılan "Dayanıqlı Kənd Təsərrüfatı" mövzusunda beynəlxalq forumun təşkili və bioloji təmiz məhsulların yetişdirilməsində Qarabağ torpaqlarının potensialı məsələsi müzakirə edilmişdir.

2021-ci il noyabrın 10-da türkdilli ölkələrdən 300-dən çox sahibkarın iştirakı ilə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən Türk Ticarət və Sənaye Palatasının 3-cü Baş Assambleyasında və Türk Biznes Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidentinin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

2021-ci il dekabrın 2-də Çin Beynəlxalq Ticarət Palatasının və Beynəlxalq Ticarətin Təşviqi üzrə Çin Şurasının birgə təşkilatçılığı ilə "2021 Kəmər və Yol Ticarət və İnvestisiya Forumu"nda Azərbaycan Sahibkarlar Konfederasiyasının iştirakı və əsas sessiyada videomüraciətin səsləndirilməsi iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

10 dekabr 2021-ci il tarixində hər iki ölkədən 100-dən çox sahibkarın iştirakı ilə keçən Azərbaycan-Özbəkistan Biznes Şurasının onlayn formatda ikinci iclasında ölkələrimiz arasında ticarət dövriyyəsinin hazırkı vəziyyəti və qarşılıqlı investisiya yatırımı ilə bağlı təqdimatlar olmuş, xüsusən də Qarabağda pambıqçılığın, həmçinin ölkəmizdə dəri emalı müəssisələrinin inkişafı mövzuları ətrafında müzakirələr aparılmışdır.

Bütün bunlarla yanaşı, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi üçün konfederasiyaya üzv sahibkarların iştirakı ilə xarici ölkələrdə 8 görüş təşkil edilmiş, rayon nümayəndələri ilə 20 görüş keçirilmiş, ASK-nin tabeliyindəki komissiyaların 17 iclasında iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı məsələlər təhlil edilmişdir. Sahibkarlardan daxil olan müraciətlərə baxılaraq, onların qaldırdığı problemlərlə bağlı müvafiq dövlət orqanları ilə birgə araşdırmalar aparılmışdır. Azərbaycanda quşçuluğun inkişafı ilə bağlı tədbirlər planı hazırlanmış, baxılması üçün Kənd Təsərrüfatı Nazirliyinə və Qida Təhlükəsizliyi Agentliyinə təqdim olunmuşdur. Eləcə də Vergi Məcəlləsində dəyişikliklər, tikintidə qeyri-rəsmi məşğulluğun qarşısının alınması, "Şagirdlik müqaviləsi" ilə əlaqədar hazırlanmış qanunvericilik layihələri ilə bağlı konfederasiya bir sıra təkliflərlə çıxış etmişdir.

Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində sahibkarlara 43 həftəlik məlumat bülleteni, hüquqi qanunvericiliklə bağlı yeniliklərin izahını əhatə edən 7 hüquqi icmal təqdim edilmişdir. Sahibkarların dövlət dəstək tədbirləri haqqında məlumatlılığını yüksəltmək, eləcə də Qarabağda yaradılan yeni iqtisadi zonalar, sənaye parkları və s. mövzuların daha geniş və analitik səpkidə təqdim edilməsi üçün "Biznes həyatı" jurnalının 27 və 28-ci sayları dərc edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial - iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə uyğun olaraq Azərbaycan Sahibkarlar Konfederasiyasının "2021-2023-cü illər üzrə Kommunikasiya Strategiyası" hazırlanmışdır.

Məlumdur ki, bu gün Azərbaycanın qarşısında 30 il ərzində məhv edilmiş Qarabağ torpaqlarını yenidən dirçəltmək kimi şanlı missiya dayanır. Azərbaycan sahibkarları da Qarabağın və Şərqi Zəngəzurun yenidən firavanlığına qovuşması, iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini əsirgəmirlər. Bu məqsədlə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın potensial imkanlarından istifadə etmək məqsədilə geniş tədbirlər görür. Bu gün Qarabağda sökülüb viran qoyulan, iqtisadi infrastrukturu dağılan bütün obyektləri birlikdə tikmək əzmindəyik.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük bəxtəvərlikdir. İlham Əliyev özünün qeyd etdiyi kimi, xoşbəxt insandır. Çünki öz ölkəsinə şanlı Zəfər gününü və xoşbəxtliyi bəxş edən Prezident İlham Əliyevə xalqımızın sevgisinin, hörmət və ehtiramının miqyası ölçüyəgəlməzdir.

*Bu günlərdə 60 illik yubileyini qeyd edən dövlətimizin başçısı ötən illərdə hər kəsə örnək ola biləcək olduqca zəngin, mənalı və qalib bir həyat yolu keçmişdir. Fürsətdən istifadə edərək çoxminlik Azərbaycan sahibkarları adından dövlət başçısını yubiley münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı, ölkəmizin inkişafı, xalqımızın rifahı, Qarabağımızın çiçəklənməsi naminə fədakar fəaliyyətində uğurlar arzulayırıq.*

*Sizinlə fəxr edirik, Cənab Prezident!*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Milli maraqlara söykənən liderlik missiyası



*Əvvəli 1-ci səh.*

Cəmi 18 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində gerçəkləşdirilməsi mümkünlüyü inkarolunmaz reallıqdır. Öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan 2003-cü ildən bu günə kimi fantastik görünə biləcək sürətli inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur. Bu müddətdə inamla həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Tarixən bu həqiqət birmənalı təsdiqini tapmışdır ki, hakimiyyəti xalqın iradəsinə söykənən, onun dəstəyini hiss edən qətiyyətli, peşəkar siyasətçi idarə edəndə dövlət daha qüdrətli, vətəndaş daha güvənli olur. Məhz bu cür liderlər zamanın çağırışlarına cavab verən realist siyasət yürüdür, uğurlu gələcək naminə xalqın, dövlətin güc və imkanlarını toparlayır, vahid milli ideyanın gerçəkləşdirilməsi naminə səfərbər edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin özünün də bəyan etdiyi kimi, ötən il qazandığımız tarixi Zəfərdən sonra ölkəmizdə islahatların keyfiyyətcə yeni mərhələsi başlanmışdır. Postmüharibə dövründə daha geniş vüsət alan islahatlar fonunda bu gün hər bir azərbaycanlı doğma Vətənini abad, müasir, inkişaf etmiş görmək istəyir və bunu milli ideyanın əsas prioritetləri kimi qəbul edir.

Dövlət başçısı İlham Əliyevin yürütdüyü inkişaf strategiyası özündə həm də ictimaiyyətin müəyyən gözləntilərini, arzu və istəklərini təcəssüm etdirir. İqtisadi inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsi ümumi məqsəd və strategiyanın reallaşdırılmasına imkan yaradır, habelə modernləşmənin vacib amilinə çevrilir. Müstəqil Azərbaycanın son 18 ildə əldə etdiyi böyük makroiqtisadi uğurlar da məhz sistemli və ardıcıl şəkildə gerçəkləşdirilən inkişaf strategiyasının nəticəsidir. Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət dövlət başçısının xalqın, ölkənin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir.

Siyasi liderin fəaliyyətinin istər daxildə, istərsə də ölkə hüdudlarından kənarda qiymətləndirilməsi zamanı ən obyektiv istinad yeri onun gördüyü işlərdir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, son illərdə inkişaf dinamikasına görə Azərbaycanla müqayisə oluna biləcək ikinci bir ölkə yoxdur. Ötən illər, ilk növbədə, dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümummilli Lider Heydər Əliyevin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, “Ümid”, “Abşeron” və digər perspektivli qaz yataqlarının kəşfi, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası, Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan “Cənub qaz dəhlizi” layihəsinin seqmentləri olan TANAP, TAP layihələrinin gerçəkləşdirilməsi, son bir ildə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar bu baxımdan xüsusi qeyd olunmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə gün əvvəl Brüsseldə gerçəkləşən səfərinin yekunları bir daha təsdiqləyir ki, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biri kimi tanınır. Bu fakt özlüyündə Azərbaycanın Abropa İttifaqı üçün önəmini daha da artırmış, respublkamızın təşkilatla əlaqələrinə yeni nəfəs vermişdir.

Dövlət başçısının ötən illərdə praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin qayəsində məhz insan amili dayanmışdır. Cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. *“Hər bir məmur xalqının xidmətçisi olmalıdır”,* - deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir. Dövlət başçısı ötən 18 ildə ayrı-ayrı məmurlara etimad meyarını məhz onların fəaliyyətinə əsasən müəyyənləşdirmiş, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə dolğun məlumatlandırılmasını zəruri saymışdır.

Müasir dövrdə hər bir dövlətin tərəqqisi “insan meyarı”, yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı, insan və vətəndaş hüquqlarının qorunması - “insan meyarı”nın bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas ünsürlərinə çevirir. Bu mənada əminliklə demək olar ki, tarixin heç bir mərhələsində Azərbaycan cəmiyyəti son illərdəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır.

*“Siyasətimizin əsasında Azərbaycan vətəndaşı dayanır”* deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev keyfiyyətcə yeni mərhələdə insan və vətəndaş mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsini də vacib sayır. Bu yanaşma respublikamızın qısa müddətdə həm də elektron xidmətlər sahəsində əldə etdiyi böyük uğurlara əsaslanır. Son 10 ildə korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış “ASAN xidmət” mərkəzləri qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanaraq Azərbaycanın milli brendinə çevrilmişdir. Bu, dövlət idarəçiliyinə özəl sektorda geniş yayılmış “müştəri məmnunluğu” ideyasının geniş tətbiqinə, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan vermişdir. Yeni, müasir, şəffaf və çevik xidmət növü vətəndaşların dövlətə olan inam və etimadını, güvənini daha da artırmaqla yanaşı, ölkə rəhbərinin neqativ hallara qarşı mübarizədə prinsipial siyasi iradə nümayişinin bariz təcəssümü olmuş, respublikamızın beynəlxalq arenada nüfuzu daha da yüksəlmişdir.

Ümumiyyətlə, respublikamızda həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək cəmiyyətin sosial sifarişini əks etdirir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, sosial-liberalizm xətti cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Sahibkarlığın sürətli inkişafı, bazar münasibətləri şəraitində qiymətlərin optimallaşdırılması əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Hər bir islahatın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

2018-ci ilin 11 aprelində ölkəmizdə keçirilmiş prezident seçkilərindən sonra vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində tədbirlər genişləndirilmişdir. Yeni mərhələdə aparılan islahatların əsas hədəfi xüsusən də aztəminatlı və həssas əhali qruplarının ölkədəki inkişaf proseslərindən daha dolğun və hərtərəfli şəkildə bəhrələnmələrinə şəraitin yaradılmasıdır. 2020-2021-ci illərdə koronavirus pandemiyası səbəbindən bir sıra region ölkələrində iqtisadi artımın zəifləməsinə rəğmən Azərbaycanda ümumi daxili məhsulun 4,8 faizlik artımı qarşıdakı dövr üçün ciddi sosial tədbirlərin gerçəkləşdirilməsinə imkan yaratmışdır.

Dünyada pandemiya ilə əlaqədar qlobal-iqtisadi böhranın müşahidə olunduğu və bu prosesin ölkəmizə də təsirsiz keçmədiyi bir şəraitdə Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin uğurlu sosial-iqtisadi inkişafını təmin etmişdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “2021-ci ilin ilk 9 ayı: İqtisadi Artımın bərpası və Post Konflikt Quruculuğu” hesabatına əsasən, 2021-ci ilin may ayından etibarən Azərbaycanda iqtisadi geriləmə dayanmış, respublikamız inkişaf baxımından pandemiyadan əvvəlki səviyyəyə yüksəlmişdir. Lakin bu da danılmaz həqiqətdir ki, məhdudlaşdırıcı tədbirlərin aradan qaldırılması fonunda dünyada enerji daşıyıcılarının qiymətinin və məcmu tələbin artması, iqtisadi fəallığın dinamikası əmtəələrin qiymət artımına da səbəb olmuşdur. Yaranmış vəziyyətdə hökumət vətəndaşlara, xüsusən də aztəminatlı, həssas qruplardan olan insanlara dəyən maddi ziyanın kompensasiyası üçün bütün zəruri tədbirləri reallaşdırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 oktyabr 2021-ci il tarixli “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” sərəncamı əhalinin sosial müdafiəsi tədbirləri baxımından xüsusilə əhəmiyyətli olmuşdur. Dövlət başçısının müvafiq sərəncamları ilə bu günlərdə minimum əməkhaqqının, sosial ödəniş, müavinət və təqaüdlərin, bir sıra müəssisələrdə çalışan vətəndaşların məvaciblərinin artırılması bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

“Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanuna əsasən, ilk dəfə olaraq 29,9 miyard manat təşkil edəcək büdcə xərclərinin 13,9 mlrd. manata yaxını və ya 46,4 faizə qədəri sosial təyinatlı olacaqdır. 2021-ci illə müqayisədə sosial xərclər 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılmışdır. Sosial xərclərin büdcədəki xüsusi çəkisinin bu səviyyəyə yüksəlməsi Azərbaycanın sosialyönümlü siyasət yürütdüyünü bir daha təsdiqləyir.

2022-ci ildə büdcə gəlirlərinin mühüm bir hissəsi qeyri-neft sektorunun payına düşəcək - gəlirlərin 52,4 faizini neft sektoru, 47,6 faizini qeyri-neft sektoru təmin edəcəkdir. Büdcə gəlirlərinin formalaşmasında qeyri-neft sektorunun, sahibkarlar sinfinin payının ildən-ilə yüksəlməsi hökumətin həyata keçirdiyi iqtisadi diversifikasiya siyasətinin, biznes mühitinin sağlamlaşdırılması tədbirlərinin real nəticələridir.

Vətən müharibəsindən sonra azad edilmiş ərazilərin bərpa və yenidənqurulması tədbirlərinin prioritet məsələlərdən olmasına baxmayaraq, hökumət əhalinin sosial müdafiəsi tədbirlərinə, sosial siyasətin reallaşdırılmasına yenə də mühüm məsələ kimi yanaşır. Əslində hökumətin son 18 ildə həyata keçirdiyi bir çox layihələr sosial mahiyyəti ilə diqqəti cəlb etmişdir. Dəniz səviyyəsindən 3000 min metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə yolun, sovetlər dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərlərinin çəkilməsi, eləcə də Naxçıvanın davamlı olaraq elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya-idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin ləğvi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələrinin çox cüzi qismidir.

Növbəti il üçün büdcə siyasətinin əsas məqsədləri əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, işğaldan azad edilmiş ərazilərin bərpası, qeyri-neft sektorunun dayanıqlı inkişafına, makroiqtisadi vəziyyətin sabit saxlanılmasına və dinamik inkişafın stimullaşdırılmasına nail olmaqdan ibarətdir. 2022-ci ilin dövlət büdcəsi layihəsi sosial-infrastruktur layihələri, habelə pandemiya şəraitində təminatlı sosial müdafiə tədbirləri ilə yanaşı, ölkəmizin müdafiə və təhlükəsizlik xərclərinin artırılmasını da hədəfləyir ki, bu da obyektiv reallığın diktə etdiyi zərurətdir. İcmal büdcə proqnozuna əsasən, gələn il müdafiə və təhlükəsizlik xərclərinin 4 milyard 499 milyon 238,9 min manat təşkil edəcəyi gözlənilir.

Hərbi xərclərin artırılmasını zərurətə çevirən başlıca amillərdən biri də işğaldan azad edilmiş ərazilərdə yeni hərbi hissələrin, qərargahların, istehkam-müdafiə qurğularının, sərhəd zastavalarının yaradılması, habelə Ermənistan və İranla sərhəd ərazilərdə etibarlı təhlükəsizlik çətirinin formalaşdırılmasıdır.

Əminliklə deyə bilərik ki, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin inamla davam etdirilməsi 2020-ci ildə üzləşdiyimiz ədalətsiz münaqişənin güc yolu ilə Azərbaycanın maraqlarına uyğun həllinə gətirib çıxarmışdır. 2003-cü ildən bu yolda addım-addım irəliləyən Prezident İlham Əliyev Azərbaycan xalqını illərdir həsrətində olduğu Qələbə sevincinə qovuşdurmuşdur. Son 18 ildə çevik xarici siyasət yürüdən Azərbaycan Respublikasının xarici siyasətdə müəyyənləşdirdiyi əsas hədəflərdən biri də Ermənistanın təcavüzkarlıq siyasətinin qlobal miqyasda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün doğurduğu təhdidlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olmuşdur. Respublikamız diplomatik fəaliyyət sferasında məhz hücum taktikasından çıxış edərək, Ermənistanın və ermənipərəst dairələrin yalan üzərində qurulmuş saxta təbliğatını ifşa etmişdir. İqtisadi-siyasi, təbliğati müstəvilərdə üstünlüyü ələ alan respublikamız 44 günlük Vətən müharibəsinin başlanmasına qədər Ermənistanın işğalçı siyasət yürüdən, özünü qlobal iqtisadi layihələrdən təcrid edən, Cənubi Qafqazda təhlükəsizliyi təhdid edən və sülh danışıqlarını pozmağa çalışan dövlət kimi tanınmasına nail olmuşdur.

44 günlük Vətən müharibəsinin başa çatmasından bir ildən çox vaxtın keçməsinə baxmayaraq, bu gün də hər bir azərbaycanlı dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbənin sevincini yaşayır, torpaqlarımızın işğaldan azad edilməsindən fəxarət hissi keçirir. Azərbaycan 30 illik barışmaz mübarizə mərhələsinin məntiqi yekunu olaraq, beynəlxalq hüquq normalarını, BMT qətnamələrinin icrasını məhz döyüş meydanında - “dəmir yumruğ”u sayəsində bərpa etmişdir.

2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı Prezident İlham Əliyev demişdir: “Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır”.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2021-ci il iyulun 7-də imzaladığı “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmanı ilə tarixi haqsızlığa son qoyulmuş, “Dağlıq Qarabağ” termini tarixin arxivinə gömülmüşdür. Tərkibinə Xankəndi şəhərinin, habelə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının daxil olduğu Qarabağ iqtisadi rayonunun yaradılması, eləcə də Cəbrayıl, Kəlbəcər, Laçın və Zəngilan rayonlarını birləşdirən Şərqi Zəngəzur iqtisadi rayonunun formalaşdırılması Azərbaycanın birliyinin və bölünməzliyinin bir daha təsdiqi olmuşdur.

Vətən müharibəsindəki Zəfərdən sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin Cənubi Qafqaz regionunda abad, müasir zonaya çevriləcəyini bəyan etmişdir. Qısa zamanda regionda mühüm infrastruktur layihələrinin icrasına başlanılması, Tərtərdən Suqovuşana və Talış kəndinə, eləcə də Füzulidən Şuşa şəhərinə yeni yolların çəkilməsi, Füzuli Beynəlxalq Hava Limanının qısa müddətdə tikilərək istifadəyə verilməsi, Zəngilan və Laçın beynəlxalq hava limanlarının təməlinin qoyulması, Horadiz-Ağbənd dəmir yolu xəttinin bərpasına başlanılması, “ağıllı kənd”, “ağıllı şəhər”, “yaşıl enerji” kimi innovativ layihələrin reallaşdırılması və digər tədbirlər dövlət başçısının işğaldan azad edilmiş ərazilərimizin bərpasına və yenidənqurulmasına həssas münasibətinin göstəriciləridir.

30 ilə yaxın müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən iqtisadi təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaqdır. Görülən işlər deməyə əsas verir ki, yaxın illərdə işğaldan azad edilmiş ərazilərdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, həyata keçirilən quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını möhkəmləndirəcək, Azərbaycanın inkişafında yeni mühüm mərhələ açacaqdır.

Prezident İlham Əliyevin müharibədən sonra dəfələrlə bəyan etdiyi kimi, bu gün Ermənistanın üzləşdiyi sosial-iqtisadi böhrandan çıxmasının yeganə yolu Azərbaycanın ərazi bütövlüyünü tanımaq, qonşu dövlətlərə qarşı əsassız ərazi iddialarından əl çəkmək, revanş iddialarından, işğalçı ideologiyadan imtina etməkdir. Yalnız bu cür konstruktiv yanaşma əsasında sərhədyanı ərazilərdəki hərbi münaqişələrə birdəfəlik son qoyulması, qarşıdurma riskinin aradan qaldırılması, münaqişə səhifəsinin birdəfəlik bağlanması mümkündür.

Ermənistan 30 ildən çox müddətdə işğalçı siyasət yürüdərək özünü regional layihələrdən təcrid etsə də, heç bir məqsədinə nail ola bilməmişdir. Bu gün faktiki olaraq Ermənistan regionda müstəqilliyini tamamilə itirmiş, müstəmləkə altında olan dövlətə çevrilmişdir. Prezident İlham Əliyev bununla bağlı haqlı olaraq demişdir: “Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu”.

2022-ci ilin dövlət büdcəsində diqqəti cəlb edən mühüm məqamlardan biri də işğaldan azad edilmiş Azərbaycan ərazilərinin bərpası və yenidənqurulması, habelə burada mühüm sosial-infrastruktur layihələrinin reallaşdırılması tədbirləri üçün 2,2 milyard manat həcmində maliyyə vəsaitinin nəzərdə tutulmasıdır. Bunda məqsəd işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin yüksək dimanizmlə və keyfiyyətlə aparılması, müvafiq sosial-iqtisadi, enerji, kommunal və nəqliyyat infrastrukturunun yaradılması, doğma yurdlarına qayıdacaq vətəndaşların normal yaşayışı və işgüzar fəaliyyəti üçün yüksək şəraitin yaradılmasıdır. Ayrılmış vəsaitin müəyyən qismi eyni zamanda qeyd olunan ərazilərdə müasir inzibati infrastrukturun yaradılmasına, şəhərsalmaya, mədəni-tarixi abidələrin bərpası və yenidənqurulmasına yönəldiləcəkdir.

Hazırda qarşıda duran əsas vəzifələrdən biri də azad edilmiş ərazilərin zəngin resurslarından, infrastruktur potensialından səmərəli istifadə, bu məqsədlə dövlət-özəl sektor tərəfdaşlığının təmin edilməsidir. Dövlət əlverişli biznes mühiti yaratmaqla, həmin ərazilərdə iqtisadi fəaliyyətin canlandırılmasına və dayanıqlı məskunlaşmanın təmin olunmasına çalışır. Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamı işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının səmərəli realizəsi baxımından bir sıra stimullaşdırıcı tədbirləri özündə ehtiva edir. Sərəncam əsasında həyata keçiriləcək tədbirlər həmin ərazilərdə iqtisadiyyatın canlandırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi, müasir istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi və sənaye potensialının reallaşdırılması baxımından əhəmiyyətli olacaqdır.

Sərəncam azad edilmiş ərazilərdə iqtisadi fəaliyyət üçün optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması, əlverişli sahibkarlıq mühitinin formalaşdırılması baxımından bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Sənəd əsasında işğaldan azad edilmiş ərazilərdə əmək resurslarının səmərəli idarə olunması, emal sənayesi və xidmət infrastrukturunun yaradılması məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi nəzərdə tutulur. Bu, həmin ərazilərə həm yerli, həm də xarici investisiyaların təşviqi və cəlbi baxımından yeni imkanlar açır.

Sənəddə işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, istehsal fəaliyyəti ilə məşğul olacaq sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi nəzərdə tutulur. Digər stimullaşdırıcı addım işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsidir.

Sərəncam müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsini, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsini və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsini nəzərdə tutur. Bu və digər güzəştlər gələcəkdə gənc və yüksəkixtisaslı kadrları azad edilmiş ərazilərdə işləməyə həvəsləndirəcək. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi də sərəncamda əksini tapan mühüm məqamlardan biridir.

Xüsusi vurğulamaq istərdik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən abadlıq-quruculuq işlərinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyeva da layiqli töhfələrini verir. Dövlətimizin başçıcı cənab İlham Əliyevi işğaldan azad edilmiş ərazilərə səfər zamanı müşayiət edən birinci xanım Mehriban Əliyeva özünəməxsus səmimiyyətlə paylaşımlar edir, ictimai diqqəti erməni vandalizminin ağır fəsadlarına yönəldir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihə və tədbirlər barədə ictimaiyyətə müəyyən mesajlar, məlumatlar verir.

Heydər Əliyev Fondu Qarabağda, xüsusilə Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin, dini ziyarətgahların təmiri və bərpası prosesində yaxından iştirak edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, mütəxəssislər qrupu işğaldan azad olunan ərazilərdə ermənilər tərəfindən dağıdılmış dini abidələrin, məscidlərin bərpasına dair layihənin icrasına başlamışdır.

Birinci vitse-prezidentin göstərişi əsasında Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizi diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Fondun dəstəyi ilə Vətən müharibəsində ağır yaralanan bir neçə qazimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilmiş və müasir protezlərlə təmin edilmişlər.

*İslahatlar və abadlıq-quruculuq prosesində Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Dövlət rəhbərinin müəyyən etdiyi prioritetlərin icrasına ümumxalq dəstəyi hər addımda özünü qabarıq göstərir. Bu gün Azərbaycan xalqı cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanımızın parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir.*

**Qüdrət KƏRİMOV,**
***“Xəzər” QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Milli inkişafın və böyük Zəfərin müəllifi

### Gəncə Avtomobil Zavodunda ilk avtomobilin konveyerdən çıxmasından 17 il ötür

*Ötən il Vətən müharibəsində qazanılan möhtəşəm hərbi və siyasi Zəfər Azərbaycanın müstəqillik, eləcə də dövlətçilik tarixinin şanlı salnaməsinə çevrildi. Bu qələbə ilk növbədə, xalqımızın Ulu Öndəri Heydər Əliyevin müəyyən etdiyi və bu gün cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasi kursun dövlətimizin və xalqımızın milli maraqlarını qətiyyətlə təmin etdiyini göstərdi.*

#### İnkişafın təntənəsi

Bu zəfər həm də Azərbaycanın keçdiyi inkişaf yolunun təcəssümü oldu. Ulu Öndərin təməlini qoyduğu inkişaf siyasətini layiqincə davam etdirən, bu siyasəti müasir reallıqlara uyğun olaraq daha da zənginləşdirən möhtərəm İlham Əliyev Azərbaycanı iqtisadi baxımdan inkişaf etdirməklə, dövlətimizin maliyyə imkanlarını əhəmiyyətli dərəcədə artırmaqla həm də torpaqlarımızın azad edilməsi üçün münbit tarixi şəraitin formalaşdırılmasını təmin etdi. Beləliklə, Vətən müharibəsi həm də Azərbaycanın inkişafının təntənəsinə çevrildi.

Respublikamızın inkişafından bəhs edərkən iki məqamı xüsusən qeyd etməliyik. Bunlardan biri iqtisadiyyatın neftdən asılı olmayaraq inkişafı və sənayeləşmə, digəri isə regionların yüksəliş yoluna çıxarılmasıdır. Bu iki amil ötən 18 ildə Prezident İlham Əliyevin inkişaf strategiyasında prioritet istiqamətləri təşkil etmiş və ildən-ilə əldə edilən uğurların miqyasının artması ilə özünü daim doğrultmuşdur. Bu strategiyanın uğurla həyata keçirilməsi ötən 18 ildə Azərbaycanda iqtisadi inkişafı yeni mərhələyə qaldırmış, regionların yüksəlişini təmin etmiş, o cümlədən sənayeləşməni gücləndirmişdir.

Regionlarda hələ sosial-iqtisadi inkişafa dair ilk dövlət proqramının təsdiq olunduğu 2004-cü ildən bəri çoxsaylı iri sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Böyük strateji əhəmiyyətə malik sənaye müəssisələrindən biri də Gəncə Avtomobil Zavodudur.

#### 24 dekabr 2004: zavodun tarixinin ən əlamətdar günü

Xatırladım ki, əsası Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Gəncə Avtomobil Zavodunun tikintisinə 1986-cı ildə başlanmışdır. Həmin vaxt bu qərar Ermənistanda narazılıq və qısqanclıqla qarşılansa da, Ulu Öndər Heydər Əliyevin nüfuzu və möhkəm iradəsi sayəsində zavodun təməli Azərbaycanda, Gəncədə qoyuldu. Müəssisənin tikintisi 1989-cu ildə başa çatdırılmalı, 1990-cı ilin əvvəlindən isə artıq 1,5 tonluq yük avtomobillərinin istehsalına başlanmalı idi. Lakin sovetlər birliyinin dağılması nəticəsində zavodun tikintisi yarımçıq qaldı.

Regionların inkişafında başlanan yeni mərhələ və Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində 2004-cü ilin dekabrında Gəncə Avtomobil Zavodu işə salındı. Həmin vaxt ilk olaraq Rusiyanın Naberejnıye Çelnı şəhərində yerləşən avtomobillərin istehsalı üzrə zavodla bağlanmış müqaviləyə əsasən "VAZ-11113"-"OKA" markalı avtomobillərin yığımına başlandı. 2004-cü il dekabr ayının 24-də isə müəssisənin konveyerində yığılan ilk avtomobil hazır oldu və bu əlamətdar hadisə şəhər səviyyəsində təntənəli şəkildə qeyd edildi.

Zavodun birinci məhsulu Qarabağ müharibəsi, habelə Böyük Vətən müharibəsi iştirakçılarına - əlillərə və veteranlara təqdim olundu. Ölkənin müxtəlif bölgələrində yaşayan 120 nəfər bu kateqoriyadan olan şəxs Gəncə avtozavodunda yığılan "OKA" avtomobillərinə sahib oldular. Ümumilikdə isə müəssisədə 314 "OKA" avtomobili istehsal olundu.

İlk addımlarını müvəffəqiyyətlə atan Gəncə Avtomobil Zavodu 2005-ci ildə "UAZ" ASC ilə imzalanan razılaşmaya əsasən Rusiyanın "UAZ" avtomobillərinin 10 modelinin yığımına başladı. Bir il müddətində 243 ədəd "UAZ" avtomobili yığılaraq istifadəyə verildi.

Gəncə Avtomobil Zavodu ilə 2005-ci ilin oktyabr ayında Çinin "Can Qan" şirkəti arasında müqavilə imzalandı. Bu sənədə əsasən müəssisədə 7 modeldə ortatonnajlı yük maşınlarının yığımına başlanıldı. Bir il müddətində ümumilikdə 68 "Can Qan" markalı avtomobil yığılaraq istifadəyə verildi.

#### Belarusla uğurlu əməkdaşlıq davam edir

2006-cı ildən müəssisənin həyatında yeni bir səhifə açıldı. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin oktyabrında Belarusa səfəri zamanı bu ölkənin traktor və avtomobil zavodları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlığın yaradılması barədə Belarusun dövlət başçısı ilə razılığa gəlindi və həmin müəssisələrlə uzunmüddətli əməkdaşlıq müqaviləsi bağlanıldı. Müqaviləyə uyğun olaraq 2007-ci ilin mart ayında Belarusdan daxil olan komplektləşdiricilərin əsasında "Belarus" traktorlarının müxtəlif modellərinin istehsalına başlanıldı. Həmin ilin aprel ayından isə "MAZ" avtomobillərinin yığımı təşkil olundu. 2018-ci ilin aprelində müəssisədə onmininci traktor istehsal edildi. Bütövlükdə 2007-ci ildən etibarən bu zavodun bazasında 11 mindən artıq traktor, eləcə də məşhur Belarus brendlərinə aid 3,5 minə qədər digər texnikalar yığılıb.

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Belarus-Azərbaycan birgə iqtisadi əlaqələri çərçivəsində fəaliyyətini son illərdə xeyli genişləndirib. Belə ki, 2019-cu ildən Belarusun elektrik avtobuslarının və taxılyığan kombaynlarının Gəncədə birgə istehsal olunması barədə razılıq əldə olundu. Elektrobuslar həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəlidir. 83 sərnişin üçün nəzərdə tutulan və 60 kilometr-saat sürətlə hərəkət edən elektrobusun akkumulyatoru enerjidoldurma stansiyası tərəfindən 6 dəqiqə ərzində tam doldurulur və enerji bərpa olunur. Gəncə Avtomobil Zavodu Azərbaycanın bütün şəhər və rayonlarını müasir nəqliyyat vasitələri olan elektrobuslarla təmin etmək gücündədir. Müəssisədə il ərzində 150 elektrobusun yığılması mümkündür. Əgər aidiyyəti qurumlardan sifarişlər olarsa, müəssisəmiz tələbata uyğun istənilən modeldə olan şəhərarası və şəhərlərarası avtobusların yığımını həyata keçirə bilər.

Hazırda Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Belarusun aparıcı maşınqayırma şirkətləri ilə sıx əməkdaşlıq edir. Bu il aprelin13-14-də Belarus Prezidenti Aleksandr Lukaşenkonun Bakıya işgüzar səfəri zamanı bağlanılan ikitərəfli əməkdaşlıq sazişi çərçivəsində daha bir neçə rəsmi müqavilə imzalanıb ki, bu da müəssisəmizin istehsal həcminin artmasında xüsusi rol oynayacaq. Müqavilələrə əsasən, Gəncədə 1000 ədəd traktorun, BELAVTOMAZ Konserni ilə isə ağır tonnajlı avtomobilin yığılması təmin olunacaq.

Zavodda yeni müasir kombaynların yığılmasına da başlanılıb. Bu layihənin icrası Finlandiyanın tanınmış "Sampo" firması ilə əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilir. Bu texnika Azərbaycan şəraitində özünü kifayət qədər doğrultmaqla fermerlərin marağına səbəb olacaq.

#### Cəbrayılda birgə servis mərkəzi yaradılır

Rusiya müəssisələri ilə də uğurlu əməkdaşlığımız davam edir. Bağlanmış müqavilələrə əsasən artıq bir neçə ildir ki, "KamAZ" və "Ural" markalı yük maşınlarının da yığılması həyata keçirilir. "KamAZ" ASC-nin Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi ilə birgə layihəsinə 2014-cü ildə start verilib. Respublikamızda "KamAZ"ın ilk partiyası 2015-ci ildən satışa buraxılıb. Hazırda Gəncədə 8 model "KamAZ" avtomobillərinin istehsalına nail olunub və indiyədək 1000-dən çox avtomobil istismara verilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi torpaqlarımızın işğaldan azad edilməsi kənd təsərrüfatı texnikasına, eləcə də digər texnikalara və texniki xidmətlərə tələbatı artırıb. Bu baxımdan Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "KamAZ" ASC ilə Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlinin qoyulması xüsusi əhəmiyyət daşıyır. Layihə bu ilin iyul ayında Rusiya şirkətlərinin nümayəndələrinin Azərbaycana işgüzar missiyası çərçivəsində Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi ilə "KamAZ" ASC arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq həyata keçiriləcək.

Azərbaycanda aparılan tikinti-quruculuq işlərində, həmçinin kənd təsərrüfatında istifadə edilən maşın və texnikalara olan ehtiyacın ödənilməsində Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin fəaliyyəti önəmli rol oynayır. Xarici tərəfdaşlarla səmərəli əlaqələr qurulması nəticəsində zavod istehsal olunan maşın və texnikaların çeşidini ildən-ilə artırır.

17 il bundan öncə dövlətimizin başçısının qayğısı nəticəsində ərsəyə gətirilən Gəncə Avtomobil Zavodu hazırda həm istehsalına, həm də iqtisadi və maliyyə göstəricilərinə görə respublikamızda öndə gedən sənaye müəssisələrindən biridir. Bu illər ərzində cənab Prezident İlham Əliyevin diqqət və qayğısını üzərimizdə hiss edərək müəssisədə istehsal sahələrinin yüksələn xətlə genişləndirilməsinə nail olduq. Əgər 2004-cü ildə 80 işçi ilə işə başlamışdıqsa, bu gün onların sayı 600 nəfərdən çoxdur.

*Möhtərəm Prezidentin müəssisənin fəaliyyətinə verdiyi yüksək qiymət irəliləməyimizə imkan vermişdir. Gəncə Avtomobil Zavodu bundan sonra da fəaliyyətini uğurla həyata keçirəcək, Azərbaycan maşınqayırma sənayesinə öz töhfələrini verməkdə davam edəcək.*

**Xanlar FƏTİYEV,**
***Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin Müşahidə Şurasının sədri***



## Müxalifət partiyalarından Prezidentə tam dəstək:

## "İlham Əliyev hamımızı bir bayraq altında, "Dəmir yumruq" kimi birləşdirdi"

*Əvvəli 1-ci səh.*

Dünya siyasətinin ən fəal şəxslərindən olan, bütün siyasi platformalarda ehtiramla qarşılanan İlham Əliyev həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçməsini təmin edən, Zəfər qazanan Müzəffər Ali Baş Komandandır.

İkinci Qarabağ müharibəsində qazandığı zəfərlə regionun yeni tarixinin müəllifinə çevrilən İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində yürütdüyü xarici siyasət ölkəmizi regional və qlobal miqyasda geosiyasi, geoiqtisadi aktorlardan birinə çevirib. Azərbaycanın dünyadakı beynəlxalq proseslərə təsir gücünə malik olan dövlətlərdən birinə çevrilməsi də məhz İlham Əliyevin uğuru, onun qətiyyətli, məqsədyönlü siyasətinin nəticəsidir.

#### Ən böyük tarixi xidmət

**Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev**in fikrincə, İlham Əliyevin xalqımız və dövlətimiz qarşısındakı ən böyük xidməti ölkəmizi mürəkkəb ictimai-siyasi proseslərin içərisindən uğurla keçirərək Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə nail olmasıdır. Onun Rusiya ilə münasibətdə yürütdüyü uğurlu siyasət, Azərbaycana ən çətin anlarda belə güvənə biləcəyimiz dost dövlətlər qazandırması, qardaş Türkiyə ilə Türk Dünyasının birliyi istiqamətində göstərdiyi səylər xüsusi qiymətləndirilməlidir.

Deputat deyir ki, Azərbaycan xalqı İlham Əliyevi ilk dəfə ölkəmizin ağır günlərində - "20 Yanvar" qətliamından sonra Heydər Əliyevin qırğını törədənləri lənətləyib, cinayətkarların cəzalandırılmasını tələb etdiyi tarixi mətbuat konfransında, onunla çiyin-çiyinə dayanıb bu qırğına etiraz edən şəxs kimi gördü. Həmin zaman çoxları bunun çox riskli bir iş olduğunu başa düşsə də, onun gələcəkdə böyük siyasətə qatılıb-qatılmayacağını, hadisələrin necə nəticələnəcəyini təsəvvürlərinə belə gətirə bilməzdilər. O gündən xalqımız Azərbaycanın müstəqilliyinin, suverenliyinin əldə olunması və qorunması, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda uzun və məşəqqətli bir mücadilə yolu keçdi. Bu yolda İlham Əliyev Heydər Əliyevin yaxın silahdaşı kimi onunla birlikdə addımladı. Heydər Əliyevin liderliyi ilə Azərbaycanın qarşısında dayanan ən böyük problemlərin həllinə yol açacaq enerji strategiyamızın müəyyənləşməsi və həyata keçirilməsində mühüm rol oynadı.

#### Müasir Azərbaycanın zəfər salnaməsini yaradan şəxsiyyət

**Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova** deyir ki, 2003-cü ildə xalqının mütləq iradəsi əsasında hakimiyyətə gələn, "Mən hər bir azərbaycanlının Prezidentiyəm" tezisini şüar edən, hər bir azərbaycanlını vahid məqsəd, amal uğrunda birləşdirən Prezident İlham Əliyev müasir Azərbaycanın zəfər salnaməsini yaradan şəxsiyyət, Azərbaycan xalqının arzularını həyata keçirən, dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən liderdir. İlham Əliyev ilk dəfə dövlət başçısı seçilərkən qarşıya qoyduğu strateji hədəflərə nail olmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü siyasət həyata keçirib və "güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail olub: "18 ildir ki, güclü iqtisadiyyat Azərbaycanın milli maraqlar üzərində qurulan prinsipial siyasətinin təməlində dayanan əsas amildir. Özünün iqtisadi və siyasi müstəqilliyini tam təmin etməsi Azərbaycanın tarixi nailiyyətidir. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev "Dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq", - deyə vurğulayıb. Prezidentin siyasi iradəsinə uyğun olaraq bu gün dövlətin ən çətin anlarda vətəndaşının yanında olması ənənəsi formalaşıb".

Ə.Kazımova bildirir ki, düşməni kapitulyasiya aktı imzalamaq məcburiyyətində qoyması Azərbaycan Prezidentinin tarix və xalq qarşısında ən böyük xidməti oldu. Azərbaycanın son 200 illik tarixində qazandığı ən böyük uğur Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi, təmkini və böyük siyasi dühası sayəsində əldə olundu: "Dövlət başçısı Qarabağ münaqişəsinin tarixi ədalət və beynəlxalq hüquq normaları çərçivəsində həlli üçün mümkün olan hər şeyi edirdi. Prezident İlham Əliyev bu məqsədlə beynəlxalq platformalarda, siyasi müstəvidə Azərbaycanın ədalətli mövqeyini özünəməxsus diplomatik məharətlə əsaslandırırdı. Dövlət başçısının Münxen Təhlükəsizlik Konfransında, "Valday" Diskussiya Klubunda işğalçı dövlətin Baş nazirinə verdiyi tarix dərslərini hər kəs yaxşı xatırlayır. Həmin tədbirlərdə Nikol Paşinyan dərsini yaxşı bilməyən uşaq durumunda qalırdı".

Ə.Kazımova qeyd edir ki, Vətən müharibəsinin şanlı zəfəri Azərbaycan dövləti və xalqı üçün yeni bir gələcək, yeni bir inkişaf mərhələsi yaratdı. Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, Cənubi Qafqazın yeni inkişaf yolu məhz İlham Əliyevin adı ilə bağlıdır. Mahir siyasətçi, qətiyyətli lider kimi Prezident İlham Əliyev öz xalqının iradəsini, milli maraqlarını bütün cəbhələrdə tam şəkildə ifadə və müdafiə edir. Soçidə, Brüsseldə Azərbaycan öz qələbəsinin siyasi təməllərini daha da möhkəmləndirməkdədir.

#### Prezident İlham Əliyev Azərbaycanı qalib ölkə etdi

**Azəbaycan Milli İstiqlal Partiyasinin sədri Arzuxan Əlizadə** hesab edir ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü işlərin zirvəsində birmənalı olaraq, ərazi bütövlüyümüzün bərpası dayanır: "Bu, bir həqiqətdir ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi və bu qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Məlum həqiqətdir ki, müharibəni qalibiyyətlə başa vurmaq üçün güclü, nizamlı və müasir silahlarla silahlanmış orduya malik olmaq başlıca şərtdir. İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövr ərzində bu sahəyə ciddi önəm verib, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu hazırda dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Bu Ordu Vətən savaşında dünyanı heyrətə salan hərbi uğurlara imza atdı, 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu".

A.Əlizadənin qənaətinə görə, qələbəni şərtləndirən mühüm amillərdən biri Azərbaycan Prezidentinin diplomatiya müstəvisində yürütdüyü çevik siyasətdir: "Müharibənin gedişində dövlətimizin başçısı xarici KİV-ə 30-a yaxın müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin bir daha beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynadı. Əldə edilən uğurlar sırasında siyasi və iqtisadi imkanların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edib ki, bununla Azərbaycanın beynəlxalq arenadakı mövqeləri ciddi surətdə möhkəmlənib. Regionda reallaşdırılan bütün beynəlxalq və irimiqyaslı layihələr milli maraqlarımız nəzərə alınmaqla Azərbaycanın iştirakı ilə həyata keçirilir. Azərbaycan həm də bütün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib".

#### Azərbaycan Prezidenti tarixi missiyasının öhdəsindən layiqincə gəldi

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov** İlham Əliyevi məhz fövqəladə missiya üçün doğulmuş siyasi liderlərdən biri sayır. Partiya sədrinin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin siyasi varisi olan İlham Əliyev Vətən müharibəsindəki Qələbə ilə bu missiyanın öhdəsindən layiqincə gəldi. "Bu missiya ilk gündən işğala son qoymağı, tapdanmış qürurumuzu dirçəltməyi, xalqımızın tarixini məğlubiyyətlərdən qələbələrə doğru dəyişməyi özündə ehtiva edirdi. Bu hədəflərə nail olmaq üçün Prezdent İlham Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişafı üçün qətiyyətli siyasət yürütdü, nəhəng infrastruktur layihələr həyata keçirdi, Azərbaycanın beynəlxalq müstəvidə siyasi, iqtisadi proseslərdə iştirakçılıq imkanlarını genişləndirdi. Qeyri-neft sektorunun inkişafı və çoxşaxəli enerji siyasətinin həyata keçirilməsi nəticəsində siyasi, iqtisadi və digər istiqamətlərdə mövqelərimiz möhkəmləndi, davamlı inkişafımız təmin olundu, strateji hədəflərimiz gerçəkləşdi".

Əlisahib Hüseynov bildirir ki, Prezident İlham Əliyev bu hədəflərə müvəffəqiyyətlə nail olmaq üçün Azərbaycanın xarici siyasət və ordu quruculuğu istiqamətində misilsiz işlər gördü: "İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz əvvəlcə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, daha sonra 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının, Türk Şurasının (hazırda Türk Dövlətləri Təşkilatı) sədri seçildi. Bütün bunlar heç şübhəsiz ki, ölkəmizin və onun liderinin beynəlxalq miqyasda nüfuzunu daha da artırdı. Prezident İlham Əliyevin yürütdüyü çevik xarici siyasət eyni zamanda Azərbaycanın dünyadakı müttəfiqlərinin və dostlarının sayını artırdı. Dünya siyasətini, diplomatiya tarixini incəliklərinə qədər dərindən bilən bir lider üçün xarici siyasətdə qrossmeyestr ustalığı ilə vaxtında və düzgün gedişlər, manevrlər etmək heç də çətin deyildi. İlham Əliyevin məhz düzgün diplomatik səyləri nəticəsində beynəlxalq təşkilatlar və super güclər Ermənistanı işğalçı dövlət kimi tanıdı, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi".

Partiya sədri əlavə etdi ki, Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, güclü milli müdafiə sənayemiz, büdcədən ordu quruculuğuna ayrılan vəsaitin artırılması bizə dünyanın ən güclü ordularından birini yaratmaq imkanını verdi. İlham Əliyevin hakimiyyəti dövründəki uğurları ölkəmizi gündən-günə əsas hədəfə - Zəfərə yaxınlaşdırdı və onu təmin etdi: "Prezident İlham Əliyev ötən dövr ərzində həm siyasi lider, həm də Ali Baş Komandan kimi tariximizin ən şərəfli məqamına - torpaqlarımızın işğaldan azad edilməsi missiyasının icrasına hazırlaşdı. Əlbəttə, proseslərə böyük zaman ölçüsü ilə baxanda 44 gün çox qısa bir müddət olsa da, Azərbaycanın taleyini dəyişən şanlı tarixi hadisə kimi olduqca əhəmiyyətlidir. 44 günün hər bir dəqiqəsini, saatını hamımız yeni-yeni qələbə sorağı ilə, böyük həyəcan və səbirsizliklə gözləyirdik. XXI əsrin müharibəsini aparan Azərbaycan öz hərbi gücü, qüdrəti ilə bütün dünyaya səs saldı.

#### Vətən müharibəsində həmrəyliyin Azərbaycan nümunəsi dünyaya təqdim edildi

44 günlük müharibədəki qələbəmizin görünən tərəfləri ilə yanaşı, arxa qatları da var. Qələbənin qazanılmasında modern silahlanma, dronlar, ordumuzun döyüş hazırlığı, xarici dəstək, neft gəlirləri həlledici amillər kimi vacib rol oynasa da, qalibiyyət üçün milli həmrəylik və xalqımızın öz rəhbəri ətrafında səfərbərliyi də mühüm rol oynadı. Bu barədə danışan Milli Həmrəylik Partiyasının sədri Ə.Hüseynov bildirir ki, bu müharibədə zəfəri şərtləndirən amillərdən biri də milli birlik idi: "Ancaq bu birliyə nail olmağın yolu millətə rəhbərlik edən şəxsin liderlik qabiliyyətinə, birləşdiricilik potensialına malik olmasından keçir. İlham Əliyev 44 günlük müharibədə məhz bu potensialını ortaya qoydu. Həmin günlərdə dünya bizim Ordumuzun qəhrəmanlığına, dronlarımızın xariqələrinə, döyüş generallarımızın əməliyyat zəkasına heyran qalmışdı. Dünyanı heyrətdə buraxan ən başlıca xüsusiyyətlərimizdən biri də məhz milli həmrəyliyimiz idi. İlham Əliyev həmin günlərdə özünün bir sıra üstün keyfiyyətlərini üzə çıxarmaqla dünyanı həqiqətən də yaxşı mənada heyrətləndirə bildi. Onun hərbi əməliyyatlara birbaşa rəhbərlik etməsi, dünya KİV-inə tez-tez müxtəlif dillərdə müsahibələr verməsi, ermənilərin "feyk nyus" kampaniyalarını darmadağın etməsi, qardaş Türkiyə ilə əməkdaşlığımızı və birgə addımlarımızı düzgün koordinasiya etməsi və s. dostlarımızın da, düşmənlərimizin də diqqət mərkəzində idi. Amma bütün bunlarla yanaşı, dövlət başçımızın dünyanı heyrətə salan ən böyük nailiyyəti məhz müharibə şəraitində milli birliyi təmin edə bilməsi idi".

Prezident İlham Əliyev həmin günlərdə ölkənin ən müxtəlif spektrlərindən olan siyasi qüvvələri də bir araya gətirməyi bacardı. Bununla bağlı Ə.Hüseynov qeyd edir bu, gündən-günə Zəfərə yaxınlaşan İlham Əliyevin müharibə zamanı həm də siyasi qələbə qazanması demək idi: "İlham Əliyev Vətən müharibəsində həmrəyliyin Azərbaycan nümunəsini dünyaya təqdim etdi, hamımızı bir bayraq altında, "Dəmir yumruq" kimi birləşdirdi. Bizim həmrəyliyimizin ən böyük sınaq anı da məhz 44 günlük savaş idi. Biz həmin günlərdə bütün mifləri dağıtdıq. Ermənilərin həm özləri və orduları barədə formalaşdırdıqları "sarsılmaz xalq", "döyüşçü millət", "məğlubedilməz ordu" miflərini, həm də bizim barəmizdə yaydıqları "döyüşməyi bacarmayan tacir xalq", "məğlub azərbaycanlılar" kimi iyrənc təbliğat klişelərini, təbliğat çirkablarını alt-üst etdik. Dünya kimin kim olduğunu bir daha gördü. Dünya Azərbaycan xalqını qürurlu, məğrur, mübariz xalq kimi yenidən kəşf etdi. Azərbaycanlılar milli həmrəyliyin ən yeni tarixini yazdılar. Bu da ilk növbədə, məhz İlham Əliyevin adıyla bağlıdır, bir lider kimi bilavasitə onun nailiyyətidir".

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırlatdı, bu görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlərin müzakirə edildiyini və Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirdi.

Hüseyn Əmir Abdullahian İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

İranın xarici işlər naziri Prezident İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirdi. Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirildi və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olundu.

# Azərbaycan ilə Türkiyə arasındakı transmilli layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu var



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 22-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə inkişafından məmnunluq ifadə edilib. Cari ilin fevralında Ankarada keçirilmiş İqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 9-cu iclasında əldə olunmuş razılıqların iki ölkə arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi baxımından vacibliyi qeyd olunub.

Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunularaq birgə həyata keçirilən transmilli layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu xüsusi vurğulanıb.

Bakıda keçirilən Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu çərçivəsində aparılacaq müzakirələrin və imzalanacaq sənədlərin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 noyabr tarixli 574 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində ali hərbi (xüsusi) rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 noyabr tarixli 574 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 902; 2012, № 12, maddə 1300; 2018, № 12 (I kitab), maddə 2650) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində ali hərbi (xüsusi) rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Xorvatiya Respublikasının Maliyyə Nazirliyi arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il oktyabrın 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Xorvatiya Respublikasının Maliyyə Nazirliyi arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Xorvatiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndinin üçüncü abzasına "sənaye parkının" sözlərindən sonra ", sənaye məhəlləsinin və aqroparkın rezidentinin" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2021-ci il*

## C.E.Xanlarova 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"na və 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Eldar oğlu Xanlarova 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**

general-mayor İlham Əyyub oğlu Abdullayevə
general-mayor Şahmar Ənvər oğlu Paşayevə

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Adil Ələsgər oğlu Abdullayevə
polkovnik Əşrəf Məmməd oğlu Qasımova
polkovnik Raul Süleyman oğlu Zeynalova.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Türkiyənin energetika və təbii sərvətlər naziri Ulu Öndərin məzarını ziyarət edib



Bakıda keçirilən Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz Fəxri xiyabana gedərək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, dahi şəxsiyyətin əziz xatirəsi böyük ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb və məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gələn nazir Fatih Dönməz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edib, məzarları üzərinə güllər düzüb.

Həmçinin "Türk şəhidliyi" abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri qoyulub.





## Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb.

AZƏRTAC Nazirlər Kabinetinə istinadla xəbər verir ki, Baş nazir Əli Əsədov bu barədə qərar imzalayıb.

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 mart saat 06:00-dək uzadılıb.

## Bakıda Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin görüşü keçirilib

### "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli əməkdaşlıq planı" imzalanıb





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov dekabrın 21-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Gürcüstanın müdafiə naziri fəxri qarovulun önündən keçdikdən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Görüşdə general-polkovnik Zakir Həsənov birgə əməkdaşlığımızın yüksək səviyyədə olduğunu qeyd edərək bunun ölkələrimizin inkişafı ilə yanaşı, bütün regionda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığını xüsusi vurğulayıb. Birgə təlimlərin əhəmiyyətini qeyd edən nazir Gürcüstanda keçirilən "Eternity-2021" kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Müdafiə naziri həmkarına Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə görülən işlər barədə məlumat verib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən C.Burçuladze bunun ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsi olduğunu qeyd edib. Qonaq əməkdaşlığımızın genişləndirilməsi baxımından bu cür görüşlərin zəruriliyini xüsusi vurğulayıb.

Gürcüstanın müdafiə naziri Vətən müharibəsində qazanılan Qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin olunması münasibətilə Azərbaycan xalqını təbrik edib. O, regionda sülhün bərqərar olmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı tərəflər hərbi əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi, işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparıblar.

Görüşün sonunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli əməkdaşlıq planı" imzalanıb.

# Milli Məclisin Sədri İranın xarici işlər naziri ilə görüşüb



**Dekabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, spiker qonağı salamlayaraq onun ölkəmizə ilk səfərinin münasibətlərimizin daha da möhkəmləndirilməsinə yeni təkan verəcəyinə ümidvar olduğunu ifadə edib. Parlamentin Sədri qeyd edib ki, ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsi üçün yaxşı şərait mövcuddur. Münasibətlərimizin inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri və görüşləri, onların siyasi iradəsi mühüm rol oynayır. Yüksəksəviyyəli görüşlər zamanı aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər əlaqələrimizin hüquqi bazasını təşkil edir.

Sahibə Qafarova vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ermənistanın 30 illik işğalına son qoyaraq torpaqlarını qəsbkarlardan azad etdi. O, hazırda işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri haqqında məlumat verib.

Milli Məclisin Sədri parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlər sistemində rolundan danışaraq hər iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirib ki, deputatların qarşılıqlı səfərləri və mütəmadi görüşləri qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından önəmlidir.

Sahibə Qafarova deputatlarımızın nüfuzlu beynəlxalq qurumlarda səmərəli fəaliyyət göstərmələrini, müzakirə olunan məsələlərdə bir-birilərinə dəstək olduqlarını diqqətə çatdırıb. Qeyd edilib ki, bu yaxınlarda Madriddə Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi yaradılıb. Qurumun bu parlament ölçüsü təşkilata üzv ölkələri düşündürən məsələlərin müzakirəsi və prinsipial məsələlərdə vahid mövqedən çıxış etmək baxımından əhəmiyyətlidir. Milli Məclisin Sədri parlamentlərin bundan sonra da münasibətlərimizin inkişafına layiqli töhfə verəcəyinə inamını ifadə edib.

Səmimi görüşə görə minnətdarlığını bildirən İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Qonaq 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər münasibətilə Azərbaycan xalqını və Milli Məclisin Sədrini təbrik edərək ürək sözlərini söyləyib. Bildirib ki, onun ölkəsi Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib.

Hüseyn Əmir Abdullahian İranın iki ölkə arasındakı münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə daha da inkişafında maraqlı olduğunu deyib. Qeyd edib ki, hər iki dövlətin başçılarının siyasi iradəsi sayəsində münasibətlərimizdə keyfiyyətcə yeni mərhələ başlayıb.

O, yüksəksəviyyəli siyasi münasibətlərin digər sahələrə də müsbət təsir etdiyini söyləyib. Bildirilib ki, əməkdaşlığımızın daha da dərinləşməsinə parlamentlər də mühüm töhfə verir.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlərdən də danışılıb.

Görüşdə İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Əziz Ələkbərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə, bu ölkənin Azərbaycandakı səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

# *Hüseyn Əmir ABDULLAHİAN:* "İran Azərbaycanı ən yaxın dostlarından biri hesab edir"




"Biz son 4 ayda çox sıx əlaqə qurmuşuq, üç görüşümüz, mütəmadi telefon danışıqlarımız olub. Bu gün Prezident İlham Əliyevlə görüşümüz çox uğurlu keçdi və iki ölkə arasında əhəmiyyətli razılaşmalar əldə edildi. Bu razılaşmalar münasibətimizi daha da gücləndirəcək və inanıram ki, yaxın gələcəkdə öz səmərəsini verəcək".

AZƏRTAC xəbər verir ki, bunu İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə deyib.

Azərbaycanı ərazilərini işğaldan azad etməsi münasibətilə təbrik edən Hüseyn Əmir Abdullahian İranın ölkəmizi ən yaxın dostlarından biri hesab etdiyini vurğulayıb.

O bildirib ki, ölkələrimiz regional və beynəlxalq müstəvidə bir-birini dəstəkləyir.

Azərbaycan, Rusiya, Türkiyə və İran arasında yeni platformanın yaranacağını qeyd edən nazir bildirib ki, region ölkələrinin bölgədəki problemləri həll etməsi üçün kifayət qədər gücü var.

"İran müharibədən sonrakı təcrübəni nəzərə alaraq yenidənqurma layihələrində iştirakda maraqlıdır. Nəqliyyat-tranzit, habelə hərbi və siyasi sahələrdə əməkdaşlığımız davam edəcək", - deyə İran XİN-in başçısı qeyd edib.

# Sosial Tədqiqatlar Mərkəzi "Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" sorğusunun nəticələrini açıqlayıb





Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Sosial Tədqiqatlar Mərkəzinin həyata keçirdiyi sosioloji sorğu və tədqiqat layihəsinin nəticələri açıqlanıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" ictimai rəy sorğusu və sosioloji tədqiqatın nəticələrinə dair konfransda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, Milli Məclisin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, Mərkəz ictimai həyatın müxtəlif sahələri ilə bağlı aktual məsələləri araşdırmağa, tədqiqatlar aparmağa, gəldiyi nəticələri hakimiyyət institutlarına və cəmiyyətə çatdırmağa çalışır. Qeyd edilib ki, bu gün ailə institutu, milli dəyərlər sistemi fasiləsiz olaraq xarici təzyiqlərə məruz qalır. Ailə bizim varlığımızı hədəfə alan qlobal hücumlara qarşı qorunmalı olan ən müqəddəs ictimai strukturdur. Bütün alternativlərə qarşı hörmət, sevgi, anlayış kimi ən gözəl davranışların sərgiləndiyi ailə nümunələrinin, obrazlarının ictimailəşdirilməsi, qalib Azərbaycan ailələrinin kütləvi təbliği, bizi zirvələrə ucaldan qəhrəmanları yetirən valideynlərin, ailə tərbiyəsinin, mühitinin və təliminin ideallaşdırılması mühüm milli vəzifədir.

Sonra tədbirdə Azərbaycanda ailə münasibətlərinə dair videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, möhkəm təməllərlə qurulan ailələr bir qayda olaraq dövlətin güclü əsası rolunu oynayır. Ailə institutu dəyişən dünyanın lokal, qlobal təsirlərindən özünü qorumalıdır. Dünyada inkişafın və tənəzzülün səbəbi insan amili ilə bağlıdır. Bütün bunların faydası və ziyanları da insana birbaşa təsir edir. Demokratik dövlətlərin formalaşdırdığı modellər ailəni dünyanın regional və qlobal təsirlərindən qorumalıdır. Biz də bu yöndə inkişaf edən ailə modelləri üzərində işləməliyik ki, dəyişən dünyanın problemlərinin təsirini minimuma endirmək mümkün olsun.

Sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bir neçə vacib məqama toxunaraq deyib: "Bu il təyin edilmiş 400 min sosial müavinətin 30 faizi aztəminatlı ailələrin payına düşür. Əlli mindən çox aztəminatlı ailələr isə sosial müavinətlər alır. Bu da təxminən 200 min insan edir. Bunların yarıdan çoxu qadınlar və uşaqlardır.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda iqtisadi-sosial islahatlar davam etdirilir. İlk növbədə isə ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlər görülür. Bu da ailə münasibətlərinə müsbət təsir edən amillərdəndir. Buraya məşğulluq xidmətləri və sosial ödənişlər də daxildir. Növbəti illər üçün sırf sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası ilə bağlı yeni sənəd hazırlanıb. Bu, Milli Fəaliyyət Planıdır və növbəti 6 ildə icra olunacaq.

"Digər layihə isə övladlığa götürmə, valideyn himayəsindən məhrum olan uşaqlarla bağlıdır. 106 uşaq yeni ailələrə verilib. Ailələrin qiymətləndirilməsində elektron platformadan istifadə edilib.

Növbəti layihə himayədar ailə layihəsidir. Bu da uşaqların cəmiyyətə inteqrasiyası üçün vacibdir", - deyə nazir müavini bildirib.

Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov çıxışında deyib: "Mediasiya Şurasına indiyədək 9550 müraciət daxil olub. Bu müraciətlərdən 8515-i ailə mübahisələridir. Ümumi müraciətlərin 80 faizi ailə mübahisələri ilə bağlıdır. Bizim əsas məqsədimiz ailələri barışığa dəvət etməkdir".

Daha sonra çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova bildirib ki, Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" sorğusu ölkəmizdə ilk dəfə keçirilir və bu, bizim ailə barədə fikirlərimizi zənginləşdirəcək. Azərbaycan ailəsi onu hansı təhdidlərin müşayiət etdiyini biləcək. Bizim gənclərin ailə haqqında nə düşündükləri, onları hansı problemlərin gözlədiyi sorğuda müəyyən dərəcədə əhatə olunub.

O qeyd edib ki, digər aspektdən baxsaq, ailələr qlobal səviyyədə problemlərlə üzləşirlər. Dünyada qəbul olunan faktdır ki, ailə transformasiyadan keçir. Bu, hər zaman belə olub. Bəziləri hesab edirlər ki, ailə sistemi böhranlarla üz-üzədir. Ailə institutunda problemdən çıxmaq çətindir. Biz hazırda ailələrin problemlərin hansı hissəsində olduğunu sorğu nəticəsində qlobal aspektdən görəcəyik. Hər bir dövlət güclü ailənin formalaşmasında maraqlıdır. Bu da ailə dəyərlərinin qorunmasının zəruri olmasının göstəricisidir.

Çıxışlardan sonra Sosial Tədqiqatlar Mərkəzinin apardığı sorğu nəticələri təqdim olunub.

Qeyd edək ki, sorğu son illərdə Azərbaycan ailəsinin, ailədaxili münasibətlərin, ailə dəyərlərinin dinamikası və transformasiyasının qarşılıqlı təsir və əlaqədə araşdırılması, ailə məsələlərində ümumi mənzərənin, eləcə də dövlət ailə siyasətinin sistemli təqdim edilməsi aspektində, demək olar, ilk dəfə aparılıb.

# Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının iclası olub



Fondun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Müşahidə Şurasının sədri, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, Şuranın üzvləri - ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Milli Məclisin deputatı Fatma Yıldırım, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycanın Xalq artisti Alim Qasımov, eyni zamanda, fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev iştirak ediblər.

Tədbirdə fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev Müşahidə Şurasına gündəlikdə duran məsələlər barədə ətraflı məlumatı təqdim edib.

İclas iştirakçıları "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin strateji istiqamətləri (2022-2025)", "2022-ci il üzrə fandreyzinq və kommunikasiya planı", "Qrantın verilməsi qaydaları", "Fondun fəaliyyətinin standartları siyasəti"nin təsdiqi və Qarabağ Dirçəliş Fondunun kənar auditorunun seçilməsi kimi məsələlər barədə geniş müzakirələr aparıblar.

İclasın yekununda yuxarıda qeyd olunan sənədlər Müşahidə Şurası tərəfindən təsdiqlənib.

Qeyd edək ki, Müşahidə Şurası tərəfindən bir neçə auditor şirkətinin təklifləri nəzərdən keçirilib və PwC şirkəti fondun kənar auditoru kimi təsdiq olunub.

Görüşün sonunda Müşahidə Şurası fondun gördüyü işlər və fəaliyyət istiqamətləri barədə razılıqlarını ifadə edərək iclasda təqdim olunan digər məsələlərin növbəti iclasda müzakirəsi üçün müvafiq tapşırıqlar verib.

# *Ceyhun BAYRAMOV:* "İran azad olunmuş ərazilərdə reallaşdırılan layihələrlə bağlı marağını ifadə edib"



"Noyabrın 28-də Aşqabadda keçirilmiş görüş hazırkı dövrdə ölkələrimiz arasında münasibətlərdə xüsusi önəm daşıyır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında əməkdaşlığa dair müqavilələr imzalanıb. Bugünkü görüşdə ikitərəfli əlaqələrin inkişafı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq və digər mövzularda müzakirələr apardıq".

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə deyib.

Nazir bildirib ki, Azərbaycan ilə İran arasında iqtisadi ticarət əlaqəsi böyük önəm kəsb edir. 2021-ci ilin 10 ayı ərzində ölkələrimiz arasında iqtisadi ticarət sahəsində artım qeydə alınıb.

Ölkələrimizin həyata keçirdikləri birgə layihələrdən söz açan nazir "Xudafərin" və "Qız qalası", "Ordubad" su elektrik stansiyalarının inşasını, Astaraçay üzərində körpünün tikilməsini, İran-Azərbaycan-Rusiya dəhlizinin daha da təkmilləşdirilməsini, Neftçalada birgə avtomobil istehsalı zavodunun işə salınmasını misal gətirib.

C.Bayramov qeyd edib ki, İranda yeni hökumət formalaşdıqdan sonrakı bir neçə ay ərzində bir sıra yeni layihələr barədə konkret icraatlar var. Aşqabadda Türkmənistan qazının İran ərazisindən keçməsi barədə müqavilə buna nümunədir. Ən önəmlisi isə yeni layihələrlə bağlı yol xəritəsi üzərində iş gedir.

❖ ❖ ❖

"Qırx dörd günlük müharibədə İranın məsələnin ərazi bütövlüyü daxilində, işğala son qoyulması ilə həllinə dair mövqeyi Azərbaycan tərəfindən dəstəklənib".

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Nazir diqqətə çatdırıb ki, artıq regionda yeni iqtisadi artım imkanları var. Bu şərait bütün bölgə ölkələri üçün faydalı olacaq.

Ceyhun Bayramov xatırladıb ki, uzun illər ərzində işğal altında olmuş Ermənistanla sərhəd Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi ilə bərpa olunub.

"Münaqişədən qısa müddət keçməsinə baxmayaraq, regionda birgə iştirak edərək 3+3 platformasını yarada bilərik. İran və Rusiya bu təşəbbüsə ən tez dəstək verən ölkələrdir. Yaxın gələcəkdə bu prosesin müsbət davamını görəcəyik", - deyən Azərbaycanın XİN rəhbəri vurğulayıb ki, işğaldan azad edilən ərazilərin yenidən qurulması və bərpası ən vacib məsələdir. İran yaxın və dost ölkə kimi azad olunmuş ərazilərdə reallaşdırılan layihələrə marağını ifadə edib.

*AZƏRTAC*

# Azərbaycan-Türkiyə əbədi qardaşlıq münasibətləri daha da inkişaf edir

Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməzin həmsədrliyi ilə Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, iki gün davam edən forum Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya çərçivəsində, strateji enerji əməkdaşlığının daha da möhkəmləndirilməsi məqsədilə təşkil edilib.

Forumda açılış nitqi ilə çıxış edən energetika naziri Pərviz Şahbazov Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunu zirvədə olan Azərbaycan-Türkiyə münasibətlərinin enerji sahəsində də müttəfiqlik səviyyəsinə yüksəlməsini dəstəkləyən platforma kimi qiymətləndirib. Təhlükəsizliyi, inkişafı və tərəqqini təmin edən Azərbaycan-Türkiyə birliyinin Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə regionda yeni geosiyasi reallıqların və inkişaf proseslərinin aparıcı faktoru olduğu bildirilib.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz öz çıxış nitqində xalqlarımızın eyni soykökünə və qarşılıqlı bağlara malik olmasından qaynaqlanan Azərbaycan-Türkiyə əbədi qardaşlıq münasibətlərinin daha da inkişaf etdiyini bildirib. Ölkəmizin Vətən müharibəsindəki Qələbəsinə diqqət çəkən nazir deyib: "İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsi planlaşdırılan "Yaşıl enerji konsepsiyası" çərçivəsində bundan sonra da həm dövlət, həm də özəl sektorumuzla Azərbaycanın yanında olacağıq. Bu yolla həm regionda davamlı sülhün bərqərar olması, həm də işğaldan azad edilmiş rayonların yenidən qurulması üçün Azərbaycanla koordinasiyalı fəaliyyət göstərməyə davam edəcəyik. İnanıram ki, karbohidrogen sənayesi sahəsində birgə həyata keçirdiyimiz çoxsaylı uğurlu əməkdaşlıq təcrübələrinin bərpa olunan enerji sahəsinə transferi əlaqələrimizə yeni təkan verəcək".

Forumda həmçinin iqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Təbriz Əmmayev, TPAO-nun baş direktoru Melih Han Bilgin, Türkiyə Elektrik Ötürmə Şirkətinin baş direktoru Orhan Kaldırım və Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının (DEİK) Enerji Şurası rəhbəri Haluk Kalyoncunun çıxışları dinlənilib. Müvafiq sahələr üzrə əməkdaşlığın inkişafı istiqamətində görülən işlər, nəzərdə tutulan tədbirlər barədə məlumat verilib və İşçi qruplarının forumdan əvvəl keçirilmiş ilk görüşlərinin nəticələri barədə müzakirələr aparılıb.

Tədbirin sonunda Azərbaycan və Türkiyə arasında 6 sənəd imzalanıb. "Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunun Protokolu"nu, həmçinin "Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında təbii qazın tədarükünə dair anlaşma memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz imzalayıblar.

Bununla yanaşı, forum çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və "AzerGold" QSC ilə Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi və MTA Beynəlxalq Mədənçilik Şirkəti arasında əməkdaşlığın həyata keçirilməsi sahəsində anlaşma memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidməti ilə Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi arasında yer elmləri sahəsində əməkdaşlığa dair anlaşma memorandumu", həmçinin "Azerenerji" ASC və "Türkiye Elektrik İletim Anonim Şirketi" (TEİAŞ) arasında əməkdaşlıq Protokol"u imzalanıb.

İmzalanma mərasimindən sonra media nümayəndələri üçün brifinq keçirilib.

Qeyd edək ki, 1-ci Enerji Forumu Azərbaycan və Türkiyə arasında mövcud enerji əməkdaşlığının genişləndirilməsini, yeni əməkdaşlıq imkanlarının dəyərləndirilərək onların konkret layihələr vasitəsilə reallaşdırılmasını hədəfləyir.

# “Olimpiya Mədəniyyəti və Təhsil Proqramı” çərçivəsində keçirilən mədəniyyət festivalı maraqlı anlarla yadda qalıb

“Olimpiya Mədəniyyəti və Təhsil Proqramı” (OCEP) çərçivəsində keçirilən Azərbaycan və Slovakiya mədəniyyət festivalı maraqlı anlarla yadda qalıb.





Azərbaycan Milli Olimpiya Komitəsindən (MOK) AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Slovakiya mədəniyyət festivalının iştirakçıları - MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və baş katib Azər Əliyev, həmçinin təhsil nazirinin müavini Firudin Qurbanov, MOK-un yeni seçilən vitse-prezidenti Zemfira Meftaxetdinova, MOK İcraiyyə Komitəsinin üzvü, gənclər və idman nazirinin müavini Mariana Vasilyeva, ilk növbədə, Y.Kovalyov adına 229 saylı məktəbin şəhid məzunlarına həsr edilən xatirə lövhəsinin qarşısına gül dəstələri qoyublar.

Şəhidlərin əziz xatirəsinin anılmasından sonra OCEP çərçivəsində reallaşdırılan festivala start verilib.

MOK rəhbərliyinin hesabat-seçki Baş Məclisinin iclasından sonra qatıldığı ilk tədbirin qəhrəmanlarının uşaqlar olması təsadüfi deyil. Bu, MOK-un Olimpiya fəlsəfəsini uşaq və yeniyetmələr arasında təbliğinə əhəmiyyət verməsinin göstəricisidir.

Qonaqları Azərbaycan və slovak dillərində salamlayan şagirdlər təbrik sözlərindən sonra 31dekabr - Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan festivalın bədii hissəsi başlayıb.

Məktəblilər hər iki xalqın mədəni irsini özündə ehtiva edən xüsusi kompozisiyalar nümayiş etdiriblər.

Festivalda OCEP-in Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya komitələrinin dəstəyi ilə “Bakı-2019” Avropa Gənclərinin Olimpiya Festivalı (EYOF) çərçivəsində həyata keçirilən ilk və unikal proqram olduğu bildirilib. Qeyd olunub ki, Avropa və Azərbaycan məktəbləri arasında qardaşlaşma və mədəniyyətlərarası mübadilə layihənin əsas komponentlərindən biridir. Mədəniyyət, idman və təhsil təşəbbüsləri vasitəsilə məktəblilər arasında Olimpiya hərəkatı və dəyərlərinin (hörmət, dostluq və mükəmməllik), həmçinin BMT-nin “Dayanıqlı İnkişaf Məqsədləri”nin təbliğ və təşviq edildiyi OCEP-in birinci mövsümündə 100 mindən çox şagird, 6 mindən çox müəllim cəlb olunub.

“Bakı-2019”dan bəhs edən videoçarxın nümayişindən sonra 2022-ci ildə Avropa Gənclərinin Olimpiya Festivalının Slovakiyanın Banska-Bistrika şəhərində keçiriləcəyi haqda məlumat verilib. Proqramın uğurunu nəzərə alaraq Slovakiya Olimpiya Komitəsinin də rəsmi olaraq OCEP-ə qoşulması onu “Banska-Bistrika 2022”nin irsinə çevirmək haqda qərarının əhəmiyyəti xüsusi vurğulanıb. Proqramın ilk mövsümünə olan maraq nəzərə alınaraq Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Təhsil Nazirliyinin və digər tərəfdaşların dəstəyi ilə layihənin bu dəfə Slovakiya ilə paralel şəkildə yenidən Azərbaycanda icra ediləcəyi də bildirilib. Xüsusi qeyd olunub ki, OCEP-in ilk mövsümündən fərqli olaraq, 2022-ci ildən icra ediləcək ikinci mövsümündə qardaşlaşmış məktəblər şəbəkəsinə təkcə Avropadan deyil, dünyanın müxtəlif ölkə və şəhərlərindən də məktəblər qoşula biləcək. Y.Kovalyov adına 229 saylı məktəb bu mötəbər tədbir çərçivəsində AGOF-un yeni ev sahibi Slovakiyanı təmsil edəcək.

Azərbaycan məktəbinin Slovakiyada əməkdaşlıq etdiyi təhsil ocağı isə öz növbəsində məktəblərin səmərəli işbirliyi sayəsində ölkəmizin milli mədəniyyətini təbliğ edəcək və festival çərçivəsində Azərbaycanı təmsil edəcək. Bu isə öz növbəsində mədəni əlaqələr, həmçinin məktəblilər arasında dostluq münasibətlərinin gücləndirilməsi ilə yanaşı, Olimpiya hərəkatının təbliğinin və təşviqinin daha yaradıcı formatda həyata keçirilməsinə mühüm töhfə verir. Məktəbin uğurlu idmançı şagirdlərinin təqdimatı, Slovakiya mətbəxinin ləziz təamları ilə tanışlıq, “Xarıbülbül” barədə məlumat, “Yallı” rəqsi, eləcə də slovak rəqsləri, məktəblilərin ifasında səslənən mahnılar və Milad bayramına özəl səhnələşdirilmiş musiqili-bədii kompozisiya qonaqların böyük marağına səbəb olub.

Beləliklə, təkcə iştirakçılar arasında deyil, həm də BOK və AOK tərəfindən də böyük rəğbətlə qarşılanan OCEP yeni mərhələyə qədəm qoyur.

## SEMİNARA DƏVƏT
## Çoxillik Müqavilələrdə Malların Təchizatı ilə bağlı Çərçivə Sazişlərinin Tələbləri

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi

Azərbaycan Respublikasının Hökuməti Dünya Bankından Məşğulluğa Dəstək Layihəsini həyata keçirilməsi məqsədilə kredit almış və bu kredit vəsaitinin bir hissəsini Çərçivə Sazışı(ləri) üzrə ödənişlərə tətbiq etmək niyyətindədir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi özəl sektoru (təchizatçıları) 28 dekabr 2021-ci il tarixdə saat 15:00-da (yerli Bakı vaxtı ilə) Zoom vasitəsilə virtual olaraq keçiriləcək seminarda iştirak etməyə dəvət edir. Seminarın məqsədi təchizatçılara Çərçivə Sazişi və Tender/Müqavilə prosesini izah etməkdir.

Maraq göstərən təchizatçılar əlavə məlumatı və seminarın Zoom keçidini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, **huseyngulu.ismayılov@esp.az**, Kimə: Satınalmalar üzrə mütəxəssis Hüseynqulu İsmayılovdan, rəsmi məktub və şirkət haqqında məlumat göndərməklə əldə edə bilərlər.

Seminar Çərçivə Sazişi üzrə ümumi tələblərin müzakirəsinə həsr olunacaqdır. Əlavə olaraq qeyd olunan Layihə çərçivəsində Satınalan Agentlik aşağıdakı müəyyən edilmiş siyahı və lotlara (Saylar Çərçivə Sazişinin müddəti ərzində təxmin edilir) uyğun olaraq Aktivlərin Satınalınması üzrə Çərçivə Sazişi(lər)inin bağlanmasını planlaşdırır və seminar maraq göstərən təchizatçılar üçün bu satınalma növünə dair məlumatlandırma məqsədi daşıyır.

Aktivlər Qrupu -Lot 1

1. Avtoçilingər xidmətləri (600 dəst)
2. Avtoelektrik xidmətləri (300 dəst)
3. Avtomobil şinlərinin bərpası və təmiri xidmətləri (680 dəst)
4. Avtoyağlama xidmətləri (100 dəst)
5. Avtotəmizləmə xidmətləri (600 dəst)
6. Kiçik dəmirçi sexi (700 dəst)
7. Avtorəngsaz (140 dəst)

Aktivlər Qrupu - Lot 2

1. Kiçik fotoatelye (500 dəst)
2. Poliqrafiya xidmətləri (300 dəst)
3. Telefon təmiri (200 dəst)

Aktivlər Qrupu - Lot 3

1. Broyler inkubatoru (100 dəst)
2. Dönərxana (400 dəst)
3. Kiçik dülgər sexi - 1 (800 dəst)
4. İstixana biznesi (700 dəst)
5. Döşəmə və parket cilalanması (200 dəst)
6. PVC qapı və pəncərə istehsalı (700 dəst)
7. Un məmulatları istehsalı (1200 dəst)

Aktivlər Qrupu - Lot 4

1. Ayaqqabı təmiri və istehsalı xidməti (100 dəst)
2. Kişi bərbərxanası (800 dəst)
3. Qadın gözəllik salonu (1000 dəst)
4. Kiçik dərzi sexi (1200 dəst)
5. Aqroturizm (100 dəst)
6. Çatdırılma xidməti (200 dəst)
7. Xalçayuma (80 dəst)
8. Kombi ustası və quraşdırılması xidməti (200 dəst)
9. Su sızıntısı aşkarlama xidməti (100 dəst).

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
Hüseynqulu İsmayılov, satınalmalar üzrə mütəxəssis
27, Nazim Hikmət küç., Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə
AZ1100, Baku, Azerbaijan
E-mail: **huseyngulu.ismayilov@esp.az**

***Tender komissiyası***

## INVITATION TO SEMINAR on
## Requirements of Framework Agreements To Supply Public Goods in multi-year Agreements

Ministry of Labor and Social Protection of Population / Employment Support Proyect

The Government of the Azerbaiyan Republic has received financing from the World Bank toward the cost of the Employment Support Proyect and intends to apply part of the proceeds toward payments under Framework Agreement(s) (The Ministry of Labor and Social Protection of Population / Employment Support Proyect now invites the private sector (suppliers) to participate in a seminar which will be held virtually through Zoom on 28 of December 2021 at 15:00 p.m (local Baku time) to explain to the suppliers the Framework Agreement and the Tendering/Contracting process.

Interested Suppliers may obtain Zoom link to the seminar from the Ministry of Labor and Social Protection of Population / Employment Support Proyect, **huseyngulu.ismayilov@esp.az**, Attn: Huseyngulu Ismayilov, Procurement Specialist by sending an official letter and company profile to the email above.

The Seminar will discuss the Requirements of Framework Agreements in general. Additionally, under the stated Proyect, the Procuring Agency is planning to have Framework Agreement(s) for Procurement of Assets as per the following identified list and Lots (Quantities are estimates for during the term of Framework Agreement), and the seminar would be a good forum for interested suppliers to get familiar with this procurement:

Assets Group - Lot 1

1. Auto mechanic services (600 sets)
2. Auto electric services (300 sets)
3. Car tire restoration and repair services (680 sets)
4. Auto lubrication services (100 sets)
5. Car cleaning services (600 sets)
6. Small blacksmith shop (700 sets)
7. Car painter (140 sets)

Assets Group - Lot 2

1. Small photo workshop (500 sets)
2. Printing service (300 sets)
3. Phone repair (200 sets)

Assets Group - Lot 3

1. Broiler incubator (100 sets)
2. Doner shop (400 sets)
3. Small carpenter's shop - 1 (800 sets)
4. Greenhouse business (700 sets)
5. Floor and parquet polishing service (200 sets)
6. Manufacture of PVC doors and windows (700 sets)
7. Production of bakery products (1200 sets)

Assets Group - Lot 4

1. Shoe repair and production (100 sets)
2. Men's barber shop (800 sets)
3. Women's beauty salon (1000 sets)
4. Small tailor's shop (1200 sets)
5. Agrotourism (100 sets)
6. Delivery service (200 sets)
7. Carpet washing service (80 sets)
8. Combi master and WC area installation service (200 sets)
9. Water leak detection service (100 sets).

Ministry of Labor and Social Protection of Population / Employment Support Proyect
Attn: Mr.Huseyngulu Ismayilov,
Procurement Specialist
27, Nazim Hikmet str., Rich Plaza, 1st entrance, 2nd floor
AZ1100, Baku, Azerbaiyan
E-mail: **huseyngulu.ismayilov@esp.az**

***Tender komissiyası***

## “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti 330/110/10 kV-luq “Ağcabədi” Yarımstansiyası - 330/110/10 kV-luq “Cəbrayıl” Yarımstansiyası arası 330 kV-luq birdövrəli HX-nin tikintisi və elektrikquraşdırma işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

**LOT - 6.** 330/110/10 kV-luq “Ağcabədi” Yarımstansiyası - 330/110/10 kV-luq “Cəbrayıl” Yarımstansiyası arası 330 kV-luq birdövrəli HX-nin tikintisi və elektrikquraşdırma işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

hesaba köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında, “Azərenerji” ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-26-96, 598-05-56.

LOT - 6. 330/110/10 kV-luq “Ağcabədi” Yarımstansiyası - 330/110/10 kV-luq “Cəbrayıl” Yarımstansiyası arası 330 kV-luq birdövrəli HX-nin tikintisi və elektrikquraşdırma işlərinin satın alınması üzrə iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizii həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifi isə **09 fevral 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların tender təklifləri **10 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

